# NOVRUZ BAYRAMINIZ MÜBARƏK!

RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 62 (9517) 20 mart 2024-cü il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR




# Bütöv Azərbaycanın Zəfər tonqalı

## Qalib Lider İlham Əliyev Xankəndidən bir daha dünyaya "Qarabağ Azərbaycandır!" ismarıcını verdi

**"Dördüncü dəfədir ki, bayram tonqalını mən azad edilmiş Qarabağ torpağında qalayıram. 2021-ci ildə Şuşada, 2022-ci ildə Suqovuşanda, keçən il Talış kəndində, bu dəfə isə Xankəndi şəhərində bayram tonqalı qalanır. Bu, böyük xoşbəxtlikdir".**

2024-cü il martın 18-də Xankəndi şəhərində Novruz tonqalını alovlandıran Müzəffər Ali Baş Komandan İlham Əliyev Zəfər meydanından Vətən qürurunu bölüşdü, Azərbaycan xalqına bayram təbriklərini çatdırdı. Onilliklərin ardından bu Novruzun bütün Azərbaycanda keçirilməsindən doğan xoşbəxtliyini dilə gətirən Qalib Lider fəxr hissi ilə azərbaycanlıların bu xan şəhərindən bütün dünyaya "Qarabağ Azərbaycandır!" ismarıcını səsləndirdi. Xankəndidə qaladığı müqəddəs tonqalın gur işığı ilə dosta sevinc, düşmənlərə gözdağı verdi...

Vətənin bütövlüyü uğrunda canlarından keçən və təqvimdəki qara haşiyəli günlərimizi bayrama çevirən şəhidlərimizin ruhunu şad etdi...

### Bu Novruzun bir başqa təmtərağı var

İndi yaşıl donlu, gül-çiçək ətirli bahar elimizə bir başqa təntənə, növraqla qədəm basıb. İlin bu vədəsi adətən, qaş-qabaqlı olan Günəş zərrin şəfəqləri ilə ana torpağa nur çiləyir, ağaclar sevinclə tumurcuq gözlərini açır, ala-ala talalardan zərif bənövşələr boy atır. Göylərdən nur ələnir, Qarabağdan, Şərqi Zəngəzurdan baş götürən ılıq yaz mehi yurdumuzun dörd bir yanına burum-burum Vətən ətri yayır...

Şuşada, Xankəndidə, Xocalıda, bütün Azərbaycanda çatılan Zəfər, Novruz tonqallarının şölələri xalqımızın ruhuna, qəlbinə xoşbəxtlik saçır...

İllərlə bu günlərin həsrətilə yanıb-qovrulmuşduq. Bir müddət idi ki, xalqımız coşqu ilə bayram keçirməyi, şadlanmağı yadırğamışdı. 1990-cı illərin əvvəllərində yenicə müstəqillik qazanıb qədim el bayramlarımıza qovuşsaq da bu xoşbəxtliyimiz çox uzun sürməmişdi.

→ 4

## Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva İlaxır çərşənbə ilə bağlı paylaşım edib




## Azərbaycan COP29-un gündəliyinə fərqli elementlər daxil edəcək

Azərbaycanın 2024-cü ildə BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu (COP29) sessiyasına evsahibliyi etməsi bütün dünyanın diqqət mərkəzindədir. Dünyanın bir sıra aparıcı dövlətlərinin mətbuatında COP29-un dünya üçün əhəmiyyətindən bəhs edən silsilə yazılar dərc edilir. İtaliya mətbuatında verilmiş yazıda COP29-un ilin sonunda Azərbaycanda keçirilməsinin əhəmiyyətindən və beynəlxalq gözləntilərdən bəhs olunur. Məqalədə bildirilir ki, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına Bakının evsahibliyi etmək üçün seçilməsi qlobal enerji diplomatiyasının perspektivləri ilə bağlı beynəlxalq müzakirələrin nəticəsidir. Çünki Azərbaycan karbohidrogenlərin hasilatı və satışı, həmçinin dayanıqlı enerji planlaşdırması perspektivləri sayəsində qlobal enerji reallığında xüsusilə yer tutan ölkədir. 2016-cı ildə "Paris İqlim Sazişi"nə qoşulan Azərbaycan 2030-cu ilədək istixana qazlarının emissiyalarının səviyyəsinin 35 faiz azaldılmasını hədəfləyir. COP29-un bu il Bakıda keçirilməsi Azərbaycanın "yaşıl enerji" siyasətinə qlobal dəstəyi ifadə edir.

→ 3

## Xoş niyyətlər bayramı

"Böyük mənəvi gücə malik olan Novruz bayramı ulu əcdadlarımızın bizə verdiyi ən gözəl yadigar olub, Azərbaycan xalqının milli ruhunu və yaddaşını, onun daxili aləmini bütün zənginliyi ilə yaşadır. Təbiətin oyanışının, varlığın yenidən canlanmasının müjdəsini verən Novruz bayramı ən qədim zamanlardan bəri həyat və məişətimizə daxil olmuş, insanlara aydın və işıqlı sabaha, xoşbəxt gələcəyə inam duyğusu bəxş etmişdir" deyən Ulu Öndər bu bayramı milli ruhumuzu yaşadan, xalqın genetik yaddaşını qoruyan əsas amil kimi dəyərləndirmiş və onu əbədiləşdirmişdir. Bu, əslində, Ümummilli Lider tərəfindən atılan möhtəşəm bir addım idi.

Dörd ildir ki, başqa el bayramlarımız kimi, Novruzun da tamam yeni bir hüsnü var. Xalqın son dörd ilə qədər hər Novruz bayramında dilə gətirdiyi, müqəddəs dua kimi zikr etdiyi arzular çin çıxdı. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, rəşadətli ordumuzun gücü ilə torpaqlarımız işğaldan azad edildi. Artıq dörd ildir ki, azad yurdlarımızda Novruz tonqalları qalanır, bu torpaqlar da bayram ab-havasına bürünür. Ötən il ölkəmizin ərazi bütövlüyü təmin olunduqdan sonra Novruz bayramında ilk dəfə olaraq Xankəndidə, Xocalıda və Qarabağdakı digər əzəli-əbədi yurdlarımızda da bayram ocaqları çatılır.

→ 8

## Azərbaycan-NATO əməkdaşlığı qarşılıqlı maraqlara xidmət edir

NATO-nun Baş katibi Yens Stoltenberqin Qafqaz turnesinə məhz Bakıdan başlaması siyasətçilərin diqqətini cəlb edib. Bu, bir daha sübut edir ki, Azərbaycan bölgədə əsas söz sahibidir. Y.Stoltenberq Bakıda mətbuata verdiyi bəyanatında Azərbaycanın NATO müttəfiqləri ilə əlaqələrinin inkişaf etdirdiyini alqışlamış, ölkəmizin NATO-nun əsas müttəfiqlərinin enerji təhlükəsizliyində mühüm rol oynadığını bildirmişdir. Azərbaycan-Ermənistan arasında aparılan sülh danışıqlarına da toxunan NATO-nun Baş katibi uzun illər çəkən münaqişədən sonra Azərbaycanın hazırda davamlı sülhə nail olmaq imkanı qazandığını demişdir.

→ 4

## Yeni qərəz, köhnə xislət

Qəbul olunan qərəzli qətnamələrdən açıq-aydın hiss edilir ki, Avropa Parlamentində oturanlar heç bir əsası olmayan iddialarla Azərbaycana böhtan atmağa çalışırlar. Əslində, Avropa Parlamentinin son qətnaməsi Azərbaycanın Ermənistan üzərində qələbə çalmasından, ərazi bütövlüyünü bərpa etməsindən doğan qəzəbin təzahüründən başqa bir şey deyil. Görünür, son zamanlar Ermənistanla Azərbaycan arasında müşahidə edilən nisbi sabitlik, iki ölkə arasında vasitəçilərin iştirakı olmadan keçirilən danışıqlar, yüksəksəviyyəli təmaslar Avropa Parlamentini məyus edir. Onlar hansı yolla olursa olsun, iki ölkə arasında vasitəçi olmağa can atırlar. Hansı ki, heç buna ehtiyac da yoxdu.

→ 5

## Xankəndidə və Xocalıda da bayram tonqalları qalanır

**Bu il biz Novruzu son üç onilliyin ən yüksək təntənəsi, ən möhtəşəm qüruru ilə qarşılayırıq. Lokal xarakterli antiterror əməliyyatları nəticəsində Prezident İlham Əliyevin təbirincə desək, Azərbaycan öz dövlət suverenliyini tam təmin etdi. Qarabağ və Şərqi Zəngəzurda indi üçrəngli Azərbaycan bayraqları dalğalanır. Bu, böyük tarixi hadisədir: "Bu tarix bizim qəlbimizdə əbədi yaşayacaq. Azərbaycan xalqı, dünya azərbaycanlıları bu Zəfərlə bundan sonra əbədi fəxr edəcəklər". Məhz bu Zəfərin sevinci Novruz sevincinə qarışanda bir ayrı aləm olur, böyük ruh yüksəkliyi insanı qanadlandırır. Ulu Öndər hələ 1988-ci ildə demişdi: "Gün o gün olacaq ki, Novruz bayramını bir dəfə Şuşada, o biri il Laçında, o biri il Kəlbəcərdə, Ağdamda, Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda keçirəcəyik. Əminəm ki, belə də olacaqdır".**



→ 9

## Fransa vəhşi təfəkkürə görə Ermənistandan geri qalmır

Torpaqlarımızın 20 faizinin Ermənistan tərəfindən işğal olunduğu dövrdə beynəlxalq hüququn gücünə inanan Azərbaycan Fransanın da təmsil olunduğu ATƏT-in Minsk qrupuna ümid bəsləyirdi. BMT TŞ-nin 4 qətnaməsinin icra ediləcəyinə və ədalətin bərpa olunacağına inanaraq Parisin İrəvana təzyiq göstərəcəyini gözləyirdi. Lakin Minsk qrupu Azərbaycanı işğalla barışdırmağa və torpaqlarımızda erməni işğalını əbədiləşdirməyə çalışdı. Elə ovaxtı başa düşdük ki, Fransa özünü ermənilərin havadarı kimi aparır.

→ 5

## Ermənistan sülh üçün yaranmış tarixi şansı dəyərləndirməlidir

Azərbaycanla Ermənistan arasında sülh sazişinin bağlanması istiqamətində ikitərəfli görüşlərin keçirilməsi sülhün yaranmasına müsbət təsir göstərir. Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması və sülh müqaviləsinin imzalanması ilə Cənubi Qafqazın sülh və əməkdaşlıq məkanına çevrilməsi üçün yaranmış bu tarixi şəraitdə danışıqlar davam edir. Hər iki dövlətin xarici işlər nazirlərinin sülh müqaviləsinin mətninin hazırlanması, baş nazirlərin müavinlərinin sərhədlərin delimitasiyası üzərində apardıqları danışıqlar etimad mühitinin formalaşmasına töhfə verir.

→ 5

# Azərbaycan-Çin münasibətləri dostluq və etibarlı tərəfdaşlıq müstəvisində uğurla inkişaf edir





**Martın 19-da Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ilə Çin Xalq Respublikasının (ÇXR) Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri xanım Qo Min arasında görüş keçirilib.**

Görüşdə Azərbaycan-Çin münasibətlərinin dostluq və etibarlı tərəfdaşlıq müstəvisində uğurla inkişaf etdiyi, bir-birinin milli maraqlarına hörmətlə yanaşan və ərazi bütövlüyünü dəstəkləyən iki ölkə arasındakı qarşılıqlı faydalı əməkdaşlığın mühüm perspektivlərə malik olduğu vurğulanıb.

Diqqətə çatdırılıb ki, Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev ilə Çin Xalq Respublikasının Sədri, Çin Kommunist Partiyasının Baş katibi Si Cinpin iki ölkə arasında əlaqələrin inkişafına xüsusi önəm verirlər. Bunun nəticəsidir ki, strateji xarakter daşıyan və müxtəlif sahələri əhatə edən çoxşaxəli münasibətlər yüksələn xətt üzrə inkişaf edir. Azərbaycan ilə Çin siyasi, iqtisadi, mədəni, humanitar və digər sahələrdə əlaqələri genişləndirməkdə maraqlıdırlar. Eyni zamanda "Bir kəmər, bir yol" layihəsi və Orta dəhliz çərçivəsində nəqliyyat-logistika sahəsində əməkdaşlıq böyük önəm daşıyır və yaxşı perspektivlər vəd edir.

Söhbət zamanı qarşılıqlı səfərlərin ikitərəfli münasibətlərin inkişafı, faydalı fikir və təcrübə mübadiləsinin aparılması və məhsuldar işbirliyinin dərinləşdirilməsi baxımından mühüm əhəmiyyətə malik olduğu qeyd edilib.

Azərbaycan-Çin münasibətlərinin inkişafında iki ölkənin hakim partiyalarının əməkdaşlıq əlaqələrinin rolu da diqqətə çatdırılıb. 2023-cü ilin may ayında Tahir Budaqovun rəhbərliyi ilə YAP nümayəndə heyətinin Çinə uğurlu səfərini və orada keçirilmiş yüksəksəviyyəli görüşləri xatırladan səfir Qo Min "YAP ilə ÇKP-nin fəal dialoqu xalqlarımız arasında dostluq münasibətlərinin möhkəmlənməsinə və çoxşaxəli əməkdaşlığın dərinləşməsinə təkan verir" , - deyə bildirib. Son illərdə hakim partiyalar arasında qarşılıqlı təmasların artmasının partiyalararası əlaqələrdə yüksələn dinamikanın əyani göstəricisi olduğu diqqətə çatdırılıb.

YAP Sədrinin müavini Tahir Budaqov səfir Qo Minin Azərbaycanda fəaliyyəti müddətində ölkələrimiz arasındakı səmimi dostluq münasibətlərinin və hakim partiyaların qarşılıqlı əlaqələrinin inkişafına verdiyi töhfələrə görə ona təşəkkürünü bildirib və uğurlar arzulayıb.

Minnətdarlığını bildirən səfir Qo Min Çinin etibarlı tərəfdaşı olan Azərbaycanda fəaliyyət göstərməkdən son dərəcə məmnun olduğunu, ölkəmizin inkişafının bundan sonra da uğurla davam edəcəyinə və beynəlxalq münasibətlər sistemində mövqeyinin daha da möhkəmlənəcəyinə inamını ifadə edib.

Sonda qarşılıqlı olaraq hədiyyələr təqdim olunub və xatirə fotosu çəkdirilib.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Milli Məclisdə görüş



**Milli Məclisin Sədr müavini, parlamentin Gənclər və idman komitəsinin sədri Adil Əliyev martın 19-da Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin dəvəti ilə Azərbaycanda səfərdə olan Amerika Birləşmiş Ştatlarının Briqam Yanq Universitetinin bir qrup tələbəsi ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Adil Əliyev qonaqları Milli Məclisin Sədri Sahibə Qafarovanın adından salamlayıb, onları Azərbaycan parlamentində görməkdən məmnunluğunu bildirib. Amerikalı tələbələrə Milli Məclis haqqında məlumat verən vitse-spiker parlamentin formalaşması, strukturu, fəaliyyət istiqamətləri haqqında danışıb, onun beynəlxalq əlaqələrindən, beynəlxalq təşkilatlarda təmsilçiliyindən bəhs edib. Adil Əliyev qonaqlara Azərbaycanda uğurla həyata keçirilən multikulturalizm siyasətindən, ölkəmizin tolerantlıq ənənələrindən, həm də dünyada idman ölkəsi kimi də tanınmağından söz açıb.

Adil Əliyev həmçinin Ermənistanın Azərbaycan torpaqlarını 30 il işğal altında saxlamasını, bu dövrdə azərbaycanlılara qarşı soyqırımı həyata keçirməsini, ölkəmizin bu problemi dinc yolla həll etmək üçün 30 il səbirlə danışıqlar aparmasını, nəhayət, 2020-ci ildə 44 günlük Vətən müharibəsində öz torpaqlarını işğaldan azad etməsini, keçən il keçirilən lokal xarakterli antiterror tədbirləri nəticəsində isə suverenliyini tam təmin etməsini qonaqların diqqətinə çatdırıb. O, bölgədəki vəziyyət, Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması, Azərbaycan tərəfindən bölgədə davamlı sülhün bərqərar olunması istiqamətində atılan addımlar barədə məlumat verib.

Vitse-spiker tələbələrə Azərbaycanda tarixən formalaşmış tolerantlıq ənənələrindən, ölkədə uğurla həyata keçirilən multikulturalizm siyasətindən danışıb, müasir dünyada mədəniyyətlərarası dialoqun mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Görüşdə Adil Əliyev qonaqları maraqlandıran sualları cavablandırıb.

Sonra görüş iştirakçıları parlamentin inzibati binası ilə tanış olublar.

*"Azərbaycan"*

# Aleksandr Bastrıkin ölkəmizdə işgüzar səfərdədir








**Baş prokuror Kamran Əliyevin dəvətilə martın 19-da Rusiya Federasiyası İstintaq Komitəsinin sədri Aleksandr Bastrıkinin rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə işgüzar səfərə gəlib.**

İlk öncə nümayəndə heyəti Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edərək məzarı önünə əklil qoyub, eləcə də görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın məzarını ziyarət edib.

Daha sonra Şəhidlər xiyabanına gələn qonaqlar Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olan qəhrəman Vətən övladlarının xatirəsinə ehtiramlarını bildirib, məzarları üzərinə gül dəstələri düzüblər.

Azərbaycan Respublikasının Baş Prokurorluğunda keçirilmiş ikitərəfli görüşdə baş prokuror Kamran Əliyev ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı, dövlət başçıları cənab İlham Əliyev və cənab Vladimir Putinin birgə səyləri və siyasi iradələri sayəsində bu əlaqələrin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini, ikitərəfli münasibətlərin bütün istiqamətlərdə uğurla inkişaf etdiyini qeyd edib.

Baş prokuror 2020-ci ildə 44 günlük Vətən müharibəsi nəticəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızın işğaldan azad olunduğunu, ötən ilin sentyabr ayında isə 24 saatdan az davam edən lokal xarakterli antiterror əməliyyatlarının uğurla başa çatması ilə dövlət suverenliyinin bütün ölkə ərazisində bərpa edildiyini vurğulayıb.

Kamran Əliyev həmçinin müharibədən sonrakı dövrdə ölkə Prezidentinin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi və diqqəti ilə işğaldan azad edilmiş ərazilərimizdə bərpa-quruculuq işlərinin həyata keçirilməsi, soydaşlarımızın doğma yurdlarına qayıdışı və bu istiqamətdə görülən sistemli işlərdən bəhs edib.

Baş prokuror prokurorluqda aparılan genişmiqyaslı islahatlar çərçivəsində Elektron prokurorluq informasiya sisteminin fəaliyyəti barədə qonaqlara məlumat verib.

Dünyanın ən mötəbər beynəlxalq tədbirlərindən biri olan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un ölkəmizdə keçiriləcəyini bildirən baş prokuror istintaq orqanlarının ekoloji sahədə törədilən hüquqpozmalara qarşı gördüyü tədbirlərin önəmini vurğulayıb.

Azərbaycan Respublikasının prokurorluq orqanları ilə əməkdaşlıqdan məmnunluğunu ifadə edən Aleksandr Bastrıkin göstərilən yüksək qonaqpərvərliyə görə dərin minnətdarlığını bildirib. İki dost və tərəfdaş dövlətin istintaq orqanları arasında uzunmüddətli sıx əlaqələrin olduğunu bildirən qonaq, prokurorluq orqanlarının müasirləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlərin təqdirəlayiq olduğunu vurğulayıb.

Görüşdə cinayətkarlığa qarşı mübarizə sahəsində əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparılaraq hüquqi əməkdaşlıq sahəsində mövcud müqavilə bazasının təkmilləşdirilməsindən danışılıb.

Nümayəndə heyətin üzvləri daha sonra Baş Prokurorluğun tarix muzeyində Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə yaradılmış güşə, Azərbaycan Prokurorluğunun zəngin tarixi, prokurorluq işçilərinin geyim formaları və fərqlənmə nişanlarının nümayiş olunduğu bölmə, eləcə də digər sənəd və eksponatlarla tanış olublar.

Əlaqələrin gələcəkdə daha da intensivləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə Rusiya Federasiyasının İstintaq Komitəsi arasında 2024-2026-cı illər üçün Əməkdaşlıq Proqramı imzalanıb. İmzalanma mərasimi çərçivəsində Aleksandr Bastrıkin baş prokuror Kamran Əliyevi "Vəzifə borcuna sadiqliyə görə" medalı ilə, baş prokuror isə həmkarını "Azərbaycan Prokurorluğunun 100 illiyi" yubiley medalı ilə təltif edib.

Ölkəmizə işgüzar səfəri çərçivəsində A.Bastrıkin Baş Prokurorluğun, eləcə də digər istintaq qurumlarının rəhbərləri və əməkdaşları, həmçinin Baş prokuror yanında Elmi-Məsləhət Şurasının üzvlərinin və vəkillərin qatıldığı Baş Prokurorluğun yeni inzibati binasında təşkil olunmuş "İstintaq təcrübəsinin aktual problemləri" mövzusuna həsr olunmuş elmi-praktik konfransda iştirak edib. İstintaq Komitəsinin sədri konfransda geniş mühazirə ilə çıxış edərək tədbir iştirakçılarının suallarını cavablandırıb.

İstintaq Komitəsinin sədri Aleksandr Bastrıkinin ölkəmizə işgüzar səfəri başa çatıb.

# Prezidentin göstərişi ilə bölgələrdə vətəndaşların qəbulu keçirilir

Martın 18-də ədliyyə naziri Fərid Əhmədov Saatlı rayonunda ədliyyə fəaliyyəti ilə bağlı vətəndaşları qəbul edib, onların müraciətlərini dinləyib.

Bu barədə AZƏRTAC-a Ədliyyə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

Qəbulda Saatlı, Sabirabad, İmişli və digər rayonlardan olan vətəndaşlar, şəhid ailələri, müharibə iştirakçıları iştirak ediblər. Onların ədliyyə fəaliyyətinin ayrı-ayrı sahələri ilə bağlı müraciətlərinə baxılıb, digər qayğıları ilə maraqlanıblar. Qaldırılan məsələlərin araşdırılması məqsədilə nəzarətə götürülərək həlli ilə bağlı müvafiq tədbirlərin görülməsi üçün nazirliyin qəbulda iştirak edən aidiyyəti əməkdaşlarına tapşırıqlar verilib.

Nazir F.Əhmədov Prezident İlham Əliyevin insanlara layiqli xidmət göstərilməsi, onların müraciətlərinə həssaslıqla yanaşılması ilə bağlı tapşırıqlarının daim diqqətdə saxlanıldığını bildirib. Vətəndaşlar onlara göstərilən diqqət və qayğıya, yerlərdə mütəmadi qəbulların təşkilinə görə dövlət başçısına minnətdarlıqlarını ifadə ediblər.

# ƏÜO-da mühəndis təminatı bölmələrinin hazırlığı daim diqqət mərkəzindədir

**Müasir ümumqoşun döyüşündə mühəndis təminatı manevr bölmələri tərəfindən döyüş tapşırıqlarının yerinə yetirilməsi üçün əlverişli şəraitin yaradılması, onların məhvetmə vasitələrindən qorunması səviyyəsinin yüksəldilməsi, həmçinin düşmənə mühəndis döyüş sursatları ilə itki verilməsi və onun fəaliyyətinin çətinləşdirilməsi məqsədilə təşkil edildiyi üçün mühəndis təminatı bölmələrinin şəxsi heyətinin hazırlığının daim yüksək səviyyədə saxlanılmasını tələb edir.**

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

Keçirilən məşğələ, toplantı və təlimlərdə əsas diqqət şəxsi heyətin nəzəri biliklərinin təkmilləşdirilməsi ilə yanaşı, onların döyüş sahəsində fəaliyyət zamanı praktiki vərdişlərinin möhkəmləndirilməsinə, tapşırıqların icrası zamanı yüksək dözümlülük, dəqiqlik, qorxmazlıq və özünəəminlik kimi keyfiyyətlərin aşılanmasına yönəldilir.

Praktiki məşğələlər zamanı düşmənin, ərazinin və obyektlərin mühəndis kəşfiyyatı, mühəndis maneələrinin qurulması və saxlanılması, maneələrdən və dağıntılardan keçidlərin açılması, ərazi və obyektlərin minalardan təmizlənməsi, maskalanma və düşmənin aldadılması kimi tapşırıqların icrası, eləcə də şəxsi heyətin fiziki hazırlığı daim diqqət mərkəzində saxlanılır. Bu məqsəd ilə keçirilən məqbullarda prinsipiallıq əsas meyar olaraq götürülür.

# Ali Məclisin rəsmi saytı təkmilləşdirilib





**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin fəaliyyətində aşkarlığın təmin olunması, həyata keçirilən tədbirlərin obyektiv işıqlandırılması, ictimaiyyət, media ilə əlaqələrin genişləndirilməsi məqsədilə 8 bölmə və 65 alt bölmədən ibarət Ali Məclisin yeni veb-saytı yaradılıb. Yenilənmiş sayt həm dizayn, həm də məzmun cəhətdən əvvəlki versiya ilə müqayisədə daha da təkmilləşdirilib və yeni informasiyalarla zənginləşdirilib. İstifadəçi rahatlığını təmin etmək üçün daha müasir proqram təminatlarından istifadə olunub.**

Sayta daxil olarkən açılan pəncərədə Prezident Kitabxanasının rəsmi internet saytında yerləşdirilən "Naxçıvan Muxtar Respublikası - 100" adlı elektron məlumat bazasına və muxtariyyətin 100 illiyi ilə bağlı Naxçıvan Muxtar Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən hazırlanan sayta keçid etmək mümkündür.

İzləyicilər "alimajlis.gov.az" internet ünvanına daxil olmaqla, Ali Məclisin fəaliyyəti haqqında ətraflı məlumat əldə edə biləcəklər. Ümumi dizayn, məzmun, istifadəçi rahatlığı, texniki imkanlar nəzərə alınmaqla sayt yenidən qurulub. Əsas menyusunda "Ana səhifə", "Haqqımızda", "Qanunvericilik", "Cari fəaliyyət", "Azərbaycan", "Naxçıvan MR", "Xəbərlər", "Media" bölmələrinin yer aldığı yeni saytın yaradılmasında məqsəd bütün istifadəçilər, o cümlədən Ali Məclisə müraciət edən bütün şəxslər üçün saytın daha əlçatan olmasının təmin edilməsi, vətəndaş müraciət və sorğularına daha operativ şəkildə cavab verilməsi, Ali Məclisin fəaliyyəti barədə məlumatlandırma və maarifləndirmə işini təşkil etmək, ictimaiyyətin Ali Məclisin fəaliyyəti ilə əlaqədar məlumatları sərbəst, maneəsiz və hamı üçün bərabər şərtlərlə qanunla müəyyən olunmuş qaydada əldə etməsidir. Saytda Ali Məclis və onun strukturu haqqında məlumat, foto və videomateriallar yerləşdirilib, həmçinin Ali Məclisin qanunvericilik fəaliyyəti, deputatları, Aparatın əməkdaşları, keçirilən tədbirlər, plenar, komitə və komissiya iclasları haqqında məlumatlar yerləşdirilib.

Xüsusi olaraq qeyd etmək lazımdır ki, saytda "Naxçıvan MR" bölməsində yerləşən "Ulu Öndər Heydər Əliyevin Naxçıvan dövrü (1990-1993)" alt bölməsində Ümummilli Liderin Naxçıvanda fəaliyyəti ilə bağlı məlumat, eləcə də Ali Məclisdə işlədiyi dövrə, sessiyalardakı çıxışlarına dair fotolar, Ali Məclisin tarixi, Naxçıvan Muxtar Respublikasının Konstitusiyası, muxtariyyətlə bağlı materiallar, Moskva və Qars müqavilələri, həmin müqavilələr əsasında hazırlanmış xəritələr yerləşdirilib.

Vətəndaşları hüquqi aktlar barədə məlumatlandırmaq və həmin aktları əlçatan etmək məqsədilə Naxçıvan Muxtar Respublikası hüquqi aktları Ədliyyə Nazirliyinin hüquqi aktların vahid elektron bazası olan "e-qanun.az" saytının Naxçıvan Muxtar Respublikası bazasına inteqrasiyası təmin edilib.

Saytın yenilənmiş versiyasının əsas üstün cəhətlərindən biri də mobil telefonlar üçün interfeysinin hazırlanmasıdır. Yenilənmiş saytdan həm kompüter, həm mobil telefon, həm də planşet vasitəsilə istifadə etmək mümkündür.

Saytın əsas xüsusiyyətlərindən biri də "Vətəndaşlar üçün" başlığı altında "Əlaqə", "Sorğu", "Qəbul günləri", "Müntəzəm verilən suallar", "Müraciət" və "Qəbula yazılmaq" bölmələrinin yaradılmasıdır. "Əlaqə" bölməsində Ali Məclisin ünvanı, elektron poçtu, əlaqə telefonları yerləşdirilib. Vətəndaşlar aidiyyəti üzrə müraciətlərini asanlıqla elektron poçta (info@alimajlis.gov.az) göndərə biləcəklər. Hər bir internet istifadəçisinə Ali Məclisin sədrinə, onun müavinlərinə, Ali Məclisin deputatlarına, həmçinin Aparatın vəzifəli şəxslərinə birbaşa müraciət etməsi üçün imkanlar yaradılıb.

Saytda eyni zamanda Ali Məclisin sosial media hesablarına - "Facebook" (Ali Məclis), "Instagram" (alimajlisofficia), "X" (@_AliMajlis_), "Youtube" (@AliMajlis), "Linkedin" (Ali Məclis) və "Telegram"a (Ali Məclis) keçid imkanları mövcuddur. Artıq yenilənmiş saytdakı materialları sosial şəbəkə hesablarında operativ şəkildə paylaşmaq mümkündür.

Saytın "AzStateNet" şəbəkəsində yaradılması kibertəhlükəsizlik baxımından zəmanət verir. Ali Məclisin rəsmi internet saytı Naxçıvan Muxtar Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən müasir proqramlaşdırma dillərindən istifadə edilərək hazırlanıb. Yenilənmiş internet səhifəsinin SSL (təhlükəsizlik) sertifikatı ilə təmin olunması, optimizasiyası (SEO-Search Engine Optimization), axtarış sistemlərinə uyğunlaşdırılması, "Google" axtarış sistemində qeydiyyatdan keçirilməsi və axtarış sistemlərində ön sıralarda görünməsi üçün zəruri texniki tədbirlər həyata keçirilib. Əvvəlki arxiv qorunub saxlanılıb, saytın yuxarı sağ küncündə əvvəlki versiyaya keçid qoyulub. Həmçinin saytın domen ünvanı da müvafiq qaydada yenilənməklə "GOV.AZ" domeninə bağlı e-poçt adresi ilə təmin edilib.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*







# Azərbaycan COP29-un gündəliyinə fərqli elementlər daxil edəcək

**Martın 13-dən 16-dək keçirilən XI Qlobal Bakı Forumunda BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu (COP29) sessiyasının Azərbaycanda keçirilməsi ətrafında da geniş müzakirələr aparılıb.**

Qeyd edək ki, forumda BMT baş katibinin siyasi məsələlər üzrə müavini Qay Rayder də iştirak edirdi. Çıxışı zamanı o qeyd edib ki, qlobal məsələlər ən münasib vaxtda həll edilməlidir: "Parçalanma, hərbi qüvvədən istifadə etmə yolverilməzdir. BMT baş katibi dəfələrlə bəyan edib ki, dağıdıcı xətləri aradan qaldırmalıyıq. Aydındır ki, dünya dəyişib. Biz qütblü dünyaya getməliyik. 2030-cu ilə qədər gündəlik müzakirə edilib. Dünya ictimaiyyətinin əsas böhranları aradan qaldırması çox vacib məsələdir. Qay Rayder onu da xüsusi vurğulayıb ki, Bakıda keçiriləcək COP29 tədbiri də böyük əhəmiyyət daşıyır və Azərbaycanın sədrliyini dəstəkləyirlər.

XI Qlobal Bakı Forumunun "Yaxşı sözlərdən yaxşı hərəkətlərə keçmək: COP29 üçün hansı məqsədlər qoymaq olar" mövzusuna həsr olunan elə ilk panel iclasında çıxış edən BMT-nin İnkişaf Proqramının Administratoru Axim Ştayner bildirib ki, dünya iqlim dəyişiklikləri ilə bağlı təcili cavab tədbirlərimizi səbirsizliklə gözləyir. Azərbaycan COP29-a evsahibliyi edəcək. COP29 iqlim dəyişmələri ilə bağlı atılacaq addımlara mühüm töhfə verəcək. "2024-cü ildə iqlim dəyişikliyi məsələsi milli Dayanıqlı İnkişaf Məqsədlərində öz əksini tapır. Çox sayda ölkə artıq bərpaolunan enerjiyə keçid edib",- deyə Axim Ştayner bildirib.

BMT-nin Məskunlaşma Proqramının 2018-2024-cü illərdə icraçı direktoru xanım Maimuna Mohd Şərifin sözlərinə görə, iqlim dəyişiklikləri nəticəsində təbii fəlakətlər baş verir ki, bu da maliyyə itkisi ilə nəticələnir. "Mən inanıram ki, COP29 yerli səviyyədə tədbirlər planı ilə nəticələnəcək və hər bir ölkənin müəyyənləşdirdiyi yerli planlar 2030 Proqramına töhfə verəcək", - deyə o bildirib.

COP29-un Azərbaycan üzrə baş icraçı direktoru, energetika nazirinin müavini Elnur Soltanov isə müzakirələr zamanı bildirib ki, ev sahibi olaraq fəal hazırlıq işlərinə başlamışıq. Danışıqlar bizə müəyyən təcrübə verəcək və biz əldə etdiyimiz təcrübələri ictimailəşdirəcəyik. Biz COP29-un gündəliyinə faktiki olaraq fərqli elementləri daxil edirik. Ən vacib məsələ dinləməkdir. COP29-un ev sahibi olaraq biz dinləyicilərik. Dinləməklə prosesi faydalı şəkildə idarə etməyə çalışacağıq. Ümumiyyətlə, prosesin davamlılığını və ardıcıllığını təmin etmək vacibdir. Hər kəs bu prosesin tərkib hissəsi olmalıdır. Bu, Azərbaycanın yanaşmasıdır və COP29-da təşkilatçılığın düzgün idarə edilməsindən asılıdır.

Azərbaycanın 2024-cü ildə BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu (COP29) sessiyasına evsahibliyi etməsi bütün dünyanın diqqət mərkəzindədir. Dünyanın bir sıra aparıcı dövlətlərinin mətbuatında COP29-un dünya üçün əhəmiyyətindən bəhs edən silsilə yazılar dərc edilir. İtaliya mətbuatında verilmiş yazıda COP29-un ilin sonunda Azərbaycanda keçirilməsinin əhəmiyyətindən və beynəlxalq gözləntilərdən bəhs olunur. Məqalədə bildirilir ki, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına Bakının evsahibliyi etmək üçün seçilməsi qlobal enerji diplomatiyasının perspektivləri ilə bağlı beynəlxalq müzakirələrin nəticəsidir. Çünki Azərbaycan karbohidrogenlərin hasilatı və satışı, həmçinin dayanıqlı enerji planlaşdırması perspektivləri sayəsində qlobal enerji reallığında xüsusilə yer tutan ölkədir. 2016-cı ildə "Paris İqlim Sazişi"nə qoşulan Azərbaycan 2030-cu ilədək istixana qazlarının emissiyalarının səviyyəsinin 35 faiz azaldılmasını hədəfləyir. COP29-un bu il Bakıda keçirilməsi Azərbaycanın "yaşıl enerji" siyasətinə qlobal dəstəyi ifadə edir.

NATO-nun Baş katibi Yens Stoltenberqin ölkəmizə səfəri zamanı Azərbaycan Prezidenti İlham Əliyevlə görüşüb. Görüş zamanı başqa məsələlərlə yanaşı, COP29-la bağlı fikir mübadiləsi də aparılıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev NATO-nun Baş katibi Yens Stoltenberqlə görüşdən sonra mətbuata bəyanatında bildirib ki, mən cənab Baş katibi bizim "yaşıl keçid" gündəliyi haqqında məlumatlandırdım. Azərbaycan yekdilliklə COP29-a evsahibliyi edəcək ölkə seçilmişdir. Bu, bizim "yaşıl keçid"lə bağlı səylərimizin tanınmasının göstəricisidir. Zəngin təbii ehtiyatlara, qazıntı yanacağına malik ölkə olaraq biz tərəfdaşlarımızla birlikdə bərpaolunan enerji mənbələrinə sərmayə yatırırıq. Mən cənab Baş katibi bu ilin noyabrında vəzifəsindən asılı olmayaraq, ölkəmizə səfərə gəlməyə dəvət etdim ki, o, bu mühüm tədbirdə bizimlə birlikdə olsun.

NATO-nun Baş katibi Yens Stoltenberq isə mətbuata bəyanatında bildirib ki, mən Azərbaycanda keçiriləcək növbəti COP29 görüşünü çox səbirsizliklə gözləyirəm. İqlim dəyişmələri təhlükəsizlik üçün vacibdir və buna görə də o, NATO üçün də əhəmiyyətlidir. İqlim dəyişmələri böhranı dərinləşdirir və biz onun fəsadlarını dünyanın hər yerində, o cümlədən burada - Azərbaycanda görürük. Beləliklə, dünya enerjiyə ehtiyac duyur, lakin eyni zamanda biz qlobal istiləşməyə qarşı mübarizə aparmalıyıq. Biz enerjiyə olan tələbatı ətraf mühit məsələsi ilə uyğunlaşdırmalıyıq. Azərbaycan təkcə təbii qazını ixrac etmir, hazırda Siz, həmçinin alternativ enerjiyə sərmayə yatırırsınız. Siz böyük potensial haqqında mənə məlumat verdiniz və su-elektrik stansiyalarının, eləcə də külək və günəş enerjisi stansiyalarının tikintisi, elektrik enerjisinin Avropa bazarlarına çıxarılması planlarını təsvir etdiniz. COP29 çox mühüm tədbir olacaq. Vacibdir ki, hamı iqlim dəyişmələrinə qarşı mübarizə aparsın. O, təhlükəsizliyimiz üçün vacibdir, çünki həmin məsələlər özünü aydın büruzə verir.

Ölkəmizin dünyanın ən böyük dövlətlərarası tədbirlərindən biri olan COP29-a evsahibliyi etməsi Prezident İlham Əliyevin növbəti təntənəli qələbəsidir. Bu, həm də son zamanlar Azərbaycana qarşı çirkin kampaniya aparan bəzi dövlətlərə layiqli cavabdır. Azərbaycan Prezidenti bu təşəbbüsü ilə Azərbaycanın qüdrətini bir daha dünyaya göstərdi və beynəlxalq aləmdə böyük etimad qazandığını nümayiş etdirdi. Ölkəmiz qlobal problemlərdən biri olan iqlim dəyişmələrinə qarşı səyləri səfərbər etmək və bu mübarizəyə töhfə verməklə dünyanın diqqət mərkəzində olacaq. Gücünü, qüdrətini bir daha dünyaya göstərəcək.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

## IRENA-nın baş direktoru:
## "Azərbaycanın COP29 konfransını uğurla keçirməsi üçün hər cür imkanı var"



**Beynəlxalq Bərpa Olunan Enerji Agentliyi (IRENA) qlobal miqyasda enerji sisteminin transformasiyasının aparıcı qüvvəsi və əməkdaşlıq üçün başlıca platforma kimi qabaqcıl təcrübə mərkəzi rolunu oynayaraq bu sahədə siyasət, texnologiya, resurslar və maliyyə imkanları haqqında bilikləri bir yerə toplayan hökumətlərarası təşkilatdır.**

IRENA dayanıqlı inkişaf, enerjiyə çıxış, enerji təhlükəsizliyi və aşağı karbon emissiyalı iqtisadi artım və rifah hədəflərini rəhbər tutaraq bioenerji, geotermal, hidroenergetika, okean, günəş və külək enerjisi də daxil olmaqla bərpaolunan enerjinin bütün növlərinin geniş yayılmasını və davamlı istifadəsini təşviq edir. Yarandığı dövrdən indiyə kimi təşkilata artıq 168 ölkə və Avropa İttifaqı (Aİ) üzv olub. Azərbaycan 2009-cu ildən IRENA-nın üzvlüyünə qəbul edilib və 2014-cü il mayın 2-də Milli Məclisin qərarı ilə IRENA-nın nizamnaməsinin ratifikasiyası ilə onun tamhüquqlu üzvü olub. Ötən il yanvarın 14-15-də keçirilən IRENA Assambleyasının 13-cü Sessiyasında qəbul edilmiş qərara əsasən, Azərbaycan 2023-2024-cü illər üzrə IRENA Şurasına üzv seçilib.

XI Qlobal Bakı Forumu çərçivəsində ölkəmizə rəsmi səfər edən IRENA-nın baş direktoru Françesko La Kamera AZƏRTAC-a müsahibə verib. Müsahibədə baş direktor Azərbaycanla IRENA arasında əməkdaşlığın genişləndirilməsi, enerji keçidinin sürətləndirilməsi, eyni zamanda "yaşıl enerji" texnologiyalarına qlobal investisiyalar və Bakının evsahibliyi edəcəyi COP29 barədə fikirlərini bölüşüb. Müsahibəni təqdim edirik:

*- Gündəmdə Azərbaycanla IRENA arasında əməkdaşlığın genişləndirilməsi var. Bu əməkdaşlıq çərçivəsində IRENA Azərbaycana nə kimi dəstək göstərir və göstərəcək?*

- Bizim fəaliyyətimiz çox genişdir. İntellektual potensialımız 2025-ci ildə ölkələrə öz milli səviyyələrində verdikləri töhfələri (NDİC) nəzərdən keçirməyə xidmət edə bilər. Biz həmçinin Azərbaycanda bərpaolunan enerjiyə sərmayə qoyuluşunu təşviq edə bilərik. Beləliklə, Azərbaycanla birgə əməkdaşlığımız intellektual potensialdan və yerində icra olunan işlərdən ibarətdir. Biz Azərbaycanla əməkdaşlıq edirik, əməkdaşlığımız çox yaxşıdır. Azərbaycan həmçinin İRENA Şurasının üzvüdür.

*- Azərbaycanla əlaqələrin genişləndirilməsi IRENA və Azərbaycan üçün hansı perspektivləri vəd edir?*

- Biz region üzrə investisiya forumunu keçirməyi planlaşdırırıq və Azərbaycanı bu foruma evsahibliyi etməyə dəvət edirik. Gördüyünüz kimi, əməkdaşlığımız bu istiqamətdə inkişaf edir.

*- Az karbonlu enerji keçidini sürətləndirmək və davamlı inkişafa nail olmaq üçün hansı tədbirlər görülməlidir?*

- Bu sualı hamıya, o cümlədən Azərbaycana da aid etmək olar. Biz bərpaolunan enerji mənbələrindən daha sürətli şəkildə istifadə etmək üçün struktur maneənin üç əsas sahəsini müəyyən etdik. Birincisi, infrastrukturdur. Yəni bizim balanslaşdırılmış, bir-birinə sıx bağlı olan enerji sisteminə ehtiyacımız var. İkincisi, biz hələ də lazımi strategiyaları müəyyən etməmişik. Bundan əlavə, lazımi bacarıqlara və qurumların potensiallarına hələ də malik deyilik. Üçüncüsü, universitetlərimizin tədris planı köhnə enerji sisteminə bağlıdır. Həmin istiqamətlər üzrə inkişaf etməliyik.

*- Enerji səmərəliliyi də daxil olmaqla "yaşıl enerji" texnologiyalarına qlobal investisiyalar 1,3 trilyon dollara çatıb. Bu, yeni rekorddur. Bununla belə, qlobal temperatur artımını 1,5 dərəcə ilə məhdudlaşdırmaq üçün investisiyalar neçə dəfə artmalıdır?*

- Biz bütöv sistemdən danışarkən sərmayələri dörd dəfə artıraraq 5,2 trilyon dollara çatdırmalıyıq. Ötən il bərpaolunan enerjinin tutumu əvvəlki ilə nisbətən 60 faizdən çox təşkil edərək rekord il oldu ki, bu, çox böyük irəliləyişdir. Biz düzgün istiqamətdə irəliləyirik. Əsas problem vaxtdır. Hansı istiqamətdə gedəcəyimiz barədə şübhə yoxdur. Məsələ ondan ibarətdir ki, bizim iqlim dəyişikliyi ilə bağlı problemimiz var ki, bu da bizi CO2 emissiyasını çox sürətlə azaltmağa məcbur edir. Yəni istiqamət düzgündür, lakin sürəti və miqyası istədiyimiz kimi deyil. Beləliklə, biz enerji keçidini sürətləndirməli və genişləndirməliyik.

*- Enerji keçidini uğurla həyata keçirmək, qlobal temperatur artımını 1,5 dərəcəyə qədər məhdudlaşdırmaq və Paris Sazişinin həyata keçirilməsi üçün yeni hansı tədbirlərin görülməsi mütləqdir? IRENA-nın enerji keçidi üçün əsas prioritetləri haqqında ətraflı məlumat verə bilərsiniz?*

- Bizim prioritetimiz müəyyən etdiyimiz üç struktur maneənin aradan qaldırılmasıdır: infrastruktur, siyasət və bacarıqlar. Həmçinin müzakirə etdiyimiz xətt üzrə infrastrukturun yenilənməsi və gücləndirilməsinə dəstək verə biləcək çoxtərəfli maliyyə qurumları haqqında düşünməliyik.

*- Təmiz hidrogen, davamlı biokütlə tətbiqləri və bərpaolunan enerji qurğularının sürətləndirilməsi üçün daha hansı addımlar atılmalıdır?*

- Təbii olaraq, hidrogen hələ də tam rəqabətqabiliyyətli deyil. Biz hidrogen istehsalının maya dəyərinin aşağı düşdüyünü müşahidə etdik. Bəzi sahələrdə artıq rəqabətlidir, lakin ümumiyyətlə desək, yaşıl hidrogenə olan tələbatı dəstəkləmək, bazarı istiqamətləndirmək, yaşıl hidrogenə kifayət qədər tələbat təmin etmək üçün strategiyalara ehtiyacımız var.

*- Bildiyiniz kimi, bu il Azərbaycanda BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası, yəni COP29 keçiriləcək. COP29-dan gözləntiləriniz nələrdir?*

- Mən artıq bir neçə dəfə Azərbaycana səfər etmişəm. Mənim ölkənin energetika naziri ilə gözəl şəxsi və işgüzar münasibətlərim var. Azərbaycanın və onun hökumətinin COP29 konfransını uğurla keçirilməsi üçün hər cür imkanları var. Məqsədlər çox aydındır. Yeni maliyyə öhdəliyi barədə qərar verməliyik. Digəri isə harada olduğumuzu və yeni nəzərdə tutulan milli səviyyədə müəyyən edilmiş töhfələrin (NDİC) qarşıdakı mövsümündə daha da irəli getmək barədə düşünməliyik. Əminəm ki, qarşıdan gələn COP tədbiri buna zəmin yaradacaq.

## "Business Sweden" COP29 ilə bağlı Azərbaycanla əməkdaşlığa açıqdır

**Martın 18-də Azərbaycanın İsveç Krallığındakı səfiri Zaur Əhmədovun İsveçin Ticarət və Sərmayə Şurasının (Business Sweden) COP üzrə meneceri Andre Hedberq və departament rəisi Aslı Sunqur ilə görüşü keçirilib.**



AZƏRTAC xəbər verir ki, görüş zamanı həmsöhbətlər "Business Sweden"in COP29 ilə bağlı Azərbaycanla əməkdaşlığa, bu kontekstdə 2 ölkə arasında əlaqələrə təkan verəcək təşəbbüs və təkliflərə açıq olduğunu bildiriblər.

Qarşıdakı dövrdə səfirlik və Azərbaycanın digər müvafiq dövlət qurumları ilə "Business Sweden" arasında COP29 ilə əlaqədar təmasların davam etdirilməsi razılaşdırılıb.

## Norveç Azərbaycanda COP29-un uğurla keçirilməsinə dəstək verməyə hazırdır

**Martın 18-də Azərbaycan Respublikasının İsveç Krallığındakı səfiri Zaur Əhmədovun Yüksək Arktik Rəsmilər Şurasının (SAO) sədri və Norveçin Arktik səfiri Morten Hoqlund ilə onlayn formatda görüşü olub.**



AZƏRTAC xəbər verir ki, görüş zamanı qarşı tərəf Azərbaycanda keçiriləcək BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) hazırlanması və uğurla keçirilməsinə Norveçin dəstək verməyə hazır olduğunu bildirib.

İki ölkə arasında bu mötəbər beynəlxalq tədbirlə bağlı mümkün qarşılıqlı fəaliyyət imkanları barədə fikir mübadiləsi aparılıb.



# Bütöv Azərbaycanın Zəfər tonqalı

## Qalib Lider İlham Əliyev Xankəndidən bir daha dünyaya "Qarabağ Azərbaycandır!" ismarıcını verdi

*Əvvəli 1-ci səh.*

Bir-birinin ardınca faciələrə tuş gəlmişdik. Torpaqlarımız işğala məruz qalmışdı, Xocalı soyqırımı kimi müsibət yaşamışdıq, minlərlə oğul-qızımızı şəhid vermişdik, yüz minlərlə soydaşımız məcburi köçkünə çevrilmişdi...

Ötən müddətdə xalq olaraq düçar olduğumuz ağrı-acılara birtəhər sinə gərməyə çalışdıq, adət-ənənəmizin unudulmasına yol vermədik və el bayramlarımızı, Novruzu adına layiq keçirməyə çalışdıq. Amma ürəyimizdəki o buruqluq, nisgil, Vətən yarası heç zaman keçmədi. Keçmiş məcburi köçkünlərimiz isə bu ağrı-acını ikiqat yaşadılar. Elə hey Şuşada, Laçında, Kəlbəcərdə, Ağdamda, Zəngilanda, Füzulidə, Qubadlıda, Cəbrayılda, Xankəndidə, Xocalıda, işğal altında olan bütün yurdlarımızda vaxtilə keçirdikləri bayramları dərin kədər hissi ilə xatırladılar, o yerlər üçün burunlarının ucu göynədi. Vətəndə qəribə çevrilən yüzminlərlə vətəndaşımız göz yaşları içərisində "Tanrım, gələn il Novruzu öz doğma ocağımızda, yurd-yuvamızda qeyd etməyi nəsib et bizə", - deyə, Allaha yalvardılar...

### Arzular çin oldu

Budur, artıq bütün dualarımızın çin olduğu, Azərbaycanın bütövlüyündən doğan fərəh, qürur, xoşbəxtlik içərisindəyik. Vətənimizin başındakı duman, çən-çiskin dağılıb, elimiz başdan-başa bayram libasına bürünüb.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusu, canlarını bu torpağa qurban verən müqəddəs şəhidlərimiz xalqımıza bayram ərməğan edib, keçmiş məcburi köçkünlərimizin yurda qayıdış ümidləri gerçəyə çevrilib. Minlərlə vətəndaşımız qayıdış köçləri ilə əzəli yurdlarına qovuşub. O torpaqlarda körpələr dünyaya gəlib, toy çalınıb, bir sözlə, həyat axarına düşüb...

Artıq dörd ildir ki, Qarabağ və Şərqi Zəngəzurda da bayram tonqalları çatılır, Novruz bayramı qeyd edilir.

Xalq olaraq bizi bu xoşbəxtliyə qəlbimizdəki Vətən sevgisi, bir də düşmənə sönməyən qəzəb hissimiz qovuşdurdu.

Hələ 2021-ci ildə Qalib Lider İlham Əliyev Novruz bayramında mədəniyyət paytaxtımıza səfər edərək illərdən sonra ilk dəfə Qarabağın mirvarisi Şuşada qələbə tonqalını alovlandıran zaman məhz bu məqama toxunmuşdu: "Bu torpağın sahibləri qayıdıblar, əllərində silah, bayraq, ürəklərində Vətən sevgisi. Vətən sevgisi bizi qələbəyə gətirdi. Vətən sevgisi, vətənpərvərlik qələbəmizin əsas amilinə çevrildi".

### "Novruz tonqalı da son təmizləmə işlərini görür"

2023-cü ilin sentyabrında qazandığımız Xankəndi Zəfəri Azərbaycan tarixinə qızıl hərflərlə həkk edildi. 1988-ci ildə Xankəndidə erməni quldurlarının başlatdığı separatizm xalqımıza çox müsibətlər yaşatdı, amma sındırmadı. Heç zaman ərazilərimizin işğalı ilə barışmadıq, Vətən uğrunda göz qırpmadan ölməyə razı gəldik, bütün dünyaya göstərdik ki, torpaqdan pay ola bilməz. "Dəmir yumruq" cəmi 23 saata xunta rejimini diz çökdürdü və Müzəffər Ali Baş Komandan Azərbaycanın ay-ulduzlu, üçrəngli bayrağını Xankəndidə, Xocalıda, Xocavənddə, Əsgəranda dalğalandırdı.

Beləliklə, 200 il idi ki, xalqımızın qanına susamış erməni faşizminin başı əzildi, Qarabağdakı quldur yuvası dağıdıldı, onların murdar ayağı müqəddəs torpağımızdan qazınaraq atıldı.

Xankəndidən bayram təbriklərini çatdıran Prezident İlham Əliyev də altı ay bundan əvvəl uğurla keçirilmiş antiterror əməliyyatının beynəlxalq hüququn, Azərbaycan xalqının əyilməz ruhunun təntənəsi olduğunu söylədi: "Fevralın 26-da mən Xocalıda xocalılılarla birlikdə Xocalı memorial kompleksinin təməlini qoydum. Burada yerləşmiş, qanunsuz inşa edilmiş şeytan yuvası - dırnaqarası parlament binası və onun yanındakı terror təşkilatının binası fevralın 26-da sökülməyə başladı və yerləyeksan edildi. Separatçıların izi-tozu da qalmadı. Novruz tonqalı da son təmizləmə işlərini görür".

### Böyük xoşbəxtlik

Bəli, artıq hər anımız xoşbəxtliyə, sevincə köklənib, hər günümüz bayram coşqusu ilə keçir. Qədim el bayramımız Novruz da Azərbaycanın hər tərəfində coşqu ilə qeyd edilir. Bütün bölgələrimizdə olduğu kimi, Qarabağ və Şərqi Zəngəzurda da tonqallar çatılır, bayram süfrələri açılır, şadlıq edilir.

Bu əziz bayramda xalqımız Şəhidlər xiyabanlarına yollanır, torpaqlarımız uğrunda canlarından keçən övladlarına əbədi minnətdarlığını bildirir, onların ruhlarına dualar edirlər...

Şükürlər olsun Tanrıya, düz bir qərinəlik ağrı-acıdan sonra Şuşa, Xankəndi zəfərləri sayəsində arzularımızın şah zirvəsi olan Vətənin bütövlüyünün fərəhi ilə Novruzu yurdumuzun hər yerində böyük coşqu, təmtəraqla keçiririk...

Ümumilikdə xalq olaraq yaşadığımız bütün bu hisslərin adı isə xoşbəxtlikdir. Necə ki, bunu Xankəndidə Zəfər meydanından Novruz tonqalı qalayan zaman Qalib Lider İlham Əliyev də dilə gətirib: "Əziz həmvətənlər, buradan xalqa təbriklərimizi çatdırmaq böyük xoşbəxtlikdir. Biz hamımız İkinci Qarabağ müharibəsindən sonra qürurla yaşayırıq. Biz hamımız fəxr edirik ki, biz özümüz ədaləti bərpa etdik, torpaqlarımızı işğalçılardan azad etdik, öz gücümüzü göstərdik və bundan sonra hər kəs bizimlə hesablaşmalıdır, əks təqdirdə, özü peşman olacaq".

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

# Allahşükür Paşazadə Novruz bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib

**Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə Novruz bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib.**



QMİ-nin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, təbrikdə Şeyxülislam qədim və gözəl bahar bayramı, yeni günün və yenidən dirçəlişin timsalı olan Novruz münasibətilə xalqımızı ürəkdən təbrik edib, Allah-Taaladan səadət və rifah, xeyirli və bərəkətli ömür diləyib.

Qeyd edib ki, Novruz Azərbaycan xalqının çoxəsrlik tarixində özəl yeri və milli önəmi olan bayramlardandır. Min illərboyu qeyd edilən mübarək Novruz torpağın oyanışını, təbiətin yenilənməsini və bəşərin intibahını təcəssüm etdirmişdir. "Qurani-Kərim"də bu dirçəlişin ilahi mənası: "Allah göydən rəhmət yağışı göndərir, Yer üzünü yenidən diriltdir" - şəklində açıqlanır. Novruzda savaşlar dayanmış, küsülülər barışmış, insanlar sevinclərini və sabaha ümidlərini bir-biri ilə bölüşmüşlər.

A.Paşazadə təbrikində həmçinin bildirib: "Builki Novruz həm də İslam dünyası üçün əziz olan on bir ayın sultanı Ramazanın gəlişi ilə üst-üstə düşdüyündən bizim üçün daha da dəyərli və əlamətdardır. Azərbaycan xalqı bu mübarək ayı Vətən müharibəsində əldə etdiyimiz şanlı Zəfər sevinci ilə yanaşı, separatçı rejimin süqutu - müqəddəs bayrağımızın Xankəndidə dalğalanması qüruru ilə qarşılayır. Müstəqillik tariximizdə ilk dəfə ərazi bütövlüyünü və suverenliyini tam təmin etmiş ölkəmizdə keçirilən növbədənkənar prezident seçkilərində qalib Xalq - qalib Lider seçiminin qələbə sevinci bu Ramazanda xeyir-dualarla yad edilir. Azərbaycan tarixində Qarabağ Fatehi və Böyük Qayıdışın Müəllifi adı qazanan, ölkəmizin bütün ərazisində suverenliyimizin tam bərpası kimi tarixi vəzifəni yerinə yetirən və prezidentliyinin yeni mərhələsinə qədəm qoyan dövlət başçımız cənab İlham Əliyevə, eləcə də bu çətin yolda yaxın sirdaşı və yoldaşı olan Birinci vitse-prezident Mehriban xanım Əliyevaya dindarlarımız adından dərin minnətdarlığımızı bildirir, bu mübarək günlərdə onlara ən böyük İlahi nemət olan cansağlığı, fədakar zəhmətlərinə uğurlar diləyirik".

Şeyxülislam eyni zamanda qeyd edib ki, hər yeni Novruz bayramı dövlətimiz və millətimizin uğurlu inkişafına, Zəfər yolumuzun davamına, azad Qarabağa Böyük qayıdışımıza rəvac verir. Xalqımız bu tərəqqinin təminatını möhtərəm dövlət başçımız Prezident İlham Əliyev cənablarının qətiyyət və möhkəm iradə ilə yeritdiyi müzəffər dövlət siyasətində, müdrik islahatlarda, Qarabağda abad həyat quruculuğunda görür və bu uğurlu inkişaf yolunu təqdir edir. Dövlət rəhbərimizin milli-mənəvi dəyərlərimizə, İslami irsimizə, ümumbəşəri mədəniyyətə ehtiramlı münasibəti bu gün Qarabağda əsarətdən azad olunmuş dini-mədəni abidələrimizin bərpası sahəsində möhtəşəm quruculuq işlərində öz yüksək təzahürünü tapır. Mədəniyyət paytaxtımız Şuşadan və azad Qarabağ məscidlərinin minarələrindən azan səslərinin ucalması tarixi və ilahi ədalətin bərpasını tərənnüm edir. Bu gün Qarabağın işğaldan azad olmuş bütün məkanlarında, keçmiş separatçılıq yuvası Xankəndinin mərkəzində alovlanan Novruz tonqallarında bizə, bütün xalqımıza bayram sevincini yaşatdığına görə Uca Yaradana sonsuz həmd-sənalar edir, xalqımızın və qəhrəman ordumuzun qalib sərkərdəsinə dərin minnətdarlığımızı bildiririk!

"Qələbə - daim dindarlarımızın, hər bir azərbaycanlının dualarında olmuşdur. Fəqət həsrətində olduğumuz Qələbə naminə övladlarımız Allah yolunda, Vətən və millətin azadlığı uğrunda canlarını fəda etdilər, qanları ilə qazandıqları azadlığı gələcək nəsillərə əmanət etdilər. Onların hər birinin boynumuzda haqları vardır, bu əziz Novruz və Ramazan günlərində Vətən uğrunda şəhid olan qəhrəman övladlarımızı rəhmət duaları ilə yad etmək, ailələrinə, yaxınlarına başsağlığı vermək, qazilərimizə, yaralılarımıza Allah-Taaladan şəfaət və səadət diləmək bizim vəfa borcumuzdur. Biz Qarabağda dalğalanan Azərbaycan bayrağı naminə canından keçən hər bir şəhidimizə Allahdan rəhmət diləyir, qazilərimizə şəfalar arzulayırıq", - deyə QMİ sədri vurğulayıb.

Şeyxülislam bildirib ki, bu il yaz fəslinin Azərbaycana gəlişi martın 20-si Bakı vaxtı ilə saat 07:06:21-ə təsadüf edəcək, il Əjdaha bürcü üstündə təhvil olacaq, bayram axşamı martın 19-da, mübarək Novruz bayramı isə martın 20-də qeyd ediləcək. "Uca Yaradana həmd-səna, süfrələrə xeyir-bərəkət, nemətlərə şükür duaları ilə Novruza qədəm qoyan xalqımızı bir daha təbrik edir, hər ailəyə xoşbəxtlik, hər evə rifah və əmin-amanlıq arzulayıram. Allahdan diləyim budur ki, öz böyük mərhəmət və kəramətini xalqımızın üzərində bərqərar etsin, dövlət rəhbərimizi böyük zəfərlərlə mükafatlandırsın, bayrağımızı hər zaman uca məqamlara qaldırsın, ordumuzu daima güclü və müzəffər etsin! Novruzun qədəmləri mübarək, xalqımız üçün xeyirlərə vəsilə olsun! Amin!", - deyə o diqqətə çatdırıb.

# Azərbaycan-NATO əməkdaşlığı qarşılıqlı maraqlara xidmət edir

**Keçmiş SSRİ süquta uğradıqdan, respublikamız müstəqillik əldə etdikdən sonra Azərbaycan dünyada mövcud olan müxtəlif inkişaf modelləri sırasında Qərb dəyərlərini seçərək siyasi-hərbi təhlükəsizliyinə təminatı gücləndirmək, beynəlxalq birliyin tamhüquqlu üzvünə çevrilmək üçün aparıcı beynəlxalq təşkilatlar, o cümlədən NATO ilə əməkdaşlığa üstünlük verdi. Azərbaycanla NATO arasındakı əlaqələr 1992-1993-cü illərdə başlasa da, əməkdaşlığın beynəlxalq hüquq normaları çərçivəsində rəsmi nizama salınmasının bünövrəsi 4 may 1994-cü ildə qoyulmuşdur.**

Xalqın təkidli tələbi ilə ölkə rəhbərliyinə qayıdan Ulu Öndər Heydər Əliyev Şimali Atlantika Alyansı ilə əlaqələrin dərinləşdirilməsini özünün xarici siyasət kursunun mühüm istiqamətlərindən biri kimi müəyyənləşdirdi. Alyansın beynəlxalq təhlükəsizliyini nizama salan münasibətlər sistemindəki yerini və nüfuzunu nəzərə alan Heydər Əliyev Azərbaycanın NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" Proqramına qoşulması üçün 1994-cü il mayın 4-də Brüsseldə NATO-nun Çərçivə Sazişini imzalamaqla müasir beynəlxalq hüquqi müstəvidə Azərbaycan-NATO münasibətlərinin əsasını qoydu.

Həmin Çərçivə Sazişinin 1-ci bəndində qeyd olunur: "NATO-nun üzvü olan ölkələrin dövlət və hökumət başçılarının 1994-cü il yanvarın 10-11-də öz görüşlərində etdikləri dəvətə əlavə olaraq, bu sənədi imzalamış və Avratlantika regionunda siyasi-hərbi əlaqələri dərinləşdirmək və təhlükəsizliyin daha da möhkəmləndirilməsinə kömək etmək əzmində olduğunu bildirmiş Şimali Atlantika İttifaqının üzvü olan dövlətlər və digər dövlətlər bununla Şimali Atlantika Əməkdaşlığı Şurası əsasında bu "Sülh Naminə Tərəfdaşlığ"ı təsis edirlər".

Azərbaycan dünyanın yüksək nüfuzlu siyasi-hərbi təşkilatı olan NATO ilə əməkdaşlığı bu gün də uğurla davam etdirir. Bu əməkdaşlıq qarşılıqlı etimad üzərində qurulub.

Ötən illər ərzində Azərbaycan Ordusu NATO-nun müvafiq proqramlarına əsasən təhlil, təhsil, təlim, sülhyaratma missiyalarında uğurla iştirak etmişdir. Ölkəmiz NATO-nun müvafiq tərəfdaşlıq mexanizmlərindən fəal şəkildə istifadə edir və mühüm sənədlərdə öz əksini tapmış məqsəd və prinsiplərin yerinə yetirilməsində ön sıralarda gedir. Azərbaycan hərbçilərinin NATO qüvvələrinin tərkibində Kosovoda, Əfqanıstanda sülhyaratma əməliyyatlarında yaxından iştirak etmişdir. Bu cür qarşılıqlı əməkdaşlıq hər iki tərəfə uğur gətirir.



May ayında Azərbaycan-NATO əlaqələrinin 30 ili tamam olur. Ötən müddət ərzində bu əlaqələr inkişaf edərək genişlənib. Azərbaycan-NATO tərəfdaşlığının ölkəmiz üçün faydalı olduğunu İkinci Qarabağ müharibəsində gördük. Belə ki, ötən illər ərzində hərbi alyansın SNT layihəsi çərçivəsində Azərbaycan Ordusunda aparılan islahatlar müdafiə imkanlarımızı xeyli genişləndirmiş, silahlı qüvvələrimizi müasirləşdirmiş, peşəkarlıq səviyyəsini daha da artırmışdır. Azərbaycan Şimali Atlantika Müqaviləsi Təşkilatının fəal tərəfdaşı kimi qurumun strateji layihələrində bu gün də yaxından iştirak edir.

Xəbər verildiyi kimi, bu günlər NATO-nun Baş katibi Yens Stoltenberq ölkəmizə səfər etmişdir. Səfər çərçivəsində Baş katib Azərbaycan Prezidenti İlham Əliyevlə görüşmüşdür. Dostluq və qarşılıqlı əməkdaşlıq şəraitində keçən təkbətək görüşdən sonra mətbuata bəyanatında Azərbaycan Prezidenti İlham Əliyev hərbçilərimizin Kosovoda və Əfqanıstanda sülhməramlı əməliyyatlarda yaxından iştirak etdiyini xüsusi vurğulamışdır: "Bu, bizim üçün böyük təcrübə olub. 2021-ci ilin sonlarında Əfqanıstanı tərk edən sonuncu müttəfiq qüvvələr bizim hərbi qulluqçularımız olublar. Bu isə bir daha əməkdaşlığımıza güclü sadiqliyimizi nümayiş etdirir".

NATO-nun Baş katibi Yens Stoltenberqin Qafqaz turnesinə məhz Bakıdan başlaması siyasətçilərin diqqətini cəlb edib. Bu, bir daha sübut edir ki, Azərbaycan bölgədə əsas söz sahibidir. Y.Stoltenberq Bakıda mətbuata verdiyi bəyanatında Azərbaycanın NATO müttəfiqləri ilə əlaqələrinin inkişaf etdirdiyini alqışlamış, ölkəmizin NATO-nun əsas müttəfiqlərinin enerji təhlükəsizliyində mühüm rol oynadığını bildirmişdir.

Azərbaycan-Ermənistan arasında aparılan sülh danışıqlarına da toxunan NATO-nun Baş katibi uzun illər çəkən münaqişədən sonra Azərbaycanın hazırda davamlı sülhə nail olmaq imkanı qazandığını demişdir: "Sizin Ermənistanla sülh sazişinə heç vaxt olmadığı qədər yaxın olmağınızla bağlı sözlərinizi yüksək qiymətləndirirəm. Mən Ermənistanla dayanıqlı sülh sazişinə nail olmaq üçün həmin fürsətdən istifadə etməyinizdə Sizi dəstəkləyirəm".

Yens Stoltenberq Bakıda verdiyi açıqlamasında Azərbaycan sülhməramlılarının Kosovoda, xüsusən Əfqanıstandakı fəaliyyətini xüsusi olaraq vurğulaması təsadüfi deyil. Çünki Türkiyə və Azərbaycan hərbçiləri Əfqanıstan hərbi aeroportunda NATO kontingentinin təhlükəsizliyinin təmin olunmasında böyük rol oynayıb, üzərlərinə düşən tapşırığı bacarıqla yerinə yetiriblər, ölkəmizi sülhyaratma əməliyyatlarında layiqincə təmsil ediblər. 30 il əvvəl başlayan NATO-Azərbaycan əməkdaşlığı bu gün də uğurla davam edir.

***Vahid MƏHƏRRƏMOV, "Azərbaycan"***

## *Levan MAMALADZE:*

# "Regionun inkişafı Azərbaycan ilə Gürcüstan tandemi üzərində qurulub"



**Gürcüstanın Baş naziri İrakli Kobaxidzedən sonra NATO-nun Baş katibi Yens Stoltenberqin də Bakıya səfəri dünyada cərəyan edən proseslər fonunda Azərbaycanın regionda yeni reallıqların yaranmasındakı rolundan xəbər verir.**

Bu sözləri AZƏRTAC-a açıqlamasında Gürcüstan Strateji Planlaşdırma Mərkəzinin rəhbəri, politoloq Levan Mamaladze söyləyib.

Politoloq qeyd edib: "Yens Stoltenberqin Azərbaycana səfərindən əvvəl Gürcüstanın Baş naziri İrakli Kobaxidze Bakıda Prezident İlham Əliyevlə həlli vacib bir sıra məsələləri müzakirə etdi. Düşünürəm ki, Gürcüstan olaraq maraqlarımız Azərbaycanın maraqları ilə üst-üstə düşür. Azərbaycan dostluq nümunəsi göstərdi və bizə dostluğunu nümayiş etdirdi. Düşünürəm ki, bundan sonra da ölkələrimiz qlobal məsələləri birlikdə müzakirə edəcəklər".

Onun sözlərinə görə, indiki zamanda Azərbaycan və Gürcüstan NATO-dan, Qərbdən və ABŞ-dən istədiyini daha rahat əldə edə bilər, nəinki onlar bizdən. Amma bunu da xüsusi qeyd etmək lazımdır ki, Qərbin regiona yetərincə təsir mexanizmləri var. Bu vaxtadək Qarabağ məsələsi onlar üçün regiona təsir mexanizmi idi, amma Azərbaycan bu məsələni birdəfəlik həll etdi. Hazırda Fransa hansısa formada nəsə etməyə çalışır, amma bütün arzuları ürəyində qalacaq.

Politoloq vurğulayıb ki, Baş katibin ilk olaraq Bakıya, sonra isə Tbilisi və İrəvana səfərlər etməsi NATO-nun regiona marağının artdığını göstərir. "Bilirsiniz, dünyada çox şey dəyişib və Ukraynada hazırda NATO ilə Rusiya müharibəsi gedir. Belə olan halda, bizim region çox böyük önəm daşıyır. Stoltenberq özü də qeyd etdi ki, NATO-nun regionda xüsusi marağı var və o, həmin maraqların reallaşdırılması üçün regiona səfər edib. Burada sual yaranır ki, Azərbaycan, Gürcüstan və Ermənistan hansı şərtlərlə və nə dərəcədə NATO-nun maraqlarına daxildir. Çünki dünyada hadisələr sürətlə cərəyan edir, yeni oyunçular yaranır. Buna baxmayaraq, regionun inkişafı Azərbaycan-Gürcüstan tandemi üzərində qurulub. Çünki Qara dəniz üzərindən keçən nəqliyyat yollarının alternativi olmayacaq. Bu yolla qısa zamanda Şərqlə Qərbi birləşdirən layihələr icra ediləcək. Buna görə də biz, iki ölkə olaraq öz maraqlarımıza xidmət edən qərarlar verməliyik. Burada yeganə çıxış yolu sülh müqaviləsinin imzalanmasıdır. Belə olan halda hər üç ölkə regionun inkişafı üçün çalışacaq. Düşünürəm ki, bu səfərlər öz töhfəsini verəcək və liderlər də doğru qərarlar qəbul etməklə xalqların rifahı üçün addımlar atacaqlar", - deyə L.Mamaladze diqqətə çatdırıb.

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Fransa vəhşi təfəkkürə görə Ermənistandan geri qalmır

**"Fransada Azərbaycanofob və islamofob meyillər gündən-günə dərinləşir. Ölkəmizə qarşı davam etdirilən qərəzli münasibət Azərbaycan-Fransa münasibətlərinə də mənfi təsir göstərir. Ermənistana hərbi dəstək göstərməklə regiona sülhün gəlməsini əngəlləyən Makron hökuməti İrəvanın beynəlxalq güclərin hərbi poliqonuna çevrilərək məhv olmasına real zəmin yaradır".**



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Azər Badamov deyib. Deputat bildirib ki, iki ölkə arasında vəziyyət o səviyyəyə çatıb ki, Azərbaycan-Fransa parlamentlərarası işçi qrupları da fəaliyyətlərini dayandırıblar.

"Torpaqlarımızın 20 faizinin Ermənistan tərəfindən işğal olunduğu dövrdə beynəlxalq hüququn gücünə inanan Azərbaycan Fransanın da təmsil olunduğu ATƏT-in Minsk qrupuna ümid bəsləyirdi. BMT TŞ-nin 4 qətnaməsinin icra ediləcəyinə və ədalətin bərpa olunacağına inanaraq Parisin İrəvana təzyiq göstərəcəyini gözləyirdi. Lakin Minsk qrupu Azərbaycanı işğalla barışdırmağa və torpaqlarımızda erməni işğalını əbədiləşdirməyə çalışdı. Elə ovaxtı başa düşdük ki, Fransa özünü ermənilərin havadarı kimi aparır", - deyə müsahibimiz söyləyib.

Deputat vurğulayıb ki, Vətən müharibəsində əzəli və əbədi torpaqlarımızı işğaldan azad etdikdən sonra Fransanın iç üzü daha çox ortaya çıxdı: "Əvvəlcə ölkəmizə Paris tərəfindən ultimatumlar göndərildi. Bunların heç birinin nəticə vermədiyini görən Fransa məsələni dəfələrlə BMT TŞ-na çıxardı, lakin orada Makronun Azərbaycan əleyhinə təklifləri gündəliyə qəbul edilmədi. Çünki Azərbaycan beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində hərəkət edirdi. BMT TŞ-dən əliboş qayıdan Paris Avropa İttifaqında Azərbaycana qarşı sanksiyalar tətbiq etmək üçün qətnamə qəbul olunmasına çalışsa da, yenə fiaskoya uğradı. Digər bütün cəhdləri nəticəsiz qalan Makron əvvəlcə Fransa parlamentində, daha sonra isə AŞPA və Avropa Parlamentində ölkəmiz əleyhinə, əslində, kağız parçasından başqa bir dəyəri olmayan sənədləri qəbul etdirməyə nail oldu. Lakin həmin qətnamələrin Azərbaycan üçün heç bir əhəmiyyət kəsb etmədiyini bildirdik".

Bu gün Fransanın ermənidən çox ermənilik etdiyini deyən Azər Badamov bunu Parisin bizim şanlı zəfərlərimizi heç cür həzm edə bilməməsi ilə əlaqələndirib. Müsahibimiz deyib ki, Avropada liderlik etməyə çalışan Makron Ukraynanın ərazi bütövlüyünü müdafiə etmək üçün Qərbi yardımlar göndərməyə çağırdığı halda, Azərbaycanı öz ərazilərində suverenliyi bərpa etdiyinə görə ittiham edir. Bu, Makron hakimiyyətinin neokolonist və işğalçılıq siyasətinə davam etdiyini bir daha sübuta yetirir.

Deputat onu da bildirib ki, Azərbaycana təzyiq göstərməyə gücü yetmədiyini anlayan Fransa son çıxış yolu kimi Natəvanın Evian şəhərində yerləşən heykəlinə qarşı vandalizm aktı həyata keçirib: "Heykəl rənglərə bulaşdırılmış halda parçaya bükülərək uzun müddət saxlanılıb. Bu, Fransanın vəhşi təfəkkürə görə Ermənistandan heç də geri qalmadığını göstərir. Xatırladaq ki, Ermənistan Şuşanı işğal edəndə orada mədəniyyət klassiklərimizin güllələbaran edilmiş büstlərini İrəvana aparıb əritmək istəyirdi. Eyni vandallığın Fransada Natəvanın heykəlinə qarşı təkrarlanması bu ölkələrin hər ikisinin mahiyyətinin bir-birindən fərqlənmədiyini təsdiq edir".

Azər Badamov yekunda vurğulayıb: "Cəmi 44 gün ərzində Ermənistanın 30 ildə qurduğu istehkamları darmadağın edərək torpaqlarını işğaldan azad edən və 23 saatda 15 min erməni separatçısını ərazilərimizdən qovaraq suverenliyimizi tam təmin edən Azərbaycan hər zaman öz ərazilərinin bütövlüyünü düşmənlərdən qorumaq iqtidarındadır. Heç vaxt özünü müdafiə edə bilməyən Ermənistan isə beynəlxalq güclərin ayaqları altında qalaraq əzilməyə məhkumdur".

*N.QAFARZADƏ,*
*"Azərbaycan"*

## Ermənistan sülh üçün yaranmış tarixi şansı dəyərləndirməlidir

**"Ermənistanla Azərbaycan arasında sülh sazişi bağlamaq üçün regionda əlverişli zəmin formalaşıb. Cənubi Qafqazda əmin-amanlığın və təhlükəsizliyin bərpası üçün Ermənistan ona saxta vədlər verən havadarlarından yaxasını qurtarmalı və bu tarixi şansı dəyərləndirməlidir. NATO-nun Baş katibi ilə görüşü zamanı Prezident İlham Əliyev də vurğulayıb ki, hazırda biz Ermənistanla sülh danışıqlarının fəal mərhələsindəyik".**



Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Kamilə Əliyeva deyib. Deputat söyləyib ki, Yens Stoltenberqin NATO-nun Baş katibi kimi Azərbaycana rəsmi səfəri baş tutdu: "Prezident İlham Əliyev və NATO-nun Baş katibi bu görüşlə bağlı mətbuata bəyanatla çıxış etdilər. Dövlət başçımız çıxışında NATO ilə tərəfdaşlığımız haqqında, Azərbaycanla Ermənistan arasında mövcud vəziyyət, eləcə də iki ölkə arasında sülh sazişinin bağlanması barədə fikirlərini ifadə etdi. Sülh danışıqlarına başlamağın bizim təşəbbüsümüz olduğunu bir daha bəyan edən ölkə rəhbərimiz bu günədək sülh sazişi layihəsinə dair ermənistanlı həmkarlarla 7 dəfə şərhlərin mübadiləsinin baş tutduğunu da bildirdi".

Deputat vurğulayıb ki, Azərbaycanla Ermənistan arasında sülh sazişinin bağlanması istiqamətində ikitərəfli görüşlərin keçirilməsi sülhün yaranmasına müsbət təsir göstərir: "Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması və sülh müqaviləsinin imzalanması ilə Cənubi Qafqazın sülh və əməkdaşlıq məkanına çevrilməsi üçün yaranmış bu tarixi şəraitdə danışıqlar davam edir. Hər iki dövlətin xarici işlər nazirlərinin sülh müqaviləsinin mətninin hazırlanması, baş nazirlərin müavinlərinin sərhədlərin delimitasiyası üzərində apardıqları danışıqlar etimad mühitinin formalaşmasına töhfə verir".

Müsahibimiz əlavə edib ki, Prezident İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan hər iki dövlətin bir-birinin ərazi bütövlüyü və suverenliyini tanıdıqlarını bildiriblər: "Lakin hazırda Azərbaycanın bir neçə kəndi Ermənistanın nəzarəti altındadır. Ona görə bu kəndlərin də Azərbaycana qaytarılması danışıqların əsas mövzusudur. Hesab edirəm ki, Ermənistan rəhbərliyi bu məsələlərdə konstruktiv mövqe nümayiş etdirməli və sülh sazişini imzalamaqla uzun illərdən sonra regionda əmin-amanlığın yaranmasına töhfə verməlidir".

Kamilə Əliyeva NATO-nun Baş katibinin çıxışı zamanı toxunduğu bir sıra vacib məsələlərə də diqqət çəkib. Deputat Baş katibin ilk növbədə Azərbaycan - NATO tərəfdaşlığını, xüsusilə də ölkəmizin Kosovodakı və Əfqanıstandakı fəaliyyətini yüksək qiymətləndirdiyini xatırladıb. Müsahibimiz bildirib ki, Yens Stoltenberq Azərbaycanın NATO-ya üzv dövlətlərin enerji təhlükəsizliyində əhəmiyyətli roluna görə Prezident İlham Əliyevə təşəkkürünü ifadə edib.

Deputat yekunda vurğulayıb ki, NATO da daxil olmaqla bir sıra beynəlxalq təşkilatlar və güclər Azərbaycan dövlətinin iki ölkə arasında sülh sazişinin bağlanması istiqamətində təşəbbüslərini yüksək qiymətləndirirlər. Danışıqlar prosesində ölkəmizin nümayiş etdirdiyi mövqe dəstəklənir. Baş katibin Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanıdıqlarını ifadə etməsi ölkəmizin sülh müqaviləsi üçün irəli sürdüyü təkliflərin NATO tərəfindən də dəstəkləndiyini təsdiqləyir.

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

## Azərbaycan UNESCO İcraiyyə Şurasının 219-cu sessiyası çərçivəsində keçirilən milli komissiyaların iclasında təmsil olunub




**UNESCO-nun Parisdəki mənzil-qərargahında qurumun İcraiyyə Şurasının 219-cu sessiyası davam edir. AZƏRTAC xəbər verir ki, UNESCO-nun 219-cu sessiyası çərçivəsində bu təşkilata üzv ölkələrin milli komissiyalarının iclası keçirilib. İclasda ölkəmizi UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının baş katibi Seymur Fətəliyev təmsil edib.**

İclasda üzv ölkələrin milli komissiyalarının həyata keçirdiyi layihələr haqqında məlumat verilib. UNESCO üzrə Azərbaycan Milli Komissiyası bu təşkilatın bütün prioritet istiqamətləri üzrə fəaliyyətini uğurla davam etdirir. Həmçinin Azərbaycan Milli Komissiyası bu təşkilata üzv ölkələrin milli komissiyaları ilə əlaqələrinin inkişafında, müştərək proqram və tədqiqat işlərində fəal iştirak edir.

2025-ci ilədək İcraiyyə Şurasının üzvü olacaq Azərbaycan təşkilatla mədəniyyət, təhsil, elm, informasiya və kommunikasiya sahələrində geniş əlaqələr qurub, UNESCO ailəsinin nüfuzlu üzvünə və donor dövlətinə çevrilib.

Xatırladaq ki, UNESCO İcraiyyə Şurasının 219-cu sessiyası martın 27-dək davam edəcək.

## UNESCO İcraiyyə Şurasının sessiyasında Azərbaycanın bəyanatı səsləndirilib




**UNESCO İcraiyyə Şurasının 219-cu sessiyası çərçivəsində üzv ölkələrin bəyanatları səsləndirilib. AZƏRTAC xəbər verir ki, İcraiyyə Şurasının 219-cu sessiyasının bugünkü plenar iclasında ölkəmizin UNESCO yanında daimi nümayəndəsi Elman Abdullayev Azərbaycanın milli bəyanatını təqdim edib.**

Bəyanatda Azərbaycan tərəfindən təşkilatın gender bərabərliyi, Prioritet Afrika və İnkişaf etməkdə olan Kiçik Ada Dövlətləri (SIDS) istiqamətlərinə böyük əhəmiyyət verdiyi bildirilib. Ölkəmizin Afrikanın mədəni irsinin qorunmasına verdiyi töhfələr, eləcə də bu qitədə həyata keçirilən uğurlu layihələrdən söz açılıb. Ölkəmizin UNESCO-nun mədəniyyətlərarası dialoq və İpək yolları proqramını, eləcə də irqi ayrı-seçkiliyə qarşı mübarizədə həyata keçirdiyi layihələri dəstəklədiyi diqqətə çatdırılıb.

Daimi nümayəndə Azərbaycanın Ümumdünya İrs Komitəsinin 2025-2029-cu illər üzrə üzvlüyünə namizədliyi haqda da məlumat verib. "Mədəni irs bəşər tarixinin ayrılmaz hissəsidir və gələcək nəsillər üçün qorunmalıdır", - deyən E.Abdullayev mədəni irs abidələri ətrafında minaların yerləşdirilməsinin milyonlarla insanın həyatı üçün böyük təhlükə yaratdığını vurğulayıb.

İqlim dəyişikliyinin mədəni irsə təsiri mövzusuna toxunan E.Abdullayev ölkəmizin beynəlxalq birliyin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişikliyinə qarşı mübarizəyə fəal töhfə verdiyini qeyd edib, Prezident İlham Əliyev tərəfindən 2024-cü ilin ölkədə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında sərəncam imzalandığını bildirib. O, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının (COP29) Tərəflər Konfransının 29-cu sessiyasına evsahibliyi etmək üçün Azərbaycanın namizədliyinin yekdilliklə dəstəklənməsinin beynəlxalq ictimaiyyətin ölkəmizə dərin hörmət və etimadının bariz nümunəsi olduğunu diqqətə çatdırıb.

Ermənistan tərəfindən ölkəmizə qarşı 30 ildən artıq davam edən təcavüz və işğal müddətində Azərbaycanın mədəni irsinin tamamilə dağıdıldığı, arxeoloji abidələrin, muzeylərin və kitabxanaların talanaraq tamamilə dağıdıldığı, bu vandallıq aktlarının 1954-cü il Haaqa Konvensiyası və onun İki Protokoluna, eləcə də 1970-ci il Konvensiyası da daxil olmaqla, beynəlxalq hüququn prinsiplərinə zidd olduğu və onların kobud şəkildə pozulduğu qeyd edilib.

E.Abdullayev Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzü nəticəsində Azərbaycanın təhsil infrastrukturuna vurulmuş ciddi ziyandan söz açıb, 2000-dən artıq təhsil müəssisəsinin dağıdıldığını vurğulayıb.

Torpaqlarımızın işğaldan azad edilməsindən sonra həmin ərazilərdə ölkəmiz tərəfindən genişmiqyaslı yenidənqurma və bərpa işlərinə başlanıldığını deyən daimi nümayəndə Ermənistan tərəfindən bu ölkədə Azərbaycan xalqına məxsus mədəni irs nümunələrinin tamamilə dağıdılması prosesinin davam etdiyini bildirib. Qeyd edilib ki, Ermənistanda bütün Azərbaycan toponimləri dəyişdirilib, ölkəmizin tarixi-mədəni irsi, məscidləri və qəbiristanlıqları qəsdən məhv edilib. Bu vandalizmin əsas məqsədi əsrlərboyu həmin torpaqlarda yaşamış azərbaycanlıların izlərini o ərazilərdən tamamilə silməkdir. İrəvanın Təpəbaşı məhəlləsinin də eyni aqibətlə üzləşdiyi vurğulanıb, Ermənistan hökuməti tərəfindən həmin ərazinin tamamilə məhv edildiyi sessiya iştirakçılarının diqqətinə çatdırılıb.

# Yeni qərəz, köhnə xislət

**Avropa Parlamenti Azərbaycana qarşı qərəzli mövqe tutmaqda davam edir. Bu qurumda qərəzçiliklə bir-birinə bənzəyən yalan və böhtanlarla dolu qətnamə və qərarlar qəbul olunur. 13 mart 2024-cü il tarixdə qəbul etdiyi "Avropa İttifaqı və Ermənistan arasında daha yaxın əlaqələr və Azərbaycanla Ermənistan arasında sülh sazişinə ehtiyac" adlı qətnaməsi də bu sıradandır. Bununla Avropa Parlamenti Azərbaycana qarşı daha bir ədalətsiz addım atdı.**



Heç bir real fakta söykənməyən, həqiqətə əsaslanmayan bu qətnamələr təşkilatın demokratik dəyərlərdən, obyektivlikdən və beynəlxalq hüquqdan tamamilə uzaq olduğunu göstərir. Digər bir tərəfdən isə, Qərbin bölgədə gedən proseslərdə işğalçıya dəstək verilməsinə xidmət edir. Maraqlı olan budur ki, Avropa məkanının bir sıra iqtisadi və təhlükəsizlikyönümlü təşkilat və institutları Azərbaycanla enerji təminatı sahəsində əməkdaşlıq etdiyi halda, Avropa İttifaqı Brüssel sülh gündəliyi çərçivəsində ölkəmizin mövqeyini dəstəklədiyi bir zamanda, bunun əksinə olaraq AP tərəfindən belə qərəzli mövqe nümayiş etdirilir. Əslində, bu mövqeyi ilə Avropa Parlamenti erməni lobbisinin əlində alətə çevrildiyini bir daha dünyaya göstərir.

Hazırda bölgədə Azərbaycan tərəfindən sülh gündəliyi üzrə əməli tədbirlər həyata keçirildiyi bir zamanda qəbul olunan bu qətnamənin ölkəmizə qarşı heç bir siyasi, iqtisadi və digər təsir gücü olmayacaq. Son zamanlar Avropa Parlamentinin rəhbərliyində korrupsiya faktlarının aşkar olunması, bu təşkilatın sifarişlər əsasında qətnamələr hazırlamasının bariz nümunəsi kimi qiymətləndirilməlidir. İkili standartlar, reallıqları gözə almamaq və işğalçıya dəstək artıq çoxdan bu təşkilatın fəaliyyət prinsipinin əsasını təşkil edir.

Avropa Parlamentinin "Avropa İttifaqı və Ermənistan arasında daha yaxın əlaqələr və Azərbaycanla Ermənistan arasında sülh sazişinə ehtiyac" adlı 2024-cü il 13 mart tarixli qətnaməsinə Azərbaycan Respublikası Milli Məclisi münasibət bildirib. Göstərilib ki, Avropa Parlamenti bu qətnaməsi ilə növbəti dəfə Azərbaycana qarşı olan açıq qərəzini nümayiş etdirib. Görünən odur ki, Avropa xalqlarının problemləri, qarşılaşdıqları çağırışlarla məşğul olmaq əvəzinə, Avropa Parlamenti artıq tam şəkildə erməni lobbisinin, Azərbaycanofob, islamofob, şovinist və irqçi qüvvələrin qanuni təmsilçisinə çevrilib. Avropa Parlamentinin ötən illər ərzində Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini sözdə belə olsa tanımaqdan, dəstəkləməkdən inadla imtina etməsinin dəfələrlə şahidi olmuşuq. Lakin ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə qarşı aparılan indiki kampaniya Avropa Parlamentinin artıq riyakarlığı və ikiüzlülüyü də bir kənara qoyaraq, Azərbaycana qarşı birmənalı şəkildə hücuma keçdiyini göstərir. Absurd olan başqa bir məsələ isə bundan ibarətdir ki, Avropa Parlamenti Azərbaycana qarşı bu hücumunu "sülh sazişinə ehtiyac" adı altında pərdələməyə cəhd edir. Azərbaycanla Ermənistan arasında sülh sazişi üzrə danışıqların aparıldığı bir vaxtda tamamilə proseslərin mahiyyətinə zidd olan bu qətnamə, əksinə, "sülh sazişinə zərbə" kimi xarakterizə olunmalıdır.

Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Avropa Parlamentinin 13 mart 2024-cü il tarixli qətnaməsini şərh edərkən bildirib ki, Avropa Parlamentində "Avropa İttifaqı və Ermənistan arasında daha yaxın əlaqələr və Azərbaycanla Ermənistan arasında sülh sazişinə ehtiyac" adlı qətnamə əsassız və qərəzli olmaqla yanaşı, ölkəmizə qarşı növbəti ikili standartların bariz nümunəsidir: "Avropa Parlamentində Ermənistan və erməni lobbisinin təsiri altında olan bir sıra dairələr tərəfindən irəlilədilən bu qətnamə, "sülhün təşviq edilməsi" kimi təqdim olunmasına və guya Avropa İttifaqı-Ermənistan münasibətlərinə həsr olunmasına baxmayaraq, bütün faktların saxtalaşdırıldığı Azərbaycana qarşı qarayaxma kampaniyasının tərkib hissəsidir. Qətnamədə beynəlxalq əlaqələrin mahiyyətinə zidd olaraq siyasi etik normalardan kənara çıxan cəfəng və təhqiramiz ifadələrin, eləcə də Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı açıq pozuntu dolu fikirlərin əks olunması qətnaməni irəli sürmüş Avropa Parlamenti üzvlərinin əsl mahiyyətini izah edir. Avropa Parlamenti Azərbaycanla Ermənistan arasında normallaşma prosesinə müdaxilə əvəzinə, Avropanı bürüyən daha ciddi problemlər, o cümlədən irqi ayrı-seçkilik, islamofobiya, ksenofobiya, ekstremizm və miqrantlara münasibətdə qeyri-insani davranış kimi məsələlərlə məşğul olsa daha faydalı quruma çevrilər. Avropa Parlamenti üzvlərinin diqqətinə bir daha çatdırırıq ki, bəyan etdiyi dəyərlərlə heç bir əlaqəsi olmayan bu kimi qətnamələr Avropa Parlamentinin bir qurum kimi rolunu tamamilə heçə endirir".

Qəbul olunan qərəzli qətnamələrdən açıq-aydın hiss edilir ki, Avropa Parlamentində oturanlar heç bir əsası olmayan iddialarla Azərbaycana böhtan atmağa çalışırlar. Əslində, Avropa Parlamentinin son qətnaməsi Azərbaycanın Ermənistan üzərində qələbə çalmasından, ərazi bütövlüyünü bərpa etməsindən doğan qəzəbin təzahüründən başqa bir şey deyil. Görünür, son zamanlar Ermənistanla Azərbaycan arasında müşahidə edilən nisbi sabitlik, iki ölkə arasında vasitəçilərin iştirakı olmadan keçirilən danışıqlar, yüksəksəviyyəli təmaslar Avropa Parlamentini məyus edir. Onlar hansı yolla olursa olsun, iki ölkə arasında vasitəçi olmağa can atırlar. Hansı ki, heç buna ehtiyac da yoxdu. Amma Azərbaycanın getdikcə dünyada artan gücü, nüfuzu avropalılara mane olur. Məqsədlərinə çatmadıqlarına görə də qəzəblənirlər. Qəzəblərini də heç bir hüquqi əsası olmayan, reallıqdan çox-çox uzaq olan qərəzli qətnamələrlə soyutmaq istəyirlər.

Avropa Parlamentinin qəbul etdiyi bu qətnamə sülhə heç bir töhfə vermir. Əksinə, ona mane olur, münaqişənin uzanmasına şərait yaradır. Avropa Parlamenti ölkəmizə qarşı bu cür qərəzli qətnamələr qəbul etməkdənsə, qoy Ermənistandan 30 il əvvəl işğal etdiyi torpaqlardan bir milyondan artıq azərbaycanlının qovulmasının, həmin ərazilərdəki mədəni irsin məhv edilməsinin, yaşayış məntəqələrinin dağıdılmasının, yüzlərlə, minlərlə mülki əhalinin vəhşicəsinə öldürülməsinin izahatını tələb etsin. Yox əgər bunu bacarmırsa, qərəzli qətnamələri ilə iki ölkə arasında gedən sülh danışıqlarına maneçilik törətməsin.

Qətnamə yeni olsa da, bu, bizə tanış olan köhnə xislətdir. Qətnamələrin adı dəyişilsə də, Avropa Parlamenti öz ampluasında qalmaqdadır. Odur ki, köhnə xislətli Avropa Parlamentindən yaxşı heç nə gözləməyə dəyməz. Necə deyərlər, qozbeli heç qəbir də düzəltməz.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 160 QƏRAR Bakı şəhəri, 16 mart 2024-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 10 sentyabr tarixli 256 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının dövlət sərhədindən buraxılış məntəqələrinin sayı və yerləşdiyi ərazilərin siyahısı”nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 10 sentyabr tarixli 256 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 9, maddə 1056 (Cild I) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - “Azərbaycan Respublikasının dövlət sərhədindən buraxılış məntəqələrinin sayı və yerləşdiyi ərazilərin siyahısı”nın 3-cü hissəsi aşağıdakı redaksiyada verilsin:

“3. Cənub - Astara dövlət sərhədindən buraxılış məntəqəsi - Astara rayonu (Astara şəhəri), Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında.”.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 161 QƏRAR Bakı şəhəri, 16 mart 2024-cü il

## “Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 21 avqust tarixli 175 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında telekommunikasiya vasitələri və qurğularının sertifikatlaşdırılması Qaydaları”nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 21 avqust tarixli 175 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 8, maddə 558 (Cild I) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında telekommunikasiya vasitələri və qurğularının sertifikatlaşdırılması Qaydaları”na aşağıdakı məzmunda 4.15-ci bənd əlavə edilsin:

“4.15. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ölkəyə idxal edilən RV-lər barədə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin informasiya sistemlərindən aşağıdakı məlumatları real vaxt rejimində əldə edir:

4.15.1. məhsulun bəyan edilmə tarixi;

4.15.2. məhsulun xarici iqtisadi fəaliyyətin mal nomenklaturası üzrə kodu;

4.15.3. məhsul partiyasının qeydiyyat kodu;

4.15.4. məhsulun təsviri;

4.15.5. məhsulu idxal edən şəxs barədə məlumat (hüquqi şəxsin adı, fiziki şəxsin soyadı, adı, atasının adı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN).”.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 162 QƏRAR Bakı şəhəri, 16 mart 2024-cü il

## “Müntəzəm beynəlxalq, şəhərlərarası (rayonlararası) və şəhərdaxili (rayondaxili) sərnişin daşımalarının yerinə yetirilməsi ilə bağlı sifarişçinin keçirdiyi müsabiqədə iştiraka görə ödənişin məbləği”nin təsdiq edilməsi haqqında

“Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 973-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin “Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2008-ci il 4 iyul tarixli 792 nömrəli, “Yol hərəkəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 23 fevral tarixli 1016-VQD nömrəli Qanununun tətbiqi və “Yol hərəkəti haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 noyabr tarixli 24 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında” 2018-ci il 17 aprel tarixli 1926 nömrəli, “Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin fəaliyyətinin təmin edilməsi və Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında” 2011-ci il 20 iyul tarixli 472 nömrəli, “Sumqayıt şəhərində avtomobil nəqliyyatı ilə sərnişin daşınması sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında” 2015-ci il 7 dekabr tarixli 704 nömrəli və “Gəncə şəhərində avtomobil nəqliyyatı ilə sərnişin daşınması sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında” 2016-cı il 25 yanvar tarixli 750 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə” 2022-ci il 8 sentyabr tarixli 1842 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 18 avqust tarixli 2300 nömrəli Fərmanının 2.1.5-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Müntəzəm beynəlxalq, şəhərlərarası (rayonlararası) və şəhərdaxili (rayondaxili) sərnişin daşımalarının yerinə yetirilməsi ilə bağlı sifarişçinin keçirdiyi müsabiqələrdə iştiraka görə ödənişin məbləği” təsdiq edilsin *(əlavə olunur)*.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 163 QƏRAR Bakı şəhəri, 16 mart 2024-cü il

## “İnternet informasiya ehtiyatı vasitəsilə elektron ticarəti həyata keçirən qeyri-rezidentin elektron qaydada vergi uçotuna alınması, yenidən uçota alınması və uçotdan çıxarılması Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 30 oktyabr tarixli 387 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq,”Azərbaycan Respublikası Prezidentinin”Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2022-ci il 9 dekabr tarixli 677-VIQD nömrəli Qanununun tətbiqi, Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə” 2000-ci il 30 avqust tarixli 393 nömrəli və “Fiziki şəxs olan istehlakçılar tərəfindən Azərbaycan Respublikasının ərazisində pərakəndə ticarət, ictimai iaşə və tibb fəaliyyəti göstərən şəxslərdən alınmış mallara (neft və qaz məhsulları, avtomobillər, alkoqollu içkilər və tütün məmulatları istisna olmaqla) və göstərilən xidmətlərə görə ödənilmiş ƏDV-nin qaytarılması Qaydası”nın təsdiq edilməsi haqqında” 2020-ci il 21 mart tarixli 969 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə” 2022-ci il 30 dekabr tarixli 1946 nömrəli və “Mikro, kiçik və orta sahibkarlığın inkişafı haqqında” Azərbaycan Respublikasının 2022-ci il 2 dekabr tarixli 661-VIQ nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” 2018-ci il 26 iyun tarixli 148 nömrəli Fərmanında dəyişiklik edilməsi, “Kiçik sahibkarlığa dövlət köməyi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 1999-cu il 4 avqust tarixli 171 nömrəli Fərmanının ləğv edilməsi haqqında” 2023-cü il 26 yanvar tarixli 2001 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 16 dekabr tarixli 2409 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“İnternet informasiya ehtiyatı vasitəsilə elektron ticarəti həyata keçirən qeyri-rezidentin elektron qaydada vergi uçotuna alınması, yenidən uçota alınması və uçotdan çıxarılması Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 30 oktyabr tarixli 387 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 10, maddə 1467 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 165 QƏRAR Bakı şəhəri, 16 mart 2024-cü il

## “Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin işçilərinin say həddinin təsdiq edilməsi və əməkhaqqı fondunun müəyyən edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 15 iyul tarixli 309 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin işçilərinin say həddinin təsdiq edilməsi və əməkhaqqı fondunun müəyyən edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 15 iyul tarixli 309 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 7, maddə 1332 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1-ci hissədə “20” rəqəmləri “32” rəqəmləri ilə əvəz edilsin;

1.2. 2-ci hissədə “38547 (otuz səkkiz min beş yüz qırx yeddi)” sözləri “53365 (əlli üç min üç yüz altmış beş)” sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Qərardan irəli gələn məsələləri həll etsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 164 QƏRAR Bakı şəhəri, 16 mart 2024-cü il

## “Azərbaycan Respublikası Prezidentinin “Sahibkarlıq fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2017-ci il 29 dekabr tarixli 963-VQD nömrəli Qanununun tətbiqi haqqında” 2018-ci il 5 fevral tarixli 1816 nömrəli, “Patent haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 23 fevral tarixli 1005-VQD nömrəli Qanununun tətbiqi haqqında” 2018-ci il 5 aprel tarixli 1913 nömrəli, “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 23 fevral tarixli 1006-VQD nömrəli Qanununun tətbiqi haqqında” 2018-ci il 5 aprel tarixli 1914 nömrəli, “Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 23 fevral tarixli 1007-VQD nömrəli Qanununun tətbiqi haqqında” 2018-ci il 5 aprel tarixli 1915 nömrəli, “Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 23 fevral tarixli 1008-VQD nömrəli Qanununun tətbiqi haqqında” 2018-ci il 5 aprel tarixli 1916 nömrəli, “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 4 may tarixli 1140-VQD nömrəli Qanununun tətbiqi və “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 7 fevral tarixli 192 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” 2018-ci il 1 iyun tarixli 105 nömrəli və “Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” 2018-ci il 26 iyun tarixli 148 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 16 dekabr tarixli 2405 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikası Prezidentinin “Sahibkarlıq fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2017-ci il 29 dekabr tarixli 963-VQD nömrəli Qanununun tətbiqi haqqında” 2018-ci il 5 fevral tarixli 1816 nömrəli, “Patent haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 23 fevral tarixli 1005-VQD nömrəli Qanununun tətbiqi haqqında” 2018-ci il 5 aprel tarixli 1913 nömrəli, “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 23 fevral tarixli 1006-VQD nömrəli Qanunun tətbiqi haqqında” 2018-ci il 5 aprel tarixli 1914 nömrəli, “Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respub-likasının 2018-ci il 23 fevral tarixli 1007-VQD nömrəli Qanununun tətbiqi haqqında” 2018-ci il 5 aprel tarixli 1915 nömrəli, “Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 23 fevral tarixli 1008-VQD nömrəli Qanununun tətbiqi haqqında” 2018-ci il 5 aprel tarixli 1916 nömrəli, “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 4 may tarixli 1140-VQD nömrəli Qanununun tətbiqi və “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 7 fevral tarixli 192 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” 2018-ci il 1 iyun tarixli 105 nömrəli və “Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” 2018-ci il 26 iyun tarixli 148 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 16 dekabr tarixli 2405 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Dövlət ilkin kəmiyyət vahidi etalonlarından kəmiyyət vahidlərinin ötürülməsinə görə xidmət haqqının məbləğinin müəyyən edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 437 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2152 (Cild I) 3-cü hissəsi ləğv edilsin.

2. “Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarları”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 21 dekabr tarixli 556 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (ll kitab), maddə 2751 (Cild I) 6-cı hissəsi ləğv edilsin.

3. “Peşəkar mühasib təşkilatının akkreditasiya olunması Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 2 may tarixli 204 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 5, maddə 941 (Cild I) 2-ci hissəsi ləğv edilsin.

4. “Peşəkar mühasib sertifikatının verilməsi prosesinin təşkili, imtahanların keçirilməsi və peşəkar mühasib sertifikatı almış şəxslərin dövlət reyestrinin aparılması Qaydaları”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 22 may tarixli 237 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 5, maddə 970 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 28 fevral tarixli 109 nömrəli Qərarı) 2-ci hissəsi ləğv edilsin.

5. “İxtira, faydalı model, sənaye nümunəsi, əmtəə nişanları və coğrafi göstəricilərin hüquqi mühafizəsi sahəsində göstərilən xidmətlərin siyahısı və həmin xidmətlərə görə Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinə ödəniləcək haqların məbləğləri”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 27 may tarixli 247 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 5, maddə 980 (Cild I) 3-cü hissəsi ləğv edilsin.

6. “Uyğunluğu qiymətləndirən qurumların akkreditasiyasının həyata keçirilməsinə görə xidmət haqqının məbləği”nin və “Uyğunluğu qiymətləndirən qurumların akkreditasiyasının həyata keçirilməsi üçün planlaşdırılan iş həcminin xüsusiyyətləri”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 13 iyun tarixli 271 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 6, maddə 1160 (Cild I) 4-cü hissəsi ləğv edilsin.

7. “Mikro, kiçik və orta sahibkarlığın inkişafı ilə əlaqədar təhsil, elm, tədqiqat və dəstək layihələrinin maliyyələşdirilməsi Qaydası”nın təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 sentyabr tarixli 364 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 9, maddə 1236 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 8 fevral tarixli 77 nömrəli Qərarı) 2-ci hissəsi ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 166 QƏRAR Bakı şəhəri, 18 mart 2024-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 25 dekabr tarixli 503 nömrəli Qərarı ilə təsdiq edilmiş “Dərman vasitələrinin farmakonəzarət Qaydası”nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nairlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 25 dekabr tarixli 503 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 12, maddə 2084 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 13 mart tarixli 153 nömrəli Qərarı) ilə təsdiq edilmiş “Dərman vasitələrinin farmakonəzarət Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

1. 2-ci hissə üzrə:

1.1. 2.1-ci bəndin birinci abzası aşağıdakı redaksiyada verilsin:

“2.1. Bu Qaydanın məqsədləri üçün aşağıdakı əsas anlayışlardan istifadə olunur:”;

1.2. 2.1.19-cu yarımbəndə “istifadə edilən” sözlərindən sonra “Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin (bundan sonra - Nazirlik) qərarı ilə təsdiq edilmiş” sözləri əlavə edilsin;

1.3. 2.1.23-cü yarımbənddə “Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin (bundan sonra - Nazirlik) təlimatıdır.” sözləri “Nazirlik tərəfindən müəyyən edilmiş prosedur;” sözləri ilə əvəz edilsin;

1.4. aşağıdakı məzmunda 2.1.24-2.1.26-cı yarımbəndlər əlavə edilsin:

“2.1.24. **dərman vasitəsinin qeydiyyat tarixi** - eyni təsiredici maddə və ya eyni təsiredici maddə kombinasiyalı dərman vasitələrində, həmin təsiredici maddə və ya təsiredici maddə kombinasiyalı bir dərman vasitəsinin Avropa İttifaqında (bundan sonra - Aİ) ilk dəfə qeydiyyata alındığı tarix və ya bu tarixi müəyyən etmək mümkün olmadıqda, həmin təsiredici maddə və ya təsiredici maddə kombinasiyalı bir dərman vasitəsinin məlum olan ilk qeydiyyat tarixi;

2.1.25. **dərman vasitəsinin beynəlxalq qeydiyyat tarixi** - bu Qaydanın 2.1.24-cü yarımbəndində nəzərdə tutulmuş dərman vasitələri istisna olmaqla hər hansı bir ölkədə dərman vasitəsinin ilk qeydiyyat tarixi;

2.1.26. **məlumat kilid tarixi** - dövri olaraq yenilənən təhlükəsizlik hesabatında verilən məlumatların toplanmasının bitdiyi tarix.”.

2. 3.8-ci bəndə “rus” sözündən sonra “, türk” sözü əlavə edilsin.

3. 13-cü hissə üzrə:

3.1. 13.1-ci bəndə “vəsiqə sahibi” sözlərindən sonra “, müalicə-profilaktika müəssisələri, tibb və əczaçılıq işçiləri” sözləri əlavə edilsin;

3.2. 13.2-ci bəndə “Vəsiqə sahibi” sözlərindən sonra “, müalicə-profilaktika müəssisələri, tibb və əczaçılıq işçiləri” sözləri əlavə edilsin;

3.3. 13.4-cü bəndə “Vəsiqə sahibi” sözlərindən sonra “və müalicə-profilaktika müəssisələri” sözləri əlavə edilsin;

3.4. 13.5-ci bəndin birinci abzasına “Vəsiqə sahibi” sözlərindən sonra “və müalicə-profilaktika müəssisələri” sözləri əlavə edilsin.

4. 16-cı hissə üzrə:

4.1. 16.2.3-cü və 16.2.8-ci yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

“16.2.3. dərman vasitəsinin satışda olduğu digər ölkələrdən əldə etdiyi dərman vasitəsinin istifadə təlimatında əks edilən məlumatlara uyğun olmayan ciddi əlavə təsirlər haqqında bildirişləri həmin məlumatı aldıqdan sonra 15 (on beş) təqvim günü müddətində Quruma göndərir;

16.2.8. təsiredici maddəsi Avropa Dərman Agentliyinin rəsmi internet saytında göstərilən “Dərman vasitələrinin Avropa İttifaqında (Aİ) qeydiyyat tarixləri və dövri olaraq yenilənən təhlükəsizlik hesabatının təqdim edilmə müddətləri siyahısı”na (List of EURDs and frequency of submission of PSURs) daxil edilən dərman vasitələrinə (təsiredici maddə əsas götürülməklə) münasibətdə dövri olaraq yenilənən təhlükəsizlik hesabatını dərman vasitəsinin qeydiyyat tarixinə uyğun olaraq həmin siyahı ilə müəyyən olunmuş müddətdə və dövrilikdə Quruma təqdim edir;”;

4.2. aşağıdakı məzmunda 16.2.8-1-ci və 16.2.8-2-ci yarımbəndlər əlavə edilsin:

“16.2.8-1. təsiredici maddəsi bu Qaydanın 16.2.8-ci yarımbəndində qeyd olunan siyahıya daxil edilməyən dərman vasitələrinə (təsiredici maddə əsas götürülməklə) münasibətdə dövri olaraq yenilənən təhlükəsizlik hesabatını həmin dərman vasitələrinin ilk dövlət qeydiyyatı Azərbaycan Respublikasında olduğu halda onların qeydiyyata alındığı tarixdən və ya dərman vasitəsinin beynəlxalq qeydiyyat tarixindən etibarən ilk 2 (iki) il ərzində hər altı aydan bir, sonrakı 2 (iki) il ərzində ildə bir dəfə, sonrakı dövr ərzində - hər 3 (üç) ildən bir Quruma təqdim edir;

16.2.8-2. dövri olaraq yenilənən təhlükəsizlik hesabatını məlumat kilid tarixindən etibarən 90 (doxsan) təqvim günündən gec olmayaraq Quruma təqdim edir;”;

4.3. 16.2.9-cu yarımbənd aşağıdakı redaksiyada verilsin:

“16.2.9. dərman vasitəsi yenidən dövlət qeydiyyatına alındığı zaman dövri olaraq yenilənən təhlükəsizlik hesabatını Quruma təqdim edir;”.

5.19.4-cü bənddə “tibb müəssisələrinin” sözləri “müalicə-profilaktika müəssisələrinin” sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 167 **QƏRAR** Bakı şəhəri, 18 mart 2024-cü il

## “Dövlət-özəl tərəfdaşlığı Qaydaları”nın təsdiq edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Dövlət-özəl tərəfdaşlığı haqqında” Azərbaycan Respublikasının 2022-ci il 9 dekabr tarixli 691-VIQ nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə”nin təsdiq edilməsi və “Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və “Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanında dəyişiklik edilməsi və “Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin xüsusi maliyyələşmə əsasında həyata keçirilməsi haqqında” Azərbaycan Respublikasının 2016-cı il 15 mart tarixli 177-VQ nömrəli Qanununun tətbiqi barədə” 2016-cı il 20 aprel tarixli 867 nömrəli, “Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin investorlar tərəfindən “Tik-idarə et-təhvil ver” modeli çərçivəsində həyata keçirilməsinin şərtləri, tikinti və infrastruktur obyektlərinin növlərinə uyğun olaraq investorlar qarşısında qoyulan tələblər, bağlanılan müqavilələrin xüsusiyyətləri və şərtləri, investisiya qoyuluşu nəticəsində əldə olunacaq mal və xidmətlərin dəyərinin müəyyənləşdirilməsi Qaydası”nın təsdiq edilməsi haqqında” 2016-cı il 7 dekabr tarixli 1149 nömrəli fərmanlarının ləğv edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 27 dekabr tarixli 1919 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Dövlət-özəl tərəfdaşlığı Qaydaları” təsdiq edilsin *(əlavə olunur)*.

2. Müəyyən edilsin ki, ehtimal olunan ümumi dəyəri 30 (otuz) milyon manatdan yuxarı olan layihələr “Dövlət-özəl tərəfdaşlığı haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən dövlət-özəl tərəfdaşlığı qaydasında həyata keçirilir.

3. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə”nin 3.5-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 168 **QƏRAR** Bakı şəhəri, 19 mart 2024-cü il

## “Azərbaycan Milli Elmlər Akademiyasının nəzdində Təbiət Tarixi Muzeyinin Nizamnaməsinin və strukturunun təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 10 iyul tarixli 265 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

“Azərbaycan Milli Elmlər Akademiyasının Nizamnaməsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 3 noyabr tarixli 2340 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Azərbaycan Milli Elmlər Akademiyasının nəzdində Təbiət Tarixi Muzeyinin Nizamnaməsinin və strukturunun təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 10 iyul tarixli 265 nömrəli Qərarına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 7, maddə 896 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1. Adında, 1-ci və 2-ci hissələrdə “Azərbaycan Milli Elmlər Akademiyasının nəzdində” sözləri “Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyindəki” sözləri ilə əvəz edilsin.

2. Həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - “Azərbaycan Milli Elmlər Akademiyasının nəzdində Təbiət Tarixi Muzeyinin Nizamnaməsi” üzrə:

2.1. adında və 1.1-ci bənddə “Azərbaycan Milli Elmlər Akademiyasının nəzdində” sözləri “Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyindəki” sözləri ilə əvəz edilsin;

2.2. 1.3-cü bənddə “Azərbaycan Milli Elmlər Akademiyasının (bundan sonra - AMEA)” sözləri “Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin (bundan sonra - Nazirlik)” sözləri ilə əvəz edilsin;

2.3. 1.4-cü bənddə “AMEA-nın” sözləri “Nazirliyin” sözü ilə əvəz edilsin;

2.4. 3.1.1-ci yarımbənddə, 6.3-cü bəndin ikinci cümləsində, 6.4-cü bəndin üçüncü cümləsində, 6.9-cu bənddə, 6.10.5-ci və 6.10.7-ci yarımbəndlərdə “AMEA-nın Rəyasət Heyəti” sözləri “Nazirlik” sözü ilə əvəz edilsin;

2.5. 4.2-ci bənddə “AMEA-nın Rəyasət Heyətinin” sözləri “Nazirliyin” sözü ilə əvəz edilsin;

2.6. 6.10.6-cı yarımbənddə “AMEA-nın Rəyasət Heyətinə” sözləri “Nazirliyə” sözü ilə əvəz edilsin.

3. Həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - “Azərbaycan Milli Elmlər Akademiyasının nəzdində Təbiət Tarixi Muzeyinin strukturu”nun adında “Azərbaycan Milli Elmlər Akademiyasının nəzdində” sözləri “Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyindəki” sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 169 **QƏRAR** Bakı şəhəri, 19 mart 2024-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 26 fevral tarixli 65 nömrəli Qərarı ilə təsdiq edilmiş “Dövlət və bələdiyyə tərəfindən yaradılan peşə təhsili müəssisəsinin Nümunəvi Nizamnaməsi”ndə dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 26 fevral tarixli 65 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 2, maddə 361 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 21 fevral tarixli 95 nömrəli Qərarı) ilə təsdiq edilmiş “Dövlət və bələdiyyə tərəfindən yaradılan peşə təhsili müəssisəsinin Nümunəvi Nizamnaməsi”nin 5.2-ci bəndində “Ali təhsil” sözləri “Peşə təhsili” sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 170 **QƏRAR** Bakı şəhəri, 19 mart 2024-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 13 may tarixli 219 nömrəli Qərarı ilə təsdiq edilmiş “Dövlət və bələdiyyə tərəfindən yaradılan orta ixtisas təhsili müəssisəsinin Nümunəvi Nizamnaməsi”ndə dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 13 may tarixli 219 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 5, maddə 953 (Cild I) ilə təsdiq edilmiş “Dövlət və bələdiyyə tərəfindən yaradılan orta ixtisas təhsili müəssisəsinin Nümunəvi Nizamnaməsi”ndə aşağıdakı dəyişikliklər edilsin:

1. 4.11-ci bənddən “Azərbaycan Respublikası Prezidentinin vəzifəyə təyin və vəzifədən azad etdiyi” sözləri çıxarılsın.

2. 4.16-cı bəndin birinci cümləsində “prorektorları” sözü “direktor müavinləri” sözləri ilə əvəz edilsin.

3. 5.2-ci bənddə “Ali təhsil” sözləri “Orta ixtisas təhsili” sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 171 **QƏRAR** Bakı şəhəri, 19 mart 2024-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 23 sentyabr tarixli 338 nömrəli Qərarı ilə təsdiq edilmiş “Valyuta sərvətləri və milli valyutanın transsərhəd daşınması zamanı Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinə təqdim edilən məlumat və sənədlərin tərtib olunma forması”nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 23 sentyabr tarixli 338 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 9, maddə 1359 (Cild I) ilə təsdiq edilmiş “Valyuta sərvətləri və milli valyutanın transsərhəd daşınması zamanı Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinə təqdim edilən məlumat və sənədlərin tərtib olunma forması”nda aşağıdakı dəyişikliklər edilsin:

1. 2-4-cü hissələr ləğv edilsin.

2. 5-ci hissənin birinci abzası və 5.3-cü bənd müvafiq olaraq aşağıdakı redaksiyada verilsin:

“5. Valyuta sərvətləri və milli valyutanın transsərhəd daşınması zamanı Dövlət Gömrük Komitəsi tərəfindən Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinə təqdim edilən Formada aşağıdakı məlumatlar əks etdirilməlidir:”;

“5.3. məlumat və sənədlərin təqdim edilmə əsası;”.

3. 5.10-cu bənddə nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 5.11-ci bənd əlavə edilsin:

“5.11. Bu sənədin 5.1-5.10-cu bəndlərində nəzərdə tutulan məlumatları təsdiq edən sənədlər (varsa).”.

4. Aşağıdakı məzmunda 6-cı hissə əlavə edilsin:

“6. Bu Formanın 5-ci hissəsində qeyd olunan məlumatları təsdiq edən sənədlər Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti tərəfindən tələb edildikdə elektron sənəd formasında tərtib olunaraq göndərilir.”.

5. Həmin Formaya əlavə - “Valyuta sərvətləri və milli valyutanın transsərhəd daşınması zamanı Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinə təqdim edilən məlumatların tərtib olunma formasının Nümunəsi” üzrə:

5.1. adında “məlumatların” sözü “məlumat və sənədlərin” sözləri ilə əvəz edilsin;

5.2. “Təqdim edilmə əsası” xanasından ulduz işarəsi çıxarılsın;

5.3. cədvəldən sonrakı birinci abzas ləğv edilsin;

5.4. “Monitorinq olunmalı əməliyyata dair məlumat” xanasından sonra “Sənədlər” xanası əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 172 **QƏRAR** Bakı şəhəri, 19 mart 2024-cü il

## “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 903-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 903-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 8 may tarixli 120 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 5, maddə 464 (Cild I) ilə təsdiq edilmiş “Mülki dövriyyəsi məhdudlaşdırılmış əşyaların dövriyyəsinə və onun şərtlərinin gözlənilməsinə nəzarət Qaydaları”nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. II hissə üzrə:

1.1.1. 2.3-1-ci bəndin ikinci cümləsində “risk qiymətləndirilməsi” sözləri “risklərin idarə olunması” sözləri ilə əvəz edilsin;

1.1.2. 2.6-cı bəndin ikinci cümləsinə “xüsusi icazə sahibinə dair məlumatlar” sözlərindən sonra “(sahibkarlara münasibətdə yoxlanılması nəzərdə tutulan yoxlama obyektinə dair məlumatlar (adı, ünvanı, təsviri və s.)” sözləri əlavə edilsin;

1.1.3. 2.7-ci bəndə (birinci halda) “xüsusi icazənin sahibinə” sözlərindən əvvəl “sahibkar olmayan” sözləri əlavə edilsin və həmin bənddən “sahibkarlıq subyekti olan xüsusi icazənin sahibinə, həmçinin yoxlamanın sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrində qeydiyyata alınması barədə çıxarışı” sözləri çıxarılsın;

1.1.4. aşağıdakı məzmunda 2.7-1-ci bənd əlavə edilsin:

“2.7-1. Səlahiyyətli dövlət orqanlarının vəzifəli şəxsi (şəxsləri) xüsusi icazənin sahibi olan sahibkara və ya onun səlahiyyətli nümayəndəsinə öz xidməti vəsiqəsini (şəxsiyyət vəsiqəsi ilə birlikdə), yoxlamanın aparılması haqqında qərarın surətini və yoxlamanın sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrində qeydiyyata alınması barədə çıxarışı təqdim etməlidir.”;

1.1.5. 2.8-ci bəndin birinci abzasına aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Xüsusi icazə sahibləri olan sahibkarlar barəsində yoxlamanın aparılması zamanı yoxlama tədbirlərini həyata keçirən müvafiq dövlət orqanlarının vəzifəli şəxsləri “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikası Qanununun 4-2.2-ci maddəsində nəzərdə tutulan qadağalara riayət etməlidirlər.”;

1.1.6. aşağıdakı məzmunda 2.9-1-ci bənd əlavə edilsin:

“2.9-1. Xüsusi icazə sahibləri olan sahibkarlar barəsində yoxlamanın aparılması zamanı yoxlama tədbirlərini həyata keçirən müvafiq dövlət orqanlarının vəzifəli şəxsləri və sahibkarlar “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hüquqları həyata keçirir və vəzifələri yerinə yetirirlər.”;

1.2. III hissənin mətnində “Azərbaycan Respublikasının qanunvericiliyi ilə” sözləri “qanunla” sözü ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 6 dekabr tarixli 542 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (II kitab), maddə 2490 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 13 fevral tarixli 86 nömrəli Qərarı) ilə təsdiq edilmiş “Yoxlama və digər nəzarət tədbirləri çərçivəsində yoxlayıcı orqanlar tərəfindən fiziki və hüquqi şəxslərdən malların (məhsulların) götürülməsi, daşınması, saxlanması, zərərsizləşdirilməsi və ya məhv edilməsi Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 4.4-cü bəndin üçüncü cümləsində “sifarişli poçt vasitəsi ilə mal sahibinin ünvanına” sözləri “sifarişli poçt göndərişi vasitəsilə mal sahibinin qeydiyyat ünvanına, mal sahibi tərəfindən elektron poçt və ya digər poçt ünvanı təqdim edildikdə isə həmin ünvana” sözləri ilə əvəz edilsin;

2.2. 6.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

“6.1. Malların tədqiqi (sınağı) barədə qərara əsasən götürülən məhsul nümunələrinin dəyərinin ödənilməsi, onların saxlanılması, tədqiq (sınaq) edilən parametrlərin dəyişməz saxlanılması, daşınması, tədqiqi, alınmış nəticələr barədə məlumat verilməsi, məhsulun daha sonrakı satışı və ya utilizasiyası ilə əlaqədar yaranan xərclər yoxlayıcı orqan tərəfindən ödənilir.”;

2.3. 6.7-ci bəndə “mal sahibinə” sözlərindən sonra “və ya onun səlahiyyətli nümayəndəsinə” sözləri, “sifarişli poçt vasitəsilə” sözlərindən sonra isə “mal sahibinin qeydiyyat ünvanına, mal sahibi tərəfindən elektron poçt və ya digər poçt ünvanı təqdim edildikdə isə həmin ünvana” sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 173 **QƏRAR** Bakı şəhəri, 19 mart 2024-cü il

## Azərbaycan Respublikası Kosmik Agentliyinin (Azərkosmos) fəaliyyət istiqamətləri üzrə müvafiq işlərin görülməsi üçün alınması tələb olunmayan lisenziya və icazələrin siyahısının təsdiq edilməsi haqqında

“Kosmik fəaliyyət haqqında” Azərbaycan Respublikasının 2023-cü il 24 iyun tarixli 927-VIQ nömrəli Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 4 avqust tarixli 2291 nömrəli Fərmanının 2.1.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Azərbaycan Respublikası Kosmik Agentliyinin (Azərkosmos) fəaliyyət istiqamətləri üzrə müvafiq işlərin görülməsi üçün alınması tələb olunmayan lisenziyaların siyahısı” təsdiq edilsin *(əlavə olunur)*.

2. “Azərbaycan Respublikası Kosmik Agentliyinin (Azərkosmos) fəaliyyət istiqamətləri üzrə müvafiq işlərin görülməsi üçün alınması tələb olunmayan icazələrin siyahısı” təsdiq edilsin *(əlavə olunur)*.

3. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə”nin 3.5-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 174 **QƏRAR** Bakı şəhəri, 19 mart 2024-cü il

## “Azərbaycan Respublikası Prezidentinin “Təhsil haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli, “Publik hüquqi şəxslər haqqında” Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 97-VQ nömrəli Qanununun tətbiqi barədə” 2016-cı il 3 fevral tarixli 759 nömrəli və “Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 12 iyul tarixli 1657-VQD nömrəli Qanununun tətbiqi və “Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 4 iyul tarixli 792 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” 2019-cu il 28 avqust tarixli 826 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 15 dekabr tarixli 2397 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

“Azərbaycan Respublikası Prezidentinin “Təhsil haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli, “Publik hüquqi şəxslər haqqında” Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 97-VQ nömrəli Qanununun tətbiqi barədə” 2016-cı il 3 fevral tarixli 759 nömrəli və “Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 12 iyul tarixli 1657-VQD nömrəli Qanununun tətbiqi və “Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 4 iyul tarixli 792 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” 2019-cu il 28 avqust tarixli 826 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 15 dekabr tarixli 2397 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Bakı Dövlət Universitetinin Nizamnaməsi”nin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 16 aprel tarixli 172 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 765 (Cild I) 3-cü hissəsi ləğv edilsin.

2. “Azərbaycan Dövlət İqtisad Universitetinin Nizamnaməsi”nin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 22 avqust tarixli 365 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 8, maddə 1470 (Cild I)3-cü hissəsi ləğv edilsin.

3. “Azərbaycan Dillər Universitetinin Nizamnaməsi”nin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 10 sentyabr tarixli 401 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 9, maddə 1555 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 3-cü hissə ləğv edilsin;

3.2. həmin Qərarla təsdiq edilmiş “Azərbaycan Dillər Universitetinin Nizamnaməsi”nin 4.3-cü bəndindən “Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla,” sözləri çıxarılsın.

4. “Avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və yük daşımalarına buraxılış Qaydaları”nın təsdiq edilməsi haqqında”Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 8 aprel tarixli 149 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 4, maddə 397 (Cild I); 2024, № 1, maddə 111) aşağıdakı dəyişikliklər edilsin;

4.1. preambula aşağıdakı redaksiyada verilsin:

“Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 973-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin “Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2008-ci il 4 iyul tarixli 792 nömrəli, “Yol hərəkəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 23 fevral tarixli 1016-VQD nömrəli Qanununun tətbiqi və “Yol hərəkəti haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 noyabr tarixli 24 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında” 2018-ci il 17 aprel tarixli 1926 nömrəli, “Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin fəaliyyətinin təmin edilməsi və Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında” 2011-ci il 20 iyul tarixli 472 nömrəli, “Sumqayıt şəhərində avtomobil nəqliyyatı ilə sərnişin daşınması sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında” 2015-ci il 7 dekabr tarixli 704 nömrəli və “Gəncə şəhərində avtomobil nəqliyyatı ilə sərnişin daşınması sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında” 2016-cı il 25 yanvar tarixli 750 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə” 2022-ci il 8 sentyabr tarixli 1842 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 18 avqust tarixli 2300 nömrəli Fərmanının 1.2-ci bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**”;

4.2. 2-ci hissə ləğv edilsin;

5. “Bakı Mühəndislik Universitetinin Nizamnaməsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 6 iyun tarixli 223 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 6, maddə 664 (Cild I) 3-cü hissəsi ləğv edilsin.

6. “Mingəçevir Dövlət Universitetinin yenidən təşkili və Nizamnaməsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 9 avqust tarixli 289 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 8, maddə 978 (Cild I) 4-cü hissəsi ləğv edilsin.

7. “Azərbaycan Turizm və Menecment Universitetinin yenidən təşkili və Nizamnaməsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 9 avqust tarixli 291 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 8, maddə 980 (Cild I) 4-cü hissəsi ləğv edilsin.

8. “Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin yenidən təşkili və Nizamnaməsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 12 avqust tarixli 300 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 8, maddə 987 (Cild I) 4-cü hissəsi ləğv edilsin.

9. “Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin yenidən təşkili və Nizamnaməsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 12 avqust tarixli 301 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 8, maddə 988 (Cild I) 4-cü hissəsi ləğv edilsin.

10. “Azərbaycan Dövlət Pedaqoji Universitetinin yenidən təşkili və Nizamnaməsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 12 avqust tarixli 302 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 8, maddə 989 (Cild I) 4-cü hissəsi ləğv edilsin.

11. “Azərbaycan Dövlət Dəniz Akademiyasının və onun nəzdində Azərbaycan Dənizçilik Kollecinin yenidən təşkil edilməsi, Azərbaycan Dövlət Dəniz Akademiyasının Nizamnaməsinin təsdiq olunması haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 21 sentyabr tarixli 361 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1095 (Cild I) 7-ci hissəsi ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***




**Builki Novruz bayramı ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin tam bərpası şəraitində həyatımızın yeni mərhələsinin başlanğıcına təsadüf etməsi ilə əlamətdardır. Yaz fəslinin yeniləşdirici ab-havası daha güclü Azərbaycan naminə hər birimizin qurub-yaratmaq əzmini artırır. Əminəm ki, azadlığına qovuşmuş əzəli torpaqlarımıza əbədi qayıdışımızı qalibiyyət duyğusunda aldığımız böyük ruh yüksəkliyi ilə ən qısa zamanda uğurla gerçəkləşdirəcəyik.**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***





# Xoş niyyətlər bayramı

**Xalqımızın ən əziz bayramı olan Novruz yurdumuza qədəm qoyur. Ulularımızdan bizə yadigar qalan, milli ruhumuzu və yaddaşımızı bütün zənginliyi ilə özündə əks etdirən bu bayram milli kimliyimizin nişanəsidir. O, Azərbaycan xalqı olaraq bizim nə qədər sağlam təfəkkürə, mənəvi-əxlaqi baxışlara malik olduğumuzu, tarixin bütün dövrlərində yeniliklərə, inkişafa açıqlığımızı, keçmişimizi, bu günümüzü və gələcəyimizi göstərir. Bu mənada Novruz sadəcə bir el bayramı deyil, minilliklər ərzində cilalanmış, ulularımızın düşüncələrindən, dünyagörüşündən süzülüb gələn, milli varlığımızın bir çox cəhətini özündə ehtiva edən bütöv bir dəyərlər sistemidir.**

Xalqımızın idealları, ümid və arzuları, dünyagörüşü, yaradıcılıq potensialı bu bayramda öz əksini tapıb. Təkcə Novruzu, onun təlqin etdiyi mənəvi keyfiyyətləri nəzərdən keçirməklə Azərbaycan xalqının milli xarakterini, ideallarını tam təsəvvür etmək olar. Novruzda qədimliyimizin bütün çalarları var. Tarixi keçmişimizlə bağlı xeyli suallara bu bayramın adət-ənənələrində, dəyişməz atributlarında cavablar tapılıb. Ona görə də Azərbaycan xalqı bu el bayramını, hətta qadağan olunduğu vaxtlarda belə müxtəlif formalarda keçirib.

Novruz kimi mənəvi dəyərlərimizin gücü ilə xalqın milli yaddaşı itməyib. Təzyiqlər qarşısında aşınması mümkün olmayıb. Əksinə, daha da güclənib, möhkəmlənib, nəsillərdən-nəsillərə ötürülüb. Elmi cəhətdən öyrənilib. Bu bayrama aid folklor nümunələri sənədləşdirilib. Novruzun bir çox simvolu mədəniyyət və incəsənətimizin qiymətli incilərinə çevrilib. Bizi bütün dünyada tanıdan atributlar sırasında qərarlaşdırıb.

## Min illərdən gələn dəyərimiz

Novruz bayramı haqqında böyük şəxsiyyətlərimiz öz düşüncələrini bölüşmüşlər. Xalqların qərinələr boyu formalaşmış yüksək mənəvi-əxlaqi meyarlarını pak və sağlam niyyətlərlə qoruyaraq bütövlükdə cəmiyyətin pozitiv ruhda inkişafına təsir göstərmək, onun genetik yaddaşını, tarixi kimliyini, milli irs və özünəməxsusluğunu gələcək nəsillərə ötürmək kimi çətin missiya fenomenal insanların üzərinə düşmüşdür.

Bu baxımdan xalqımızın bütün milli-mənəvi dəyərlərini daim uca tutan Ümummilli Lider Heydər Əliyevin fikirləri indiyə qədər Novruz bayramı haqqında yazılan, deyilən kəlmələrin ümumiləşmiş ifadəsi kimi tarixə əbədi həkk olunub: "Bu bayram bir də onunla fərqlənir və səciyyələnir ki, bu bayramda siyasi baxışlarından, siyasi dünyagörüşündən asılı olmayaraq hamı bayram edir. Əgər bu günümüzü götürsək, iqtidar da, müxalifət də bayram edir, bir-birini sevən də bayram edir, bir-birinə düşmən olan da. Amma bayramın bizə bəxş etdiyi ən gözəl nemət ondan ibarətdir ki, qədim zamanlardan bu bayramda insanlar kin-küdurəti unudur, küsülülər barışır, ziddiyyətlər aradan götürülür. Demək, bu, dostluq, həmrəylik, yüksək mənəviyyat bayramıdır. Ona görə də Novruz bayramını hər il böyük el bayramı kimi, hər bir insanın şəxsi bayramı kimi qeyd edərək biz istəyirik, arzu edirik və bu, Azərbaycan vətəndaşlarının əksəriyyətinin arzusudur ki, ölkəmizdə milli həmrəylik, vətəndaş həmrəyliyi, birliyi olsun. Bu ali məqsədləri, ali fikirləri ulu babalarımız bizə nəsihət ediblər. Bu bayram yaranandan onun xüsusiyyətləri insanları həmişə dostluğa, həmrəyliyə, qarşılıqlı anlaşmaya dəvət edibdir".

Ümummilli Lider Heydər Əliyev Novruza milli ideologiyamızın təməl sütunlarından biri kimi yanaşırdı. Bu bayram müəyyən dövrlərdə qadağalara, təzyiqlərə məruz qalmışdır. Əvvəlcə imperiya ideoloqları müxtəlif yollarla Novruzu milli yaddaşımızdan silib ilhaq etdikləri ərazilərdə yeni bayramları dəbə gətirməklə onu gözdən salmağa, xalq içərisində unutdurmağa böyük cidd-cəhd göstərmişlər. Bu ənənə sovetlər dönəmində daha ağrılı şəkildə davam etdirilmişdir. Novruzun milli bayram kimi keçirilməsinə böyük qadağalar qoyulmuş, o, dini bayram hesab edilərək sovet dövləti tərəfindən unutdurulmağa çalışılmışdır. Ötən əsrin 60-cı illərinin sonlarında ölkədə milli özünüdərkə böyük qayıdış başladığı zaman bu qadağalar da tədricən səngimişdir.

Ötən əsrin 70-ci illərində isə Novruz bayramı ilk dəfə olaraq məhz Ulu Öndərin xeyir-duası ilə qeyd olunmuşdur. Ümumxalq bayramının yüksək səviyyədə keçirilməsi Azərbaycan xalqının milli ruhunu yüksəltmiş, milli irsə, tarixə böyük məhəbbət yaratmışdır. Novruz adət-ənənələri o dövrdə çəkilmiş filmlərdə də özünə yer tapmışdır. Hər dəfə "Dəli Kür" filminə baxarkən Novruzun necə təbliğ olunduğunu əyani şəkildə görürük. Məhz müdrik rəhbərin qayğısı ilə həmin illərdə qorunub saxlanılan milli-mənəvi dəyərlər sonralar Azərbaycan xalqının dövlət müstəqilliyinin bərpasında müstəsna rol oynamışdır.

"Böyük mənəvi gücə malik olan Novruz bayramı ulu əcdadlarımızın bizə verdiyi ən gözəl yadigar olub, Azərbaycan xalqının milli ruhunu və yaddaşını, onun daxili aləmini bütün zənginliyi ilə yaşadır. Təbiətin oyanışının, varlığın yenidən canlanmasının müjdəsini verən Novruz bayramı ən qədim zamanlardan bəri həyat və məişətimizə daxil olmuş, insanlara aydın və işıqlı sabaha, xoşbəxt gələcəyə inam duyğusu bəxş etmişdir" deyən Ulu Öndər bu bayramı milli ruhumuzu yaşadan, xalqın genetik yaddaşını qoruyan əsas amil kimi dəyərləndirmiş və onu əbədiləşdirmişdir. Bu, əslində, Ümummilli Lider tərəfindən atılan möhtəşəm bir addım idi.

## Xoşbəxtlik anı

Dörd ildir ki, başqa el bayramlarımız kimi, Novruzun da tamam yeni bir hüsnü var. Xalqın son dörd ilə qədər hər Novruz bayramında dilə gətirdiyi, müqəddəs dua kimi zikr etdiyi arzular çin çıxdı. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, rəşadətli ordumuzun gücü ilə torpaqlarımız işğaldan azad edildi. Artıq dörd ildir ki, azad yurdlarımızda Novruz tonqalları qalanır, bu torpaqlar da bayram ab-havasına bürünür. Ötən il ölkəmizin ərazi bütövlüyü təmin olunduqdan sonra Novruz bayramında ilk dəfə olaraq Xankəndidə, Xocalıda və Qarabağdakı digər əzəli-əbədi yurdlarımızda da bayram ocaqları çatılır. El dillərdə dastan olan Zəfərini, bu torpaqlarda başlanmış yeni həyatını, ən böyük niyyətinə çatmasını bayram edir. Dünyanın dörd bir yanında dostlar baxıb bizimlə birgə şadlanır, düşmənlər, bizi istəməyənlər xar olur.

Müzəffər Ali Baş Komandan İlham Əliyev xalqımızı illərdən bəri arzusunda olduğu Zəfərə qovuşdurmaqla Ümummilli Lider Heydər Əliyevin vəsiyyətini yerinə yetirdi. Bu qələbəmizlə, vahid amal uğrunda illərdir mübarizə aparan insanlarımızın milli birliyinin, bütövlüyünün, vəhdətinin nə qədər böyük dəyər olduğunu göstərdi. Azərbaycan Prezidentinin Vətən müharibəsindəki qələbəmizdən sonrakı ilk Novruz bayramında - 2021-ci ilin 20 martında Şuşada, Cıdır düzündə xalqımıza bayram müjdəsi kimi dilə gətirdiyi kəlmələr yüzlərlə ailəyə sevinc bəxş etdi: "Bilirəm, hər birimiz, xüsusilə keçmiş məcburi köçkünlər hər dəfə bayram ərəfəsində və bayram günlərində deyirdik ki, inşallah, gələn il azad edilmiş torpaqlarda, Qarabağda Novruz bayramını qeyd edəcəyik və artıq bu, reallıqdır... Bu gözəl bahar bayramını biz işğaldan azad edilmiş torpaqlarda qeyd edirik... Şadam və xoşbəxtəm ki, artıq bu, bir ənənəyə çevrilib və Novruz bayramını biz burada, doğma Qarabağ diyarında qeyd edirik. ...Bu gün Novruz bayramını ölkəmizin mədəniyyət paytaxtı olan Şuşada qeyd edirik. Bu, tarixi hadisədir. Bu, böyük xoşbəxtlikdir. Allah Azərbaycan xalqının dualarını eşitdi. Biz Şuşa və azad edilmiş bütün torpaqları bərpa edəcəyik".

## Yeni həyatın başlanğıcı

Bu gün Azərbaycan dövləti yeni strateji mərhələnin məqsədlərinə doğru inamla irəliləyir. Bu məqsədlər ermənilərin illərlə vandalcasına dağıdıb tar-mar etdikləri yurdlarımızı yenidən qurmaq, bu torpaqları dirçəltmək, inkişaf axarına qovuşdurmaqdır. Dövlətimiz heç bir ölkənin maddi dəstəyinə, maliyyə yardımına ehtiyac duymadan yalnız öz resursları hesabına bu işi yüksək səviyyədə yerinə yetirir. Şəhərlərimiz, kənd və qəsəbələrimiz genişmiqyaslı quruculuq-abadlıq tədbirləri ilə yenidən həyata qaytarılır. Qarabağ, Şərqi Zəngəzur əvvəlkindən də gözəl qurulur. Çünki hər daşına, kərpicinə bu yurdun insanlarının sevgisi qoyulur. Xalqın qələbə əzminin, bu torpaqlarda rifah, əbədi sülh və xoşbəxtlik arzusunun simvolu kimi yanaşılır.

İllərdir Vətənin müxtəlif məkanlarında yurd həsrəti ilə yaşayan, təxminən 30 ilə yaxın müddətdə çox böyük əziyyətlər çəkən məcburi köçkünlərimiz qrup-qrup öz doğma ocaqlarına qayıdırlar. Onlar da dövlətimizin qurucu əllərinin tikib-abadlaşdırdığı gözəl, müasir mənzillərdə yeni həyatlarına başlayırlar. Evlərdə, ocaqlarda Azərbaycan ailələrinin çırağı yanır, analarımızın duaları eşidilir, abad, işıqlı məktəblərdən gülüzlü balalarımızın avazı gəlir, ocağımız alovlanır, suyumuz axır, otumuz göyərir. Bu, Novruz arzularımızın təzahürüdür, hər il bayram tonqalı ətrafında ürəyimizdə böyütdüyümüz saf niyyətlərin həyata keçməsidir.

## Mənəvi dəyərlərə sadiqlik

Novruz bayramı əsrlərboyu milli mədəniyyətimizdə sülhün, mehriban qonşuluğun, tolerantlığın, ümumbəşəri dəyərlərə sadiqliyin tarixi təcəssümü olub. Azərbaycan xalqının çoxəsrlik tolerantlıq ənənələri, fərqli mədəniyyətlərə hörmət duyğusu, miltikulturallıq prinsiplərinə ehtiramı bu bayramda yaşayır. Tarixi Zəfəri ilə regionda yeni reallıqlar yaratmış Azərbaycan xalqı bu dəyərlərə hər zaman sadiqdir. Yaşadığımız coğrafiyanın sülh və əməkdaşlıq, dayanıqlı inkişaf, sosial rifah məkanına çevrilməsindən ötrü Azərbaycan Vətən müharibəsindəki qələbəmizdən sonra da yenə təşəbbüsü üzərinə götürüb. Ermənistanla sülh danışıqlarının məntiqi nəticəsinə çatması, ermənilərin türklərə qarşı bəslədikləri kini, nifrəti unudub regional inkişaf proseslərinin bir parçasına çevrilmələri üçün bütün imkanları dəyərləndirməyə çalışır. O cümlədən ermənilərdən yenə maşa kimi istifadə edib Cənubi Qafqazda vəziyyəti qarışdırmaq, regionu həmişə qan çanağı kimi saxlayıb burada öz geostrateji maraqlarını yeritmək istəyənlərin bu məkrli niyyətlərinin qarşısını alır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həm torpaqlarımızın azadlığına uzunmüddətli hazırlıq dövründə, həm hərbi əməliyyatların gedişində, həm də müharibədən sonrakı dövrdə olduğu kimi, bu məsələlərdə də sarsılmaz qətiyyət nümayiş etdirir. Bölgədə çirkli oyunlar oynamaq istəyən xarici güclərə sözünü açıq deyir. Onları belə əməllərindən əl çəkməyə, başqa xalqların işinə qarışıb sülh proseslərinə mane olmamağa çağırır. Bu məkrli oyunların heç bir nəticə verməyəcəyini, regionda əsas reallıqları diktə edən Azərbaycanın iradəsi xaricində bu torpaqlarda hər hansı bədxah planın reallaşmayacağını onlara anladır.

Dövlət rəhbərimiz regionda həqiqətən dayanıqlı sülh və təhlükəsizlik arzulayan bütün maraqlı tərəflərə əməkdaşlıq təklif edir. Bölgənin iqtisadi imkanlarını, kommunikasiya infrastrukturunu bu imkanlardan faydalanmaq niyyətində olan hər kəsin üzünə açır. Bu, ulularımızdan gələn yanaşmadır. Milli-mənəvi dəyərlərimizin təlqin etdiyi prinsiplərdir. Bunlar o dəyərlər, prinsiplərdir ki, əsrlərlə özünü doğruldub. Dünyanın ən müxtəlif məkanlarında dəfələrlə sübuta yetirib ki, sülhün, mehriban münasibətlərin, qarşılıqlı əməkdaşlığın, müştərək faydalar yaratmağın alternativi, müharibəninsə axırı yoxdur. Kin-küdurət, əbədi nifrət duyğusu fərdi də, bütövlükdə toplumu da kiçildir, cılızlaşdırır, insanlıq normalarından uzaqlaşdırır.

İnsanın xoşbəxtliyi, rifahı, çin olan arzuları barışdadır, qarşılıqlı hörmətdədir, keçmişin qaranlıq səhifələrini qapadıb gələcəyə yönəlməkdədir. Yeni sabahları yeni niyyətlərlə, işıqlı amallarla qarşılamaqdadır. Bu gün Azərbaycan sülh proseslərinə sadiqliklə, Ermənistanla sülhün əldə olunması üçün üzərinə düşənləri ən yüksək səviyyədə yerinə yetirməklə bütün dünyaya öz dəyərlərinə, prinsiplərinə nə qədər bağlı olduğunu göstərir.

Novruz bayramı Azərbaycan cəmiyyətində də faydalı adət-ənənələri yaşadır. Bu bayram ərəfəsində insanlar evlərində, təsərrüfatlarında abadlıq işləri aparır, baharın gəlişi ilə torpağın əkib-becərilməsinə başlayır. Novruz həm də milli birliyimizə xidmət göstərir. Xalqımızın milli adət-ənənələrinə görə, Novruz bayramında küsülülər barışır, qohumlar bir-birini ziyarət edib, bayram süfrələri açır. İnsanları bir-birindən uzaq salan vasitələrin əhəmiyyətli şəkildə həyatımıza daxil olduğu müasir texnologiyalar və qloballaşma dövründə bütün bunlar son dərəcə önəmlidir.

Novruz ölkəmizdə siyasi mədəniyyətin inkişafı üçün də müsbət təsirlər yaradır. Siyasi partiyaların rəhbərləri arasında qarşılıqlı bayramlaşma ənənələri ölkəmizdə yeni, mütərəqqi siyasi mədəniyyətin təşəkkülünü göstərir.

## Nəcib əməllər carçısı

Novruz təlqin etdiyi mənəvi-əxlaqi prinsiplərlə təkcə Azərbaycan xalqının deyil, ümumilikdə bəşəriyyətin mənəvi dəyəridir. Bəzən bu bayramın islamla əlaqələndirilməsi kimi yanlış yozumlar olsa da, onun dinlə birbaşa bağlılığı yoxdur. Əlbəttə, islam da bizim milli-mənəvi dəyərlərimiz sırasında xüsusi yer tutur. Amma Azərbaycanda və türk xalqlarının yaşadığı çox böyük bir coğrafiyada Novruz bayramının qeyd edilməsinin tarixi İslamın qəbulundan da əvvəlki dövrlərin faktıdır.

Novruz bu gün türk dünyasının əsas mərkəzlərindən biri kimi çıxış edən Azərbaycanın yüksək fəallığı, ardıcıl təşəbbüsləri sayəsində mühüm qlobal güclərdən birinə çevrilməkdə olan türkdilli ölkələr arasında çox mühüm mənəvi bağdır. Müştərək dəyərimiz kimi bu bayram doğmalığımızı daha da gücləndirir, ortaq keçmişimizdən ortaq gələcəyimizə işıq saçır.

Novruz bayramının ümumbəşəri mənəvi dəyər statusu qlobal səviyyələrdə öz rəsmi ifadəsini tapıb. Belə ki, 23 fevral 2010-cu ildə BMT Baş Assambleyasının 64-cü sessiyasının iclasında martın 21-i "Beynəlxalq Novruz Günü" elan olunub. 28 noyabr - 2 dekabr 2016-cı il tarixlərində Efiopiyanın Əddis-Əbəbə şəhərində keçirilmiş UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Hökumətlərarası Komitəsinin 11-ci sessiyasında İraq, Qazaxıstan, Tacikistan, Türkmənistan və Əfqanıstan da Novruz bayramı nominasiyasına qoşulub.

Novruzun beynəlxalq səviyyədə öz layiqli qiymətini almasında, bütün dünyada belə yüksək ehtiramla qəbul olunmasında ölkəmizin rolu çox böyükdür. Milli-mənəvi dəyərlərimizin qorunması, inkişaf etdirilməsi və bütün dünyada tanıdılması istiqamətində illərdir ardıcıl iş aparan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın böyük zəhməti sayəsində Novruz bayramı UNESCO tərəfindən Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ siyahısına daxil edilib.

Mehriban xanım Əliyevanın başqa milli-mənəvi dəyərlərimiz kimi Novruz bayramının təbliği istiqamətində apardığı işin həm önəmi, həm də uğuru bundadır ki, bu dəyərlər sadəcə söz olaraq yox, onlar nəcib əməllərlə, faydalı sosial-humanitar layihələrlə təqdim olunur. Məsələn, 2007-ci ilin Novruz bayramı ərəfəsində Mehriban xanımın təşəbbüsü ilə başlanmış "Hərəyə bir ağac əkək" kampaniyası bu gün də davam etdirilməkdədir. Kampaniya başlayandan sonra respublikanın bütün şəhər, rayon və qəsəbələrində vətəndaşlar, ayrı-ayrı idarə və müəssisələrin kollektivləri bu çağırışa səs verərək, yaşıllaşdırma kampaniyasına qoşulublar. Ətraf mühitin sağlamlaşdırılmasına, ekoloji problemlərin həllinə töhfə olan bu layihə çərçivəsində respublikanın bütün guşələrində yüz minlərlə ağac əkilib, yeni parklar və bağlar salınıb. Təkcə 2020-ci ildə - "Nəsimi ili"ndə Mehriban xanım Əliyevanın ideyası və təşəbbüsü ilə böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə bir gündə 650 min ağac əkilib.

Novruz bayramı xalqımızın böyük bir dəyəri kimi ədəbiyyatımızın, musiqimizin, xalq sənətimizin, milli mətbəximizin mərkəzindədir. Azərbaycanda və ölkə hüdudlarından kənarda yaşayan soydaşlarımız hər il bu bayramı böyük sevgi ilə qeyd edir, Novruz sevinci yeni nəsillərimizin təmsilçiləri üçün ömrün ən gözəl xatirələrindən birinə çevrilir və onların milli ruhda böyüyüb tərbiyə olunmasında, bu yurda, bu elə bağlılığında müstəsna rol oynayır. Nə qədər ki, Azərbaycan xalqı var, Novruz sevinci də həyatımızda var olacaq, aşıladığı yüksək mənəvi-əxlaqi keyfiyyətlərlə bəşəriyyətə böyük faydalar gətirəcək.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***




*Aida İMANQULİYEVA,*
*filologiya elmləri doktoru, professor*

*Ədəbiyyat, tarix, şərqşünaslıq sahələrində fəaliyyət göstərən alimlərimiz zaman-zaman Novruz mövzusuna üz tutmuş, onun dərinliklərinə varmağa çalışmışlar. Belə məqalələrdən biri də görkəmli şərqşünas alimimiz, professor Aida xanım İmanquliyeva tərəfindən 1991-ci ildə qələmə alınan "Novruz Şərq ölkələrində" adlanır. Yazıda təkcə Azərbaycanın deyil, bütün Şərqin, digər türk xalqlarının da Novruzu necə qarşıladıqları, qeyd etdikləri göstərilir.*

*Maraqlı məqalədir, həcmcə böyük olmasa da, məzmununda geniş məlumatlar var. Təbii ki, bu, alimin dərin araşdırmalar nəticəsində əldə etdiyi zəngin materialların təəssüratı ilə qələmə alınmış bir yazıdır, bir növ onun Novruz haqqında bilgilərinin qısa bir "annotasiyası"dır.*

*Təbiətin qış yuxusundan oyandığını və artıq baharın gəldiyini türk xalqları kiçik dəyişikliklə, bir-iki hərf fərqi ilə Novruz adlandırırlar. Aida xanım araşdırmalarına istinadən yazır ki, qırğızlar onu "nooruz", qazaxlar "novruz, nauruz", Krım tatarları "navrez", Kazan tatarları "neuruz", Balkan türkləri "nevriz" adlandırırlar və s.*



*"Türk xalqları arasında Novruz bayramının keçirilməsi məzmun etibarilə eyni olsa da, şəkilcə müxtəlifdir", - deyə alim bu qənaətə gəlir və bayramın ayrı-ayrı türk xalqları tərəfindən necə qeyd edildiyindən maraqlı məqamları diqqətə çəkir. Məsələn, uyğurlar bayram günü "kənd-kənd, oba-oba göy çəmənliklərdə, çay kənarında toplaşır, çalır, oxuyur, oynayırlar. Daş qazan deyilən böyük çənlərdə bayram aşı bişirilir".*

*Qaqauzlar çəmənlikdə toplaşır, bayramı güllərlə, çiçəklərlə qarşılayırlar. "Onları bolluq, sağlamlıq, xoşbəxtlik rəmzi kimi yaxın adamlarına bağışlayır, saçlarına taxırlar".*

*Novruzun dəyişməyən və onu əziz tutan xalqların demək olar ki, hamısının riayət etdiyi eyni adətləri də var. Bunlar gecə ilə gündüzün bərabərləşdiyi gündə ailəliklə süfrə başına toplaşmaq, tonqal qalayıb odun üstündən atlanmaq, xonça tutmaqdır. Aida xanım bunların hamısını bahar ətirli, xoş duyğularla qələmə alıb.*

*Əlavə etmək istədiyimiz isə yalnız budur ki, Novruzda həm də dünyasını dəyişmiş doğma və əziz insanları yad edirik. Bu hisslərə köklənərək və sözügedən adətimizə sadiq qalaraq bu gün unudulmaz alimimiz Aida İmanquliyevanı bir daha yada salır, onun "Novruz Şərq ölkələrində" adlı dəyərli məqaləsini oxucuların diqqətinə yenidən təqdim edirik.*

# Novruz Şərq ölkələrində

**Şaxtalı qışdan sonra təbiətin dirçəlişinin, ılıq baharın gəlişinin rəmzi olan Novruz bayramı qədim dövrlərdən Şərq xalqlarına yadigar qalan ən nəcib, xoş əhvali-ruhiyyəli, sevimli bayramlardan biridir. Bahar bayramı xeyirxah hisslərin, insani duyğuların, mərdliyin və dostluğun tərənnümü bayramıdır; ruzi bayramı, əmək bayramıdır; Novruz təmizlik, saflıq, gözəllik bayramıdır.**

Məhəmməd Əmin Rəsulzadə yazır ki, qədim İran rəvayətlərində Novruzun gəlişi Cəmşidin taxta çıxması ilə əlaqələndirilir. Guya Cəmşid dünyanın hər tərəfini gəzmiş, Azərbaycana gəlmiş, bu diyarı hər yerdən çox bəyənərək gündoğana baxan yüksək bir təpədə taxt qurdurmuş və tacqoyma mərasimini burada keçirmişdir. Günəşin şüaları şahın daş-qaşla bəzənmiş taxt-tacına, libasına düşüb nura qərq edib. Elə buna görə də şahın adının "Cəm" (Sultan, padşah) sözünün sonuna "şid" (pəhləvi dilində "şüa" deməkdir) əlavə olunub və bu əfsanəvi şah tarixə Cəmşid, yəni "Nur saçan padşah" adı ilə daxil olub. Həmin gün böyük bayram şənlikləri keçirilmiş və bu gün Yeni gün (Novruz) elan edilmişdir. Beləliklə, Novruz bayramı yeni günün, yeni ilin, yeni həyatın başlanğıcı bayramı olmuşdur.

Yaxın və Orta Şərqin bir çox ölkələrində bu bayram əziz və səbirsizliklə gözlənilən bir mərasim kimi qeyd edilir. Təbiətə sitayiş, təbiətin qış yuxusundan ayılması ilə bağlı olan Novruzun mərasimləri qədim tarixə malikdir və zaman keçdikcə bu mərasimlər şamanlıq, atəşpərəstlik, islam kimi dinlərin və etiqadların təsiri nəticəsində dəyişmiş, yeni-yeni elementlərlə zənginləşmişdir.

Yeni il - Novruz bayramı Mərkəzi Asiyadan Balkanlara qədər uzanan böyük bir ərazidə məskunlaşan bütün türk xalqları tərəfindən sevinclə qarşılanır. Keçirilmə günü müxtəlif olsa da, bunların hamısı Azərbaycanda "bayram ayı" deyilən və 20 fevraldan 21 marta qədər olan dövrü əhatə edən müddətə təsadüf edir.

İlin dəyişdiyini, baharın gəlməsini, təbiətin qış yuxusundan ayıldığını göstərən bu bayramın adı bu gün türk xalqları arasında müxtəlif şəkildə səslənir. Məsələn, qırğızlarda "nooruz", özbəklərdə "novruz", qazaxlarda "novruz, nauruz", uyğurlarda "noruz, novruz", azərbaycanlılarda "novruz, noruz, noyruz", Krım tatarlarında "navrez", Kazan tatarlarında "neuruz", Balkan türklərində "nevriz", Yuqoslaviya türklərində "sulatnı navrız", Kipr türklərində "mart dokuzu", Anadolu türklərində "Sultanı nevruz" (nevruz sultanı), "mart dokuzu, mart bozumu" və s.

Türk xalqları arasında Novruz bayramının keçirilməsi məzmun etibarilə eyni olsa da, şəkilcə müxtəlifdir. Bu baxımdan mərasimlərin keçirilməsini şərti olaraq üç əsas qismə ayırmaq olar: Mərkəzi Asiya, Ön Asiya və Şərqi Avropa.

Mərkəzi Asiya qisminə Qazaxıstan, Sibir, Altay və Şimal-Qərbi Çin türkləri - uyğurlar daxildir. Bu ərazidə bayram şənlikləri əsasən aşağıdakı şəkildə keçirilir: Bayram günü əhali kənd-kənd, oba-oba göy çəmənliklərdə, çay kənarında toplaşır, çalır, oxuyur, oynayırlar. "Daş qazan" deyilən böyük çənlərdə "bayram aşı" bişirilir. Bu yeməyə bəzən "gecə" də deyilir və əsasən buğdadan hazırlanır. Qaranlıq düşdükdən sonra tonqallar qalanır və üzərindən hoppanırlar. Bayram şənliklərinin əsas tərkib hissələrindən biri də at yarışları, "keçiqapdı" oyunudur. Bu günlərdə aşıqlar xalq qarşısında çıxış edir, Novruz mahnıları, "Ərgənəkon", "Manas" və başqa dastanlardan parçalar oxuyurlar.

Ön Asiya qisminə şərti olaraq Şərqi Anadolunu, Zaqafqaziyanı, Cənubi Azərbaycanı və Özbəkistanı daxil etmək olar. Bu ərazidə bayramın keçirilməsində İran ənənələrinin təsiri nəzərə çarpır. Lakin türk ənənələri üstünlük təşkil edir.

Bayrama hazırlıq bir ay əvvəl başlayır. Evdə, həyət-bacada səliqə-sahman yaradılır, bayram üçün yemiş tədarükü görülür, səməni buğdası isladılır, hər çərşənbə "üskü" - tonqallar qalanır. Dördüncü "üskü" axır çərşənbəyə təsadüf edir. Bu gün də bayram günü olduğu kimi, müxtəlif yeməklər hazırlanır, xonçalar qurulur. Bayram axşamı səhər tezdən hər kəs əzizinin, öz qohum-əqrabasının qəbrini ziyarət edir. Quran oxutdurur, məzarın ətrafını səliqəyə salır, ora bayram yemişi qoyur. Günortadan sonra şənliklər başlayır. Həmin axşam hər adam öz ailəsi ilə süfrə arxasına yığışır, müxtəlif yeməklər, şirnilər, yemişlər hazırlanır. Bayram xonçasının ətrafında ailə üzvlərinin sayı qədər şam yandırılır. Bayramın səhəri günü hamı təzə paltar geyinir, bir-birinin evinə qonaq gedirlər. Cavanlar dəstə-dəstə toplaşır, oxuyur, yallı gedirlər. Aşıqlar, kəndirbazlar, aktyorlar öz məharətlərini göstərirlər. Bu gün küsənlər barışmalı, heç kəs bir-birini incitməməlidir.

Bu bayram dövründə çoxlu oyunlar mövcuddur - Koskosa, qapı pusma, baca-baca, şal atma, suya üzük atma, xan oyunu və s. Bütün bu oyunlar baharın gəlməsi, təbiətin oyanması, yaz-tarla işlərinin başlanması ilə əlaqədardır.

Kosa oyunu oynayan cavanlar dəstə ilə evləri gəzir, oxuyur, oynayır, müxtəlif tamaşalar göstərir və bunun müqabilində ərzaq və şirniyyat toplayırlar. Sonra onlar birlikdə bu toplanan ərzağı yeyib şənlənirlər.

Ön Asiya və Şərqi Avropa ərazisinə daxil olan türklər - qaqauzlar, Krım, Bolqariya, Yuqoslaviya, Kipr türkləri və b. bahar bayramını müxtəlif şənliklər, oyunlar, mahnılarla qarşılayırlar. Hər bir kənd (Kiprdə isə bir neçə kənd) ya böyük bir meydanda, ya da kəndin kənarındakı çəmənlikdə bir yerə toplaşır, ümumi yemək mərasimi ilə bayramı qeyd edirlər. Bu ərazidə yaz çiçəkləri mühüm rol oynayır. Onları bolluq, sağlamlıq, xoşbəxtlik rəmzi kimi yaxın adamlarına bağışlayır, saçlarına taxırlar. Bayram münasibətilə yumurta boyayırlar. Bunların bir hissəsini ailə üzvlərinə, digər hissəsini isə bayramı təbrik etməyə gələn gənclərə, uşaqlara verirlər.

Novruz münasibətilə bişirilən yeməklər müxtəlifdir və əsasən məhəlli xarakter daşıyır. Məsələn, Krımda toyuq və toyuq şorbası, Yuqoslaviyada "karavay" adlı çörək, hörük şəkilli bulka, quzu budu və quru lobyadan hazırlanmış xüsusi xörək bişirilir. Süfrələri bayram xörəkləri və şirniyyat ilə bəzədilmiş evlərin qapıları bayram günləri bütün qonaqların üzünə açıq olur.

Novruz İran xalqlarının əsas bayramıdır. Rəsmi təqvimə görə, bu bayram həm də yeni ilin başlanğıcına - fərvərdin ayının 1-nə (21 marta) təsadüf edir.

İranda Novruzla bağlı ən mühüm mərasimlərdən biri "axır çərşənbə"dir (farsca: "Çəharşənbə-suri"). Bu mərasim ilin sonuncu çərşənbə gecəsi keçirilir. Həmin axşam uşaqdan tutmuş böyüyə qədər hamı tikan kollarını və odunu bir yerə toplayıb tonqal qalayır, deyib gülə-gülə odun üstündən o yan-bu yana atlanırlar. Hər dəfə tullananda tonqala müraciətlə deyirlər: "Mənim sarılığım sənə keçsin, sənin qırmızılığın mənə!" Bu proses tonqal sönüb qurtaranadək davam edir. Adətə görə, tonqalı söndürmək olmaz, özü yanıb qurtarmalıdır.

"Axır çərşənbə"nin maraqlı ünsürlərindən biri də "qulaq falı"dır. Belə ki, həmin axşam adamlar küçədə adətən dörd yol ayrıcında dayanıb niyyət edirlər və yol ötənlərdən eşitdikləri təsadüfi sözlər arasında bu niyyətin həyata keçib-keçməyəcəyini müəyyənləşdirirlər.

"Axır çərşənbə" axşamı kimin evində xəstəsi varsa, bir qab və çömçə götürüb evdən çıxır. Hər hansı bir qapıya yaxınlaşıb üzünü örtür, heç bir söz demədən çömçə ilə qapını döyür. Ev sahibi gərək çıxıb onun əlində tutduğu qaba yemək, ya pul qoysun. Qaba qoyulmuş yeməli şeyləri yığıb xəstəyə verirlər ki, şəfa tapsın.

İranda Novruz bayramına bir neçə gün qalmış hamı evini tökür, yəni xalça-palazı çıxarıb yaxşı-yaxşı çırpır, otaqları təmizləyir, şüşələri silir, mis qabları sürtüb ağardır, boşqablarda səməni əkir, güldanda nərgiz şitili basdırırlar.

Yeni il axşamı həyata keçirilən ən mühüm mərasimin adı "S" ("sin") hərfi ilə başlayan yeddi nemətin (farsca buna "həft-sin" deyirlər) süfrəyə düzülməsidir. Bunlar aşağıdakılardır: senced (iydə), sumaq, sirkə, sünbül, səbzi (göyərti), sir (sarımsaq) və səməni. Bu adətin kökləri islamdan əvvəlki dövrlərə gedib çıxır və yeddi mələyin adı ilə bağlıdır. Yeddi "sin"in düzüldüyü süfrənin başına güzgü qoyurlar. Güzgünün hər iki tərəfinə şamdanlar düzür və onlarda ailədə olan uşaqların sayı qədər şam yandırırlar. Bundan əlavə, süfrəyə aşağıdakı nemətlər də qoyulur: Quran, iri təndir çörəyi, üzərində yaşıl yarpaq olan bir kasa su, bir şüşə gülab. Bütün bu şeylərdən istifadə etməklə müəyyən edilmiş qaydada təzə il üçün fal açılır, niyyət edilir.

İl təhvil olduqdan sonra hər bir ailədə kiçiklər böyükləri təbrik etməyə gedirlər və böyüklər də onlara bayram hədiyyəsi verirlər. Novruzda küsülülər barışırlar, ədavətlər unudulur.

Novruz bayramında şirniyyatdan, meyvə və çərəzdən geniş istifadə olunur. İranlılar Novruz üçün özlərinə məxsus çərəz hazırlayırlar: püstə, badam, fındıq, balqabaq və yemiş toxumu, noxud bir yerdə qarışdırılıb qovrulur, sonra üzərinə duzlu su səpilir və yeyilir.

Ənənəyə görə, bayram 13 gün davam edir və bu müddət ərzində adamlar bir-birinin evinə qonaq gedir, bayram hədiyyələri aparırlar. Yeni ilin 13-cü günü xüsusi şəkildə qeyd olunur ki, buna "Sizdəh bedər" ("On üçün qovulması") deyilir. 13 rəqəmi nəhs sayıldığı üçün həmin gün hamı evdən çıxır, çəmənliklərdə, dağlarda, çay kənarlarında, meşələrdə gəzişir, yeyib-içir, şadlıq edir, müxtəlif musiqi alətlərinin müşayiəti ilə rəqs edirlər. Bu vəziyyət gecəyarısına kimi davam edir və yalnız bundan sonra camaat evlərinə dağılır. Beləliklə, 13-cü günün "uğursuzluğu" evlərdən "qovulur".

İranlılar yeni ili imkan daxilində mütləq təzə paltarda qarşılamağa çalışır, evdəki köhnə, çatlamış saxsı qabları sındırıb atır, yenilərini alırlar, ən fəqir ailələr belə bütün imkanlarını sərf edirlər ki, bayram süfrələri səliqəli və zəngin olsun.

Orta əsr ərəb tarixçisi əl-Məkrizinin "əl-Xitat" əsərində verdiyi məlumatlarına əsasən, Novruz bayramı Abbasilər xilafəti dövründə VIII əsrdən başlamış ərəb Şərqində yaz bayramı kimi qeyd edilməyə başlamışdır. Xəlifə əl-Məmunun (813-833) göstərişinə əsasən, Novruz bayramının keçirilməsi onun hakimiyyəti dövründə qanuni şəkil almışdır. Bəzi xəlifələr bu bayramın geniş şəkildə qeyd olunması üçün hər cür şərait yaradırdılar. Belə ki, Novruz bayramı günlərində camaat xəlifəni bayram münasibətilə təbrik edir, ona hədiyyələr gətirirdi.

Novruz bayramının ilk günlərində xalq içindən bir nəfəri "Əmiru-novruz" elan edib bayramı idarə etməyi ona tapşırırdı. Həmin adam üzünə un və ya əhəng çəkib qırmızı və ya sarı xələt geyinər, uzunqulağa minib şəhərin küçələrini gəzib varlılardan hədiyyələr toplayırdı. Novruz bayramı günlərində hər yerdə od yandırılır, adamlar bir-birinin üstünə su çiləyirdilər.

Bayram şənliklərində xəlifələr də yaxından iştirak edirdilər, xəlifənin sarayında qurulan bu şənliklər Orta əsrlərdə Qərbi Avropa ölkələrində keçirilən karnavalları xatırladırdı. Bu günlər xalqın müxtəlif təbəqələri xonçalar düzəldib saraya gəlir və xəlifəni, onun ailəsini təbrik edirdilər, xəlifə isə onlara hədiyyə, pul paylayarmış. Bu şənlikləri karnaval şənliklərinə yaxınlaşdıran cəhətlərdən biri burada iştirak edənlərin üzlərinin niqabla, maska ilə örtülü olması idi. 892-ci ildə hakimiyyətə gələn xəlifə əl-Mötədid bu mərasimi qadağan etmişdir. Belə bir qadağanın qəbul edilməsində ortodoksal din xadimləri də müəyyən rol oynamışlar. Onların fikrincə, bayram günləri od yandırmaq, su çiləmək zərdüştiliyin qalığı kimi qiymətləndirilirdi.

Müasir dövrdə Novruz bayramı Misir ərəbləri tərəfindən qarşılanır.

Misirdə yazın gəlişi "Şəmmuu-n-nəsim" - yaz və artım, məhsuldarlıq bayramı ilə bağlı müxtəlif mərasim və ayinlərin icrası ilə qeyd edilir. Misirli alim Əhməd Ruşdi Saleh tarixi mənbələrə istinad edərək göstərir ki, bu bayram öz genezisinə görə xain qardaşı Set tərəfindən öldürülmüş su və nabatat Allahı Ozirsin yenidən həyata qayıtması, dirilməsindən bəhs edən qədim Misir mifi ilə bağlı olsa da, sonrakı əsrlərdə daha geniş məna kəsb edərək yaz, məhsuldarlıq bayramı kimi qeyd edilmişdir. Qədim Misir fironları ilin bu fəslinə bağ-bağatlara, çəmənliklərə çıxıb Ozirsin gəlişini təbiətin oyanması kimi qarşılamışlar. Əhməd Ruşdi Salehin fikrincə, "Şəmmuu-n-nəsim" etimoloji cəhətdən qədim Misir dilində "şəmmu" - "qoxu duyma" sözünün yaz mənasında işlənməsi ilə bağlıdır.

"Şəmmuu-n-nəsim" bayramı günlərində misirlilər qayıqlara minib Nil çayında gəzintiyə çıxır, müxtəlif bayram xörəkləri bişirir, ziyafətlər düzəldirlər. Bu günlər bağ və çəmənliklər onların əsas gəzinti yerləri olub. Bu bayramı əsas etibarilə Misirin qədim yerli sakinlərindən olan qibtilər özlərinin fironlar dövründə təşəkkül tapmış Yeni il bayramı kimi qeyd edirlər. Ümumiyyətlə, bu gün milli Misir bayramı hesab olunur.

Novruz bayramı elə bir bayramdır ki, hər təzə il ona yeni bir təravət gətirir, ildən-ilə bayram mərasimləri yeniləşir, zənginləşir. Bayramın bir mərasimi isə onu qarşılayanların hamısı üçün dəyişməz qalır - bu, Novruzun "il təhvil olur" deyilən mərasimidir. Köhnə ilin yeni ilə keçdiyi, gecə ilə gündüzün tarazlaşdığı saat bütün ailə üzvləri bayram süfrəsinin ətrafına toplaşır və bayram xonçasında ailə üzvlərinin sayı qədər şam yandırılır - evə işıq, nur gəlir.

Xeyirxah niyyətlər, ülvi hisslər bayramı olan Novruz bayramınız mübarək olsun! Bu bayram hamının ocağına səadət, xoş günlər, əmin-amanlıq, yeni-yeni nailiyyətlər gətirsin.

# Xankəndidə və Xocalıda da bayram tonqalları qalanır

**Novruz bayramı bizim üçün əziz, doğma və sevimlidir. Biz bu bayramı ilboyu gözləyirik, hətta onu qarşılamaq üçün aylar əvvəl hazırlıqlara başlayırıq. Baxmayaraq ki, uzun illər taleyi ağrı-acılı olub, amma yenə də unudulmayan, yaddaşlardan qopmayan bir bayram kimi Azərbaycan tarixinə yazılıb.**

Dünyanın bir çox ölkəsi yazın gəlişini təbiətin canlanması ilə bağlamış, bu münasibətlə şənliklər keçirmişlər. Əsrlərdir Azərbaycan, İran, Əfqanıstan, Tacikistan, Özbəkistanda insanlar baharın, yəni yeni ilin gəlişini şənliklərlə qarşılayırlar. Martın 21-i İran və Əfqanıstanda rəsmi təqvimin ilk günü sayılır.

2009-cu il sentyabrın 30-da Novruz UNESCO tərəfindən qeyri-maddi mədəni irs siyahısına daxil edilmiş, 23 fevral 2010-cu ildə isə BMT Baş Assambleyasının 64-cü sessiyasının iclasında mart ayının 21-i "Beynəlxalq Novruz Günü" elan edilmişdir. Xüsusi qeyd edək ki, ölkəmizin mədəniyyət tarixində mühüm əhəmiyyət kəsb edən bu hadisə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü və ciddi səyləri, bu istiqamətdə apardığı gərgin fəaliyyəti nəticəsində baş vermişdir.

Azərbaycanda Novruz bayramı həm də dostluq, həmrəylik və yüksək mənəviyyat bayramı kimi qeyd olunur. Nə olursa-olsun, dünyanın harasında yaşamasına baxmayaraq hər bir azərbaycanlı Novruzun xoş əhvali-ruhiyyəsini, bayram sevincini, çərşənbələrin təbəssümünü, adət-ənənələrini yaşayır, bu duyğuların aurasından günlərlə çıxa bilmir. Novruz bayramı haqqında çox yazmaq olar, onun tarixi, adət-ənənələri, insanlara əxz etdiyi ruh yüksəkliyi haqqında istənilən qədər söz demək mümkündür. Novruz insanların qəlbini işıqlandırır, onları yaşamağa ruhlandırır. Ulu Öndər Heydər Əliyev Novruz bayramı haqqında deyib: "Novruz hər bir azərbaycanlının qəlbinin bayramıdır. Hər bir insanın, ailənin bayramıdır. Novruz dostluq, mehribanlıq, mərhəmət, mədəniyyət bayramıdır. Xalqın qəhrəmanlığını, rəşadətini, şücaətini nümayiş etdirən bayramdır. Novruz xalqımızı bir-birilə həmişə daha sıx birləşdirib, insanlarımız arasında mehribanlıq əlaqələri yaradıb, insanları bir-birinə dost edibdir".

Zəngin tarixi və rəngarəng folkloru özündə əks etdirən Novruz gələcəyə inam hissi aşılayır, insanları daha xeyirxah, daha mərhəmətli və mehriban, şən olmağa səsləyir. Bu bayram Azərbaycanda son 4 ildə daha gözəl, daha özəl qeyd olunur. 30 illik torpaq nisgilinə, yurd həsrətinə son qoyan böyük Zəfərdən sonra sanki Novruz da vüsala qovuşub. Bayram ötən il "Heydər Əliyev İli"ndə qarşılandı. Xalq öz böyük oğlunun əziz xatirəsinin və dühasının işığında Novruzu azad və müstəqil Azərbaycanın vətəndaşları olaraq qeyd etdi. Bu gün isə "Yaşıl dünya naminə həmrəylik ili"ndə Azərbaycan xalqı Novruz bayramı ilə qolboyundur. "Yaşıl dünya naminə həmrəylik ili" qarşımıza ətraf mühitlə, "yaşıl inkişaf"la bağlı yeni gündəlik qoymaqla yanaşı, həm də məsuliyyət "yük"ü ilə mükəlləf edib. Yaşıl təbiətin gözoxşayan, yaşam rəngidir. Novruz da yaşıllıqların torpaqdan baş qaldırdığı zamanda həyatımıza daxil olur. Nə xoş ki, "Yaşıl dünya" və Novruzun birgə yaratdığı al-əlvan ahəngi yaşayacağıq.

Bu il biz Novruzu son üç onilliyin ən yüksək təntənəsi, ən möhtəşəm qüruru ilə qarşılayırıq. Lokal xarakterli antiterror əməliyyatları nəticəsində Prezident İlham Əliyevin təbirincə desək, Azərbaycan öz dövlət suverenliyini tam təmin etdi. Qarabağ və Şərqi Zəngəzurda indi üçrəngli Azərbaycan bayraqları dalğalanır. Bu, böyük tarixi hadisədir: "Bu tarix bizim qəlbimizdə əbədi yaşayacaq. Azərbaycan xalqı, dünya azərbaycanlıları bu Zəfərlə bundan sonra əbədi fəxr edəcəklər". Məhz bu Zəfərin sevinci Novruz sevincinə qarışanda bir ayrı aləm olur, böyük ruh yüksəkliyi insanı qanadlandırır. Ulu Öndər hələ 1988-ci ildə demişdi: "Gün o gün olacaq ki, Novruz bayramını bir dəfə Şuşada, o biri il Laçında, o biri il Kəlbəcərdə, Ağdamda, Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda keçirəcəyik. Əminəm ki, belə də olacaqdır".

O gün gəldi - şəhidlərin qanı, qazilərin canı bahasına. O gün dörd ildir keçmiş məcburi köçkünlərin həyatını dəyişdi, baxışını formalaşdırdı. O gün Azərbaycan xalqının qüruruna möhür vurdu, ruhunu qanadlandırdı. O gün yurdsuzları azad olunmuş yurda doğru istiqamətləndirdi. Artıq Qarabağa və Şərqi Zəngəzura köç etmiş insanlar bu bayramı öz evlərində qeyd edirlər. Bu insanların illərlə üzərinə həsrət, nisgil qonmuş bayramları artıq sevgi ilə möhürlənib.

Dünən yataqxana, sanatoriya, yarımçıq tikili və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət bir qrup Füzuli sakini doğma evlərinə yollandı. "Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində baş tutan köç karvanı 34 ailəni Füzuli şəhərinə apardı. Yurd həsrətini Novruz sevinci ilə əvəzləyən 123 nəfər bu Novruzu yeni evlərində qeyd edəcəklər. Bundan gözəl sevinc, xoşbəxtlik, bundan dəyərli hiss daha nə ola bilər?

Bu Novruz bir ayrı Novruzdur. Bu Novruz Azərbaycanın son 30 illik tarixində təntənəsi, möhtəşəmliyi ilə seçilən bir Novruzdur. Bu Novruzda Şuşa ilə birlikdə Xankəndi, Xocalıda da bayram tonqalları qalanır...

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*






# Novruz ərəfəsi Milli Qəhrəman Əsgər Əliyevin xatirəsi anılıb

**"Vətən, ana torpaq uğrunda şəhid olanlar, doğma xalqına sədaqət nümunəsi göstərənlər heç vaxt unudulmur. Onların xatirəsi qədirbilən xalqımız tərəfindən xatırlanaraq daim ürəklərdə yaşayır". Bu fikirlər Azərbaycanın Milli Qəhrəmanı Əsgər Əliyevin anım günü ilə əlaqədar onun adını daşıyan Lənkəran şəhər mədəniyyət və istirahət parkında keçirilən tədbirdə səsləndirilib.**

Milli Qəhrəmanın ailə üzvlərinin, Lənkəran Şəhər İcra Hakimiyyəti (ŞİH) rəsmilərinin, hüquq-mühafizə orqanları rəhbərlərinin, müharibə və əmək veteranlarının, ictimaiyyət nümayəndələrinin iştirak etdikləri mərasimdə çıxış edən ŞİH-in başçısı Taleh Qaraşov şəhidin atası Ələkbər Əliyevə dərin hüznlə başsağlığı verərək, cəsur kursantın xatirəsinin həmişə xalqımız tərəfindən hörmətlə anıldığını, onun şərəfli ömür yolunun gənclərə örnək olduğunu bildirib.

Ələkbər Əliyev öz növbəsində övladının xatirəsinə göstərilən ehtirama, ailəsinə göstərilən diqqət və qayğıya görə minnətdarlığını bildirib.

Sonra tədbir iştirakçıları Milli Qəhrəmanın abidəsini ziyarət edib, önünə tər çiçəklər düzüb, ruhuna ehtiramlarını ifadə ediblər.

Qeyd edək ki, Əsgər Əliyev 1974-cü il noyabrın 8-də Lənkəranın Ləj kəndində anadan olub. 1982-1992-ci illərdə Ləj kənd və Haftonu qəsəbə orta məktəblərində təhsil alib. Daha sonra Bakı Ali Ümumqoşun Komandirlər Məktəbinin tank-artilleriya fakültəsində təhsilini davam etdirib.



1995-ci il martın 17-də Bakıda hakimiyyəti zorla devirmək cəhdi zamanı Əsgər Əliyev 4 yaralını xilas edərkən aldığı ikinci güllə yarasından dünyasını dəyişib. Doğulduğu kəndin qəbiristanlığında dəfn olunub.

Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli sərəncamı ilə Ə.Əliyev ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb.

***Ağaddin BABAYEV,***
***Lənkəran***

# Qürbətdə Novruzdan vətən ətri gəlir

**Tələbəlik illərindən yaddaşımızda qalan ən gözəl xatirələrdən biri də 50 il əvvəl, 1974-cü ildə Moskva şəhərində keçirdiyimiz Novruz bayramıdır. O zaman bu, bizim üçün adi bir tədbir olsa da, aradan illər keçdikcə ən müqəddəs xatirələrdən birinə çevrildi və yaddaşımıza ən gözəl bayram kimi əbədi həkk olundu. Hərdən tələbə yoldaşlarımızla yığışıb xatirələri vərəqləyəndə, 1974-cü ilin Novruzunun bizim üçün nə qədər əziz olduğunu sidqi-ürəkdən etiraf edirik.**

O illərdə Moskva Energetika İnstitutunda azərbaycanlı tələbələrin sayı, demək olar ki, Rusiyanın digər ali təhsil məktəblərində oxuyan həmyerlilərimizin sayından çox idi. Belə ki, burada energetika, elektronika ilə bağlı nadir peşələr var idi. Ona görə də oraya Azərbaycandan oxumağa daha çox tələbə göndərirdilər. Həm də demək olar ki, əksəriyyətimiz Bakıda Azərbaycan dilində imtahan verib Moskvada rus dilində oxuyurduq. Ona görə də çoxumuz rus dilini zəif bilirdik. Hətta Moskvada bizim üçün ayrıca rus dili dərsləri də təşkil etmişdilər.

Dili bilsək də, bilməsək də, içimizdə bir vətən sevgisi var idi. Moskvada təhsil almaqdan qürur duyur, bu, mümkün olmasa da, çalışırdıq ki, yaxşı oxuyaq. Ruslara qaynayıb-qarışmaqla yanaşı, milli-mənəvi dəyərlərimizi uca tuturduq. Ona görə də qış tətilindən qayıdandan sonra beynimizə dolan yaz havasından təsirlənib Novruz bayramını keçirməyi qərara aldıq. İnstitutun böyük yeməkxanalarından münasibini seçib rektorluğa ərizə ilə müraciət etdik ki, Novruz bayramını keçirməyə icazə versinlər. Keçən əsrin 70-ci illərində bu bayramın hətta Azərbaycanda belə rəsmi qeyd edilmədiyi, həm də bir qədər sıxışdırıldığı yəqin ki, hamının yadındadır.



Ona görə ağlımıza o da gəlirdi ki, bəlkə bayram keçirməyimizə icazə verməyəcəklər. Amma gözlədiyimiz kimi olmadı. Ərizəmizə heç bir şeyi soruşmadan, dəqiqləşdirmədən gözübağlıca qol çəkdilər. Bizə qəribə gələn o idi ki, Azərbycanda uzun illər qadağa qoyulan Novruz bayramının Moskvada keçirilməsi heç kim üçün ciddi məsələ deyildi. Bizə heç kim demədi ki, bu bayram Azərbaycanda uzun illər boyu "yada salınmayıb" və ona həmişə bir qədər siyasi don geyindiriblər.

Sevincimizin həddi-hüdudu yox idi. İcazə aldıqdan sonra tədbirimiz maraqlı olsun deyə özümüz ssenari yazmağa başladıq. Bakıdan bayram süfrəsi üçün Novruz şirniləri və yaz çiçəkləri sifariş etdik. Bundan başqa həm də Moskvada digər institutlara da xəbər göndərdik ki, iştirak etmək istəyənlər gəlsinlər. Ssenarini hazırlayıb MDU-nun Jurnalistika fakültəsinin tələbələrinə məclisi aparmaq üçün verdik. Hamımız çalışırdıq ki, tədbirimiz yüksək səviyyədə keçirilsin, bayramımız gözəl və unudulmaz olsun. Zalda isə işıqları söndürüb masaların üstünə Novruz şamlarını düzdük.

*Gəlin uzaq edək qüssəni, qəmi,*
*Biz insan qəlbinin dərinliyindən.*
*Dostlarım, ürək də fikir çəkərmi,*
*Bizim ellərə bahar gələrkən?!*

Bayramı bu misralarla başladıq və hamının qəlbinə yatan bənzərsiz gecə keçirdik. Moskvanın digər ali məktəblərindən gələnlər də çox oldu.

Masaların üstündə içki yox idi. Hamı bir ağızdan demişdi ki, bu bayramda içki içilməsi günahdır. Bir-iki xristian qonağımız isə mat qalmışdı ki, bu necə bayramdır ki, süfrədə bir qram içki yoxdur!

Biz adət və ənənələrimizə ecazkar vətən sevgisi bəslədik. İçimizdə oyanan milli ruhun qüruru bayraq kimi hamımızın başı üstündə dalğalanırdı.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Lənkəranda Novruz festivalı keçirilib






**Lənkəran Şəhər İcra Hakimiyyəti (ŞİH) və Lənkəran Regional "ASAN xidmət" Mərkəzinin birgə təşkilatçılığı ilə "Asançıların Novruz Festivalı" keçirilib.**

Lənkəran Regional "ASAN xidmət" Mərkəzinin həyətində keçirilən tədbirdə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Xidmətinin sədri Ülvi Mehdiyev, ŞİH başçısı Taleh Qaraşov, respublika üzrə "ASAN xidmət" mərkəzlərinin rəhbərləri və yerli ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Ü.Mehdiyev və T.Qaraşov bayram tonqalını yandırdıqdan sonra qonaqlar Lənkəran rayonun mədəniyyətini, tarixini, adət-ənənələrini özündə əks etdirən sərgi ilə tanış olublar, yerli mədəniyyət klublarının hazırladıqları milli rəqsləri, folklor nümunələrini, məktəbli uşaqların hazırladıqları idman nömrələrini izləyiblər. Qeyd edək ki, tədbirdə Lənkəranda istehsal edilən kənd təsərrüfatı və yüngül sənaye məhsullarından ibarət ayrıca stend, eləcə də "ASAN xidmət" Mərkəzinin yerləşdiyi rayonların yerli mədəniyyət, kulinariya və folklor nümunələrindən ibarət sərgi də nümayiş olunub.

Festivalın rəsmi hissəsində Ülvi Mehdiyev çıxış edərək Novruz bayramının tarixi barədə danışıb, onun uzun illər keçirilməsinə olan qadağalardan bəhs edib, eyni zamanda bildirib ki, milli bayramımızın açıq və heç bir qadağa olmadan qeyd olunması Ulu Öndərin adı ilə bağlıdır. "Artıq ənənə halını alan "Asançıların Novruz Festivalı" da məhz milli mədəniyyətimizi, dəyərlərimizi təbliğ etmək məqsədini qarşıya qoyub və hər il bir rayonda keçirilir", - deyə Ü.Mehdiyev bildirib.

Bu il keçirilən Novruz bayramını əvvəlki illərdən fərqləndirən xüsusiyyətləri barədə danışan Taleh Qaraşov isə çıxışında söyləyib ki, ilk dəfədir milli bayramımızı suverenliyi tam bərpa olunan, müstəqil və qalib dövlət kimi bütöv Azərbaycan ərazisində qeyd edirik. Daha sonra natiq bu ilin lənkəranlılar üçün uğurlu başladığını vurğulayıb. Bildirib ki, Lənkəran Regional "ASAN xidmət" Mərkəzi dövlət başçısı İlham Əliyevin bu ilin əvvəlində Lənkəran rayonuna etdiyi səfər zamanı istifadəyə verilib: "Lənkəran 2024-cü ili ölkəmizin "Gənclər paytaxtı", eləcə də "Türk dünyasının gənclər paytaxtı" kimi qeyd edir. Bütün bunlar Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın lənkəranlılara göstərdikləri diqqət və qayğının nəticəsində mümkün olub".

Tədbir konsert proqramı ilə davam edib.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***



# Çövkən oyunu mübarizlik və məğlubedilməzlik rəmzidir

**İdman yarışları iştirak edən mübarizlərin çəldliyi, çevikliyi ilə ta qədimdən insanların diqqətini özünə cəlb edib. Atların iştirakı ilə olan yarışlar isə daha maraqla qarşılanıb. Keçirilən oyunların hədəfi iştirakçılar arasında ən güclü, ən çevik olanını və ən başlıcası, atla mükəmməl qarşılıqlı anlaşmanı tapa bilən idmançını aşkar etmək olub. Azərbaycan hələ qədim zamanlardan atçılığın inkişaf etdiyi ölkələrdən biridir. At üstündə milli oyunlardan biri olan çövkən (bu oyunun adı "çovqan", "çövkan" və "çövkən" kimi də yazılır) hələ eramızdan əvvəl yaranıb və nəsillərdən-nəsillərə keçərək, zəmanəmizə qədər yol gəlib.**



Çövkən ən çox Novruz bayramında və digər el şənliklərində təşkil olunurdu və ta qədimdən kübarların oyunu hesab edilirdi. Oyunçular yarış zamanı uzunluğu 1,5 metr olan "klyuşka"larla (çövkənlər) kiçik taxta topu rəqibin qapısına vurmağa çalışırlar. Bunun üçün xüsusi olaraq öyrədilmiş atlardan istifadə edilirdi. Çövkən yarışlarına şah ailəsinin nümayəndələri də qatılırdılar. Təəccüblü deyil ki, çövkən bütün dünyada geniş yayılmış, "şahların oyunu və oyunların şahı" sayılan müasir polo oyununun əcdadı hesab edilir.

Çövkən IX-XVII yüzilliklərdə Azərbaycanda geniş yayılmış, əsasən at üstündə, qismən atsız oynanılan qədim oyun və bu zaman istifadə olunan ucu əyri uzun dəyənəyin adıdır. Musiqinin müşayiəti ilə keçirilən bu oyunda atları rəng etibarilə bir-birindən fərqli olan hər dəstədə 6-8, bəzən isə daha çox atlı iştirak edirdi. Oyunda əsas məqsəd dəyənəklə rəqib qapısına top vurmaq idi.

"Çövkən" sözünün bir neçə mənası var. Bu oyunun adı türk mənşəli "çovutmaq" və "cövlan" sözləri ilə bağlıdır. "Çovutmaq" sözünün bir mənası - əl ağacını yelləyərək vurmaq, digər mənası - boran, tufan kimi izah edilə bilər. Yəni çaparın hərəkətləri "yaxınlaşan tufan" kimi olmalıdır. "Cövlan" sözünün mənası isə atın oynaya-oynaya çapması deməkdir. Oyunun adının müxtəlif şəkildə tələffüz edilməsi həm bu oyunun qədimliyi, həm də Azərbaycanın regional dialektləri ilə bağlıdır.

Çövkən oyunu "Kitabi-Dədə Qorqud" eposunun boylarında da tez-tez xatırlanır. Dahi Azərbaycan şairi Nizami Gəncəvinin "Xosrov və Şirin" poemasında bu oyunun təsvirinə geniş yer verilmişdir. Əsərin qəhrəmanları Xosrov və Şirin çövkən oynayırlar:

*Şirinə dedi ki: "Gəl, at çaparaq,*
*Bu geniş düzəndə çövkən oynayaq".*
*Xosrovun çövkəninə top atdılar.*
*Gözəllər səs-küyə at oynatdılar...*
*Topa yel əlindən vuranda çövkən*
*Günəşin topunu salırdı tovdan.*

Bu isə onu göstərir ki, oyunu həm kişilər, həm də qadınlar oynayırmışlar. Qədim Azərbaycan miniatürlərində bu oyunun səhnələrinin çoxsaylı təsvirləri, ilk yazılı mənbələrdə onun qaydaları və inkişafı çövkənin qədim Azərbaycan oyunu olduğunu göstərən daha bir sübutdur.

Çövkən oyunu iştirakçılardan şəxsi bacarıqla yanaşı, həm də yaxşı at sürməyi, manevrlər etməyi və diqqətli olmağı tələb edir. At ortaboylu, möhkəm bədən quruluşlu, cəld və gözəl olmalı, vəhşi və aqressiv olmamalıdır. Bu baxımdan Qarabağ atları çövkən oyunu üçün ideal dərəcədə münasibdir. Oyun təxminən 200 x 120 metr ölçülü, ot örtüklü hamar meydançada keçirilir. Çövkən oyununu qapıçı ilə də oynamaq mümkündür. Bu halda qapıların eni 7 metr, cərimə xəttinin uzunluğu isə 4 metr olur.

Oyunda iştirak edənlər hərəsi 5-6 oyunçudan ibarət olan iki komandaya bölünür. Bir oyunçu və onun atı ehtiyatda saxlanılır. Oyunçuları bir-birindən fərqləndirmək üçün hər komandanın oyunçuları müxtəlif rəngli formalar geyinirlər.

Oyun meydanın mərkəzindən başlanır və vurulmuş hər qoldan sonra oyunçular yenidən həmin yerə gəlirlər. Matç hər biri 15 dəqiqə olmaqla iki hissədən ibarət olur və hissələr arasında 10 dəqiqə fasilə verilir. Fasilədən sonra komandalar qapıları dəyişirlər.

Oyunçular milli forma - papaq, çuxa, atın belində rahat oturmaq üçün geniş balaqlı şalvar, yüngül ayaqqabı geyinirlər. Onlar yüngül ağacdan hazırlanmış eyni uzunluqlu çomaqlardan istifadə edirlər.

2013-cü il dekabrın 3-də Bakıda UNESCO-nun Qeyri-Maddi Mədəni İrsinin Mühafizəsi üzrə Hökumətlərarası Komitəsinin 8-ci sessiyasında Azərbaycanda Qarabağ atları üstündə keçirilən ənənəvi çövkən oyunu Təcili Qorunmaya Ehtiyacı Olan Qeyri-Maddi Mədəni İrsin Siyahısına daxil edilib. Əsrlərlə yaşı olan bu oyun xalqımızın çox qiymətli milli-mənəvi sərvətlərindən biridir.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# Novruzun tonqal sevinci

**Azərbaycan xalqı hər zaman odu müqəddəs bilib. Əcdadlarımız soyuqdan, şaxtadan donmaqdan xilas olmaq, qaranlıq gecələrini işıqlandırmaq, məişətdə istifadə etmək üçün ona böyük ehtiyac duyublar. Ancaq xalqımızın həyatında odun rolu, mənası bunlarla sərhədlənmir. Bu xalq üçün od həm də ocaq, ailə, birlik, bərabərlik, xoşbəxtlik deməkdir.**

Qədim zamanlardan ulularımızı od-ocaq yaşadığı yurda, obaya bağlayıb. Bir sıra mənbələrdən məlumdur ki, əcdadlarımız ocaq qarşısında səcdəyə duraraq oyun və ayinlər təşkil ediblər. Qobustan qayaüstü rəsmlərindəki ocaq ətrafında "yallı" gedən insan təsvirləri bu faktları təsdiq edir.

Xalqımız qədimdə dağ başında, hündür yerlərdə qaladığı tonqalla hisslərini ifadə edib. Eyni zamanda bir-birlərinə işarə də veriblər. Tonqalın sayına görə şad, sevincli olanda şənlənməyə, dara düşəndə, düşmənin hücumuna məruz qalanda isə müdafiə olunmağa toplaşmaq üçün xəbər göndəriblər. Soydaşları, dostları uzaq məsafələrdən bu odu, ocağı görüb həmin obanın, elin vəziyyətini öyrənə biliblər, ya onlarla birlikdə şadlıq etməyə, ya da köməyə gəliblər.

Yaradılışın mərhələlərini əks etdirən dörd ünsürdən biri oddur. Mərasimlərlə zəngin olan Novruz bayramında tonqal qalanmasına xüsusi diqqət yetirilir.

Qədim zamanlarda Novruzda tonqalı adətən hündür yerdə - dağ, təpə başında yandırardılar. Tonqalın başına yığışırdılar. İnanca görə, Novruz tonqallarının ətrafına yığışanda pis, bədbin sözlər söyləmək olmaz, deyib-gülmək, xoş sözlər demək, dualar etmək lazımdır.

İnanca görə, od qara qüvvələri məhv etməyə qadirdir. Bayram tonqalının həyət qapısının ağzında qalanması da bu düşüncədən irəli gəlib. Həyətə gələnlərin özləri ilə ağırlıq, pis niyyət gətirə bilməmələri üçün belə ediblər.

Hesab edirlər ki, Novruz tonqallarını yaş ağacdan yandırmaq olmaz. Ulularımızdan gələn inanca görə, yaş və acı tüstülü ağacdan tonqal qalayan adama sədəmə toxuna bilər. Adətən tonqal quru odun, kol-kos, ya da çırpıdan, tikandan hazırlanmalıdır. Araşdırıcıların qənaətinə görə, qədimdə insanlar inanırdılar ki, şər qüvvələr qaratikanın batmasından qorxub tonqala yaxın gəlməzlər. Bəzi bölgələrdə tonqala üzərlik də atırlar. İnanırlar ki, bununla bədnəzərdən qoruna bilərlər.

Adət-ənənəyə görə, Novruzda insanlar tonqal qalayıb, üç dəfə odun üstündən atılır və oxuyurlar:

*Ağrım-uğrum tökülsün,*
*Oda düşüb kül olsun,*
*Yansın Alov saçılsın,*
*Mənim bəxtim açılsın.*

Bəzi bölgələrdə isə "Ağırlığım, azarım-bezarım odda yansın" deyə-deyə odun üstündən üç dəfə tullanır, bununla azar-bezarlarını, bəd nəzərləri, pislikləri, şər qüvvələri oda atıb yandırdıqlarına, xəstəliklərdən xilas olduqlarına inanırlar.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

## BAHAR

*Novbahar oldu, günəş şöləlönib nur saçır,*
*Qar ərir, sellər axır, ot göyərir səhradə.*
*Yeni çıxmış gülə baxdıqca da bülbül dil açır,*
*Gül budağına qonub nəğmə oxur azadə.*

*Dərələr, dağlar, ağaclar yaşıl, əlvan hər yan,*
*Sərbəsər xələti-ətləslə bəzənmiş gülşən,*
*Bu nə qüdrət ki, ona olmamaq olmaz heyran!*
*Xaliqin qüdrəti-bihəddinə əhsən, əhsən!*

*Ah, yellər nə həzin, fikr elə, san ney çalınır,*
*Hanı bəs qışdakı evlər uçuran qüdrətiniz?*
*İndi gör əsməyinizdən nə gözəl zövq alınır!*
*Unudulmuş o sudan qar yaradan hiddətiniz.*

*Bağa bax, bostana bax, bağçaya bax, gülləri gör,*
*Gülü gör, bülbülü gör, zövq apar dünyadən.*
*Xaliqin qüdrətini bil, bu yaranmışları gör,*
*Yatma, dur bax, götür əl qəfləti-bipərvadən!*

*Cəfər CABBARLI*



# Ağalı sakinləri İlaxır çərşənbəni qeyd ediblər






Zəngilan rayonun Ağalı kəndində Novruz bayramı münasibətilə bayram tədbiri təşkil olunub.

AZƏRTAC xəbər verir ki, İlaxır çərşənbədə bayram tonqalı qalanıb və musiqiçilərin iştirakı ilə konsert keçirilib.

# Füzuli şəhərində bayram şənliyi olub




**Uzun illər düşmən tapdağı altında qalan qaranlığa qərq olan yurd yerlərimiz artıq azadlığının baharına qədəm qoyub. Novruzun gəlişi bu il digər bölgələrdə olduğu kimi, Qarabağda da doğma sakinləri tərəfindən qeyd edilir. Füzuli sakinləri də Novruzu öz doğma elində böyük coşqu ilə qarşılayırlar.**

AZƏRTAC xəbər verir ki, Füzuli şəhərində İlaxır çərşənbə olan Torpaq çərşənbəsinin tonqalı qalanıb. Pəhləvanların və kəndirbazın çıxışları maraqla qarşılanıb. Qədim məişət əşyaları, kilim və xalçalar, digər sənət nümunələri sərgilənib. Milli geyimdə olan gənclər cəngi sədaları ilə Qarabağ atlarının belində Azərbaycan bayrağını dalğalandıraraq meydana gəliblər. Kosa və Keçəlin duzlu-məzəli söhbətləri insanların gülüşünə səbəb olub.

Çıxışlarda hər bir ailəyə ruzi-bərəkət, sevinc arzulanıb. Bildirilib ki, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə parlaq qələbəyə nail olan ordumuzun sayəsində torpaqlarımız işğaldan azad edilib və artıq Novruz ölkəmizin hər yerində qeyd olunur. Həmçinin çıxışlarda düşmən tapdağından azad olunan rayonlarda aparılan tikinti-quruculuq işlərindən danışılıb.

Şənliyə gələn Bahar qız təbrikini çatdırıb. Bayram şənliyi incəsənət ustalarının konsert proqramı ilə davam edib.

# Yaşıl donlu, qırmızı qurşaqlı...

Yurdumuza yaz gəlir!

Ağappaq qar altından sapsarı novruzgülü çiçəyi, kol dibindən gömgöy bənövşə boy göstərir. Gün vurduqca sinəsindən buğ qalxan ana torpağın qırışığı açılır. Ağaclar tumurcuq tutur, çöllər, düzlər ilmə-ilmə, naxış-naxış yaşıl don geyir. Qaranquş təzəcə puçurlayan budağa qonub nəğmə oxuyur.

Təbiət oyanır, təbiət canlanır. Hər səhər dan yerində Günəş qırmızı tonqal qalayır. Havalar isindikcə hər yerdən yazın ətri gəlir. Dağlarda buz bağlamış çaylar, şəlalələr əriyərək sazlı-sözlü aşığa çevrilir, qönçələr, çiçəklər yavaş-yavaş açmağa başlayır. Dolan buludlardan səpilən yaz yağışları düz-dünyaya nur ələyir, göylər yeddi rəngli xalı toxuyur. Hər yerdə yazın qədəmləri duyulur. Bir də boşqablarda cücərdilən qırmızı qurşaqlı səməni!

Bütün ağaclardan əvvəl çiçək açan zoğal və badam, bütün quşlardan əvvəl gələn qaranquş baharın müjdəçisi hesab olunduğu kimi, balaca boşqablarda, nəlbəkilərdə cücərdilən yamyaşıl səməni də eyni dərəcədə yazın gəlişindən soraq verən əlamət sayılır.



Səməninin yazın simvolu seçilməsi tamamilə təbiidir. Səməni oyanış, təzəlik, dirilik rəmzidir. Harada yaşıllıq varsa, orada təzəlik, oyanış, dirilik var. Dirilik olan yerdə isə həyat var.

Ana təbiətdə hər rəngin öz yeri, öz mənası var. Lakin yaşıl rəng hər yerdə oyanış və təzəlik, paklıq və duruluq əlaməti hesab olunur. Necə ki, ana təbiət öz qüdrətli fırçası ilə düz-dünyanı ala-yaşıla, ipəyə-tülə bürüyür, o cürə də insana qaynarlıq və gənclik həvəsi gətirir. Bahar damarımızdakı qanın qaynamağı, könlümüzdəki duyğuların canlanmasıdır.

Yaşıl meşə, yaşıl çəmən, yaşıl düz... İnsan oğlu nədən bezsə də, təbiətin yazda açdığı bu yaşıl sərgini seyr etməkdən yorulmur. Əbəs yerə deyil ki, İslam peyğəmbəri göz nurunu qorumaq üçün yaşıl rəngə çox baxmağı məsləhət görərdi. Natural təbabətdə təzə cücərdilən buğda dənələrini yemək cavanlıq və təravət mənbəyi olduğu söylənilir. Xüsusi qaydada hazırlanan səməni da tibbi cəhətdən əhəmiyyətli hesab edilir.

Desək ki, yazda təbiət yaşıl bir nəğmə oxuyur, yəqin ki, heç bir mübaliğəyə yol vermərik. Dağların, çöllərin, düzlərin, çayların, bulaqların oxuduğu bu nəğmənin bəstəçisi də, ifaçısı da, dinləyicisi də təbiət özüdür. Bu nəğmənin bir parçası da hər il yazağzı boşqablarda göyərdilib evin ən görkəmli yerinə qoyulan səmənidir. Səməni bahar, həyat, gözəllik deməkdir. Əbəs yerə qız-gəlinlər göyərtdikləri səmənini oxşaya-oxşaya oxumurlar ki:

*Səməni, saxla məni,*
*İldə cücərdərəm səni...*




# Laçınlılar Novruz bayramını doğma yurdlarında yüksək əhvali-ruhiyyə ilə qarşılayıblar






**Uzun illər sonra doğma yurdlarına qayıtmış Laçın sakinləri İlaxır çərşənbəni böyük coşqu ilə qeyd ediblər. Həkəri çayının kənarında təşkil edilən bayram tədbirində həm də "Can Laçın" adlı Novruz yarmarkası təşkil olunub.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Prezidentinin Laçın üzrə Xüsusi Nümayəndəliyi, Bakı Abadlıq Xidməti MMC və Mədəniyyət Nazirliyinin birgə təşəbbüsü və təşkilatçılığı ilə keçirilən bayram tədbirində rəsmi şəxslər, Laçın sakinləri, Laçının tikinti və abadlıq işlərində çalışanlarla bərabər qonaqlar da iştirak edib.

Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyinin rəsmisi Hüseyn Quliyev və "Laçın Abadlıq Xidməti" MMC-nin direktoru Nəsimi Əsədov çıxış edərək laçınlıları Novruz bayramı münasibətilə təbrik edib, ən xoş arzularını çatdırıblar.

"Can Laçın" yarmarkasında həm Laçında ərsəyə gələn məhsullar, həm də respublikanın müxtəlif bölgələrindən gəlmiş sənətkarların əl işləri sərgilənib. Yarmarkaya usta Hüseyn Hacı Mustafazadə dünyada məşhur şəbəkələri ilə, Aqil Kərimov milli üslubda hazırladığı papaqlarla, usta Zahid Vəlǝdov milli musiqi alətləri ilə, xalq yaradıcılığı üzrə mütəxəssis Elnarə Rəsulova şəxsi kolleksiyası ilə qatılıblar. Bundan başqa, yarmarkada "Gilabi Ceramics", "İslimi", "Zili", "Darayı" milli brendlərinin məhsulları da sərgilənib. Laçın torpağında becərilən kənd təsərrüfatı məhsulları, laçınlı xanımların əl işləri və şirniyyatlar, "Zerti Aqrosənaye" kompleksinin məhsulları da yarmarkada yer alıb.

Bayram tədbirində milli adətlərimizə uyğun müxtəlif əyləncəli proqramlar nümayiş olunub. Novruzun personajları olan Kosa və Keçəl "İsma Bikes"in istehsalı olan velosipedlərdə bayram tədbirinə gəliblər. Bayram tədbirində hədiyyəli müsabiqələr və yarışmalar da təşkil edilib. Kosa bayram iştirakçılarının adları yazılan kağız parçalarını öz xurcununa yığıb və müsabiqədə adları çıxan beş nəfərə "İsma Bikes"in velosipedləri hədiyyə olunub.

Kosa və Keçəl tapmacalar deyib, yumurta döyüşdürüblər. Bayram tədbirində respublikanın tanınmış incəsənət ustalarının, Laçın rayonundan olan aşıqların, Dövlət Mahnı Teatrının, Beynəlxalq Muğam Mərkəzinin solistlərinin iştirakı ilə rəngarəng konsert proqramı təqdim olunub.

Bayram tədbirində Novruz tonqalı alovlandırılıb, iştirakçılar "Yallı" və şən musiqi sədaları altında rəqs ediblər.

Bayram tədbirində iştirak edən Laçın sakini Sevil Ağayeva AZƏRTAC-a təəssüratını bildirib: "32 il Vətənimizdən, doğma yurdumuzdan kənarda yaşamaq məcburiyyətində qaldıq. Biz cənnətdən qovulmuşlar idik. İndi cənnətimizə qovuşmuşuq. Özümü dünyanın ən bəxtəvəri hesab edirəm ki, Laçınıma qayıtmışam. Əziz bayramımız Novruzun belə yüksək səviyyədə qeyd olunması ürəyimi dağa döndərir. Sevincimdən ürəyim sinəmə yerləşmir. Prezidentimizə cansağlığı arzulayıram. Allah şəhidlərimizə rəhmət eləsin".

Orxan Əhmədov isə deyib: "30 ildən artıq müddətdə Ağcabədidə məskunlaşdıq. Bu illər ərzində ən böyük diləyimiz Laçınımıza qayıtmaq, bayramlarımızı burada keçirmək olub. Bu gün arzularımız reallaşıb. Doğma yurdumuza qayıtmışıq. İlaxır çərşənbəni yüksək əhvalla qeyd edirik. Buna görə sevincimizin həddi-hüdudu yoxdur".

Qeyd edək ki, "Can Laçın" yarmarkası ilk dəfə Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təşkil olunub.

# Baharın gəlişini azsaylı xalqlar da təntənə ilə qeyd edirlər



**Novruz Azərbaycan xalqının zəngin maddi və mənəvi dəyərlərinin mühüm bir hissəsini özündə ehtiva edən mədəniyyət hadisəsidir. Ölkəmizdə yaşayan azsaylı xalqlar, o cümlədən Axıska türkləri də Novruz bayramını bizimlə birlikdə "hamımızın bayramıdır" deyə yüksək əhvali-ruhiyyə ilə qeyd edirlər. Odur ki, "Novruz"un tərkibi quruluşca mürəkkəb, məzmunca dərin və genişdir.**

Xatırladaq ki, sovet lideri Stalin tərəfindən 1944-cü il noyabr ayının 14-də Axıska türkləri öz tarixi torpaqlarından yük vaqonlarına doldurularaq keçmiş SSRİ-nin müxtəlif ərazilərinə, xüsusən də Mərkəzi və Orta Asiya ölkələrinə sürgün olunublar. 1959-cu ildən etibarən onlar müxtəlif respublikalara köç ediblər. O cümlədən Gürcüstana və Azərbaycana gələnlər də çox olmuşdur. Onların Şəmkir, Quba, Xaçmaz, Saatlı, Sabirabad, Şabran və digər bölgələrdə toplum halında yaşadıqları məlumdur. Məmnunluq doğuran odur ki, Axıska türkləri yaşadıqları kənd və qəsəbələrdə yerli azərbaycanlı əhali ilə qaynayıb-qarışmış, daha səmimi, mehriban münasibət yaratmışlar. Onlar da elin, obanın xeyrində, şərində canyanğısı ilə iştirak edir, xalqımızın milli bayramlarında, Ramazan və Qurban bayramlarında, habelə Novruzda ailəlikcə böyük həvəslə bu bayramların iştirakçısına çevrilirlər.

Novruz çərşənbələri yaxınlaşdıqca bayram hazırlıqlarına başlanılır. Buraya ev-eşiyin, həyət-bacanın təmizlənməsi, bayram sovqatlarının və yeməklərinin hazırlanması və sairə daxildir. Azərbaycanlılarda olduğu kmi, axıskalı ailələrdə də bu adətlər var. Küsülülük barışla əvəzlənəndə sosial harmoniya bərpa olunur.

Yumurta döyüşdürülməsi iki dünyanın - qışla yazın, soyuqla istinin mübarizəsini nümayiş etdirməkdir. "Toxum cücərtmək", "səməni qoymaq" təbiəti canlandırmaq, ona təsir etmək vasitəsi kimi anlaşılır. "Qulaq falı" və ya "qapı pusmaq" yeniləşmənin məlumat səviyyəsini əks etdirir. Axıska türklərində Novruza aid olan bayram adətlərindən biri də müxtəlif şəkildə adlandırdıqları azərbaycanlı azyaşlılarla birlikdə icra etdikləri torba atmaqdır. Sonrakı dövrlərdə bəzi axıskalılar "torba atmağ"ı "qurşaq tutmaq" və ya şal sallamaqla əvəzləmişlər.

Axıskalılar azəbaycanlı qonşu və qohumları kimi, müasir dövrün "torba atmaq" mədəniyyətində "dəsmal atmaq" və "papaq atmaq" kimi yeni vasitələrdən istifadə edirlər. Ənənəyə görə, papağı boş qaytarmaq olmaz. Novruzun papaq atmaq kimi dillər əzbəri olan bu adətini yerinə yetirən uşaqlar yetərincə əylənirlər.

Novruz Şərq ölkələrini - Mərkəzi Asiya (Qazaxıstan, Sibir, Altay və Şimal-Qərbi Çin türkləri - uyğurlar), Ön Asiya (Şərqi Anadolu, Zaqafqaziya, Cənubi Azərbaycan və Özbəkistan türkləri) və Şərqi Avropanı (qaqauzlar, Krım, Bolqariya, Yuqoslaviya, Kipr türkləri) əhatə edən coğrafiyada yaşayan türk xalqları və axıskalılar tərəfindən məzmun etibarilə eyni, şəkilcə müxtəlif formada həyata keçirilir.

Novruz şənliklərində məktəblilər müxtəlif kompozisiyalarda səhnəciklər hazırlayırlar. "Özbək, tatar qırğız: bunlar bir soydur" mahnısı şənliyin ən yaddaqalan və insanları coşduran parçasıdır. Qaşıqda yumurta daşıma, kisə (çuval) geyinərək qaçma yarışı, bir-birini arxasında daşımaq kimi yarışlar və məclisə ağgeyimli, əliçiçəkli Bahar qızın gəlişi Axıska türklərinin iştirakı ilə təşkil edilən Novruz şənliklərinin ən gözəl çalarlarıdır.

Ölkəmizdə azsaylı xalqların böyük sevinc hissi ilə keçirdiyi Novruz mədəniyyətlərin ortaq bir bayramıdır. Müasir dövrümüzün bu ortaq bayramı yaşamaq sevinci, bolluq, bərəkət və barış harmoniyalı olaraq ənənələşmişdir.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*




# Bakının abad məhəllələrində Novruz şənlikləri davam edir









**Novruz bayramı ənənəvi olaraq ölkəmizin bütün guşələrində olduğu kimi, paytaxt Bakı şəhərində də geniş qeyd edilir. Bakı Şəhər İcra Hakimiyyətinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bununla əlaqədar paytaxtın bütün rayonlarında bayram şənlikləri və konsert proqramları təşkil edilib. Bu şənliklər öz kütləviliyi ilə seçilib.**

Ənənəvi bayram tədbirləri Bakı şəhərinin Nərimanov, Sabunçu və Suraxanı rayonlarında Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə "Bizim həyət" layihəsi çərçivəsində yaradılan məhəllələrdə qeyd edilib.

Məhəllə sakinləri, ağsaqqallar, şəhid ailələrinin üzvləri, qazilər bayramı böyük sevinc hissi ilə qeyd ediblər. Bayramda Novruz atributları, milli mətbəximizin və geyimlərimizin nümunələri nümayiş olunub, müğənnilər müxtəlif mahnılar səsləndirib, Kosa, Keçəl və Bahar qızı toplaşanları şənləndirib və bayram tonqalının ətrafında sakinlərlə birgə rəqs ediblər.

Son illərdə paytaxtda 400-ə yaxın abadlaşdırılmış həyət yaradılaraq sakinlərin istifadəsinə verilib. Burada sakinlərin istirahəti üçün hər cür şərait var. Novruz ərəfəsində abad məhəllələr bayramsayağı bəzədilib, səməni, Novruz şirniyyatları olan süfrələr açılıb, bayram ab-havası yaradılıb.

# "İçərişəhər" Qoruq İdarəsində Novruz bayramı münasibətilə tədbir keçirilib

**Xəzər Rayon İcra Hakimiyyəti və "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin birgə təşkilatçılığı ilə "Qala" Dövlət Tarix-Etnoqrafiya Qoruğunda Novruz şənliyi keçirilib. Qoruq İdarəsindən AZƏRTAC-a bildirilib ki, tədbir iştirakçıları əvvəlcə xalqımızın mədəni irsini özündə əks etdirən Novruzun çoxəsrlik ənənələri, mətbəxi və məişətinin nümayiş etdirildiyi pavilyonlarla tanış olublar.**

Daha sonra rayon ərazisində fəaliyyət göstərən məktəbəqədər və orta ümumtəhsil müəssisələrinin özfəaliyyət dərnəklərinin, rəqs və mahnı qruplarının folklor nümunələri, eləcə də idman məktəblərinin çıxışları izlənib.

Açıq səma altında yerləşən "Qala" Arxeoloji-Etnoqrafik Muzey Kompleksində xalçaçılıq, dulusçuluq kimi qədim sənət nümunələri də təqdim edilib. Azərbaycan Milli İdman Növləri Assosiasiyasının təqdimatında göstərilən milli güləş, zorxana, masresling, ənənəvi oxatma və alpaqut kimi etno-idman növləri iştirakçıların böyük marağına səbəb olub. Mədəniyyət və Sənətkar-



lıq üzrə Bakı Peşə Təhsili Mərkəzinin tələbələri qonaqlar üçün müxtəlif sənətkarlıq nümunələrini sərgiləyiblər.

Tədbir mədəniyyət və incəsənət ustalarının iştirakı ilə keçirilən konsert proqramı ilə davam edib.

# Novruzun yaddaşlardan silinməyən xalq tamaşaları









**Bahar fəslinin gəlişi ulularımız üçün, sadəcə, fəsil dəyişməsi deyildi. Qarlı, şaxtalı günlərin bitməsi, təbiətin qış yuxusundan oyanaraq canlanması idi. İlıq nəfəsli yaz fəslinin yurda qədəm qoyması ilə bol məhsul götürmək, bütün ilboyu aclıqdan, qıtlıqdan uzaq olmaq ümidi, inamı ilə əkin-biçin işlərinə başlayırdılar.**

Əkinçilər baharda can-dildən çalışırdılar ki, özlərinin, ailələrinin, ümumilikdə insanların illik azuqələrini təmin edə bilsinlər. Novruz bayramında bağ-bağata da əl gəzdirilir, ağaclar budanırdı.

Bu dövrdə təbiət yavaş-yavaş qış yuxusundan oyanır, dirçəlməyə başlayır. Azərbaycanda keçmişdən bu günədək bahar bayramına günlərlə hazırlıq görülür. Novruz bayramına qədərki dörd çərşənbənin hər biri xüsusi mərasimlərlə qeyd edilir. Qədimdə el şənlikləri, kütləvi yarışlar, oyunlar, tamaşalar, mərasimlər təşkil olunur, mahnılar oxunur, aşıqlar deyişir, kəndirbazlar öz hünərlərini göstərirdilər. Onların bəziləri unudulsa da, bir çoxu bu gün də adət-ənənəyə uyğun olaraq keçirilir. "Kosa-kosa", "Kəndirbaz", "Cıdır", "Gizlənpaç", "Fincan-fincan", "Bənövşə" və başqa oyun və tamaşalar kütləvi olaraq oynanılır.

Novruzda təşkil olunan bir-birindən maraqlı oyun və tamaşaların hər birinin öz mənası var. Məsələn, "Cütçü şumu" adlı tamaşa torpağı oyatmaq məqsədilə keçirilirdi. Tamaşanın əsas qəhrəmanı - Cütçü babanın şəninə rəqs edilir, idman yarışları, məzəli oyunlar oynanırdı. Folklorşünas Ülkər Nəbiyeva yazır: "Vaxtilə Torpaq çərşənbəsində "Cütçü şumu", yaxud "Əkin toyu", "Səpin toyu", "Torpaqbasdı", "Xış-kotan bayramı" adlanan böyük bir mərasim keçirilərdi. Mərasimin baş qəhrəmanı Cütçü baba, yaxud "Gilbaba", "Turab baba" olmuşdur. Rəvayətə görə, Cütçü baba ilk dəfə insanlara taxıl əkib-biçməyi öyrətmiş övliya, müqəddəs adam hesab olunmuşdur. Bu mərasimdə Cütçü baba vəzifəsini icra etmək üçün elin hörmətli, uzunömürlü ağsaqqalı seçilərdi. Səhər-səhər "Cütçü baba" mərasimi başlamazdan əvvəl hamı el şənliyinə hazırlaşardı. Adətə görə, bir mismarın işlənmədiyi, iydə, ərik ağacından düzəldilən bir cütü, qarakotanı günün altında qoyurdular və onu güzgü qırıntıları, qırmızı parça və s. ilə bəzəyirdilər. Mərasimdə "Cüt gözəlləməsi" oxunardı ki, burada şum aləti vəsf olunardı. Sonra meydana bir cüt Ağ öküz gətirilərdi, onların ayaqlarını qırmızı parçalarla bəzəyib kotana qoşardılar. Bundan sonra meydana Cütçü baba, yaxud Xızır zinda gəlir, bu zaman "Budur gəldi Yer sahibi, Baba, xoş gördük, xoş gördük" deyərək onu salamlayırdılar".

Novruzun maraqlı xalq tamaşalarından biri də "Padşah oyunu"dur. Folklorşünaslar qeyd edirlər ki, bu oyun Azərbaycanın bir çox bölgəsində keçirilir, Qarabağda "Padşah oyunu", Qubadlıda "Şah bəzəmə", Ordubadda "Xan bəzəmə" adı ilə tanınır. Oyunun keçirilməsi üçün ayrıca mağar qurulur. "Şah" mərasim başlayanda məclisə musiqi sədaları altında, "vəzir-vəkil"in, "fərraş"ların əhatəsində gəlir və "taxt"ında oturur. Onu "fərraş"lar qoruyurlar. Fərraşların qollarında qırmızı sarğı, başçılarının isə çiynində şal olur. Oyunun qaydasına görə, "şah" danışmır, "əmr"ləri "vəzir" verir. Yanındakı adamlar onun "əmr"lərini icra edirlər. Əmrlərə tabe olmayanı, yaxud qaydaları pozanları "fərraş"lar tutub "şah"ın hüzuruna gətirirlər və onları "cəzalandırırlar". Bəzən cəza verilən adamı kəndirə bağlayıb "dar ağacı"ndan asırlar. Ancaq "cəzası" olanlar daha çox pulla cərimələnirlər. Pullar "xəzinə"yə yığılır. Toplanmış vəsait xeyirxah işlərə xərclənir.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

## «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 14 fevral (Cümə günü) tarixli 114-cü nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası



# AZƏRBAYCAN

Cümə, 13 cəmadiyələvvəl sənə 1337.
14 şubat sənə 1919.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 70 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Bakı üçün 1 aylığı 18 rublə,
2 aylığı 32 rublə, 3 aylığı 45 rublə.
Qeyri şəhərlər üçün 1 aylığı 20 rublə,
2 aylığı 35 rublə, 3 aylığı 50 rublədir.

Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

### 10-uncu iclas

### Üçüncü gün

**[Xudadad bəy] Məlikaslanov** (Türüq və Məabir naziri) - Möhtərəm məbuslar! Dün möhtərəm məbus Sanıyev nitqlərində xətti-hüdudda [sərhəddə] neft məsələsi ətrafında böyük fənalıqlar olduğunu qeyd etdilər. Bu şeylərin çoxu oktyabr aylarında həqiqətən olmuşdur. Sizə məlumdur ki, o zaman türklər gedərkən bu yolda çox şuluqluq olmuşdur. Böylə şeylər yalnız Azərbaycanda deyil, hər bir məmləkətdə öylə halda bulunduğu zaman olur. Öylə halda bəzi adamlar yolsuzluqdan istifadə edərək öz nəfləri [qazancları] üçün çox zərərlər yetirirlər. Türüq və Məabir Nəzarəti [Nəqliyyat və Rabitə Nazirliyi] bu işləri nəzərə alaraq onları təftiş və həman işlərə baxmaq üçün bir komisyon təyin etmişdir. Məzkur [deyilən] komisyonda hər Nəzarətdən bir nümayəndə var. Komisyon yolsuzluqları meydana çıxararaq bir neçə adamı qulluqdan qovmuş, məhkəməyə vermişdir. Bunların içində dəmiryol məmurlarından da var. Bundan sonra olan işlər bizə məlum deyildir. Hökumət lazım gələn tədbiri görmüşdür, gələcəkdə də görəcəkdir.

Neft barəsində hökumət tərəfindən bir neçə söz söyləmək istəyirəm. Məlumdur ki, bizim məmləkətimizi ehya edən [canlandıran] və hətta bir çox düşmən qazandıran bir sərvətimiz var: neft. İldə 500 milyon [put] neft hasil olur. Əvvəlləri bu miqdarın az bir hissəsi Batuma, yerdə qalanı Rusiyaya göndərilirdi. Batuma dəmiryolu ilə 1917-ci ildə 40 milyon, digər illər hər il 50-60 milyon put getmişdir. Şimdi Batuma o qədər neft göndərmək mümkün deyildir, çünki dəmiryolu ancaq 20 milyon [put] apara bilir, əlavə neftpravodu [neft kəməri] ilə də 50 milyon put sövq edilir. Qalan neft ya gərək burada qalsın, yainki Rusiyaya göndərilsin. Amma yol yoxluğundan Rusiyaya neft göndərmək mümkün deyildir. Bu surətlə nefti sata bilmiriz, burada da az işlənir.

Ona görə hökumət çalışır ki, bir növ ilə bu neftdən çox xeyir alsın. Bu xüsusda bir çox mülahizə var. Biri deyir ki, neft inhisar altına alınsın, fəqət, bu mümkün deyil, çünki bunu İngiltərə, Amerika və sair böyük və müntəzəm hökumətlər güclə tətbiq edə bilirlər, biz isə yeni bir hökumət olduğumuzdan bunu tətbiq etməyi bacarmarıq. Bilxassə bunun üçün müntəzəm yeni idarələr, bir çox təşkilat və külli miqdarda məmur lazımdır.

Bir tərəfdən də bizə təklif edirlər ki, neft satışı sərbəst elan edilsin. Fəqət, bunun bir məhzuru [çəkiniləsi tərəfi] var ki, neft nerəyə aparılsa əvəzində kağız pul gətiriləcəkdir. Kağız pul isə xeyirsiz və heç şeyə lazım olmayan bir şeydir. Ona görə kağız puldan isə cövhərimizin məmləkətimizdə qalması faydalıdır. Almanlar burada olan zaman bizə ümid vermişdilər ki, Batumdan bizim neftimizi öz gəmilərində Ukrayna və sair məmləkətlərə daşıyacaqlardır. Paraxodlar da hazırlanmışdı. Fəqət çox çəkmədi övzayi-siyasiyyə [siyasi vəziyyət] dəyişdi, o ümidlər də pozuldu. Şimdi vəziyyəti-siyasiyyəyə görə bizim cövhərimizi aparacaq olan ingilis və fransız gəmiləri Dardaneldən o yanadır. Digər tərəfdən məlumunuzdur ki, bizim dəmiryolumuz xarab, nizamdan düşmüş, maşınlar yanmış, neftpravod pozulmuşdu. Şimdi çox çalışaraq bunları bir qədər islah edib Batuma neft çıxarmağa müvəffəq olduq. Eyni zamanda əcnəbi məmləkətlərə neft göndərmək qəsdi ilə hamıdan əvvəl Ukrayna ilə bir iş düzəltməyə çalışdıq, müvəffəq də olduq. Şimdi ingilislər bizə söz vermişlər ki, neftimizi daşımaq üçün paraxod versinlər. Fəqət, burada da işimiz fənalaşdı, çünki biz müqavilənamə bağlayan kimi Ukraynada hökumət dəyişdi, iğtişaş başlandı. Hər şəhərdə bir cərəyan, bir hökumət var, bilmirsən kimlə danışasan.

Hal-hazırda neftpravod gündə 75 min olmaq üzrə ayda iki milyon puta qədər neft çəkir. Bu günlərdə bir milyon 200 min puta qədər də artacaqdır. Deməli, Batuma ayda 3 milyon put neft göndəriləcəkdir.

Bu mülahizələrdədir ki, Ticarət və Sənaye Nəzarəti məzkur iki çarənin heç birinə təvəssül [müraciət] etməyərək orta yol ilə getmişdir. Çünki, dedim ki, inhisar mümkün deyil, tam sərbəstlik dəxi büsbütün mümkün olmur. Mədənçilər nefti sata bilmədiklərindən hökumət onlara, əmələyə [işçiyə] məvacib verə bilmək üçün külli miqdarda pul buraxır. Şimdi hökumət çalışmalıdır ki, çox neft satılsın, tainki verdiyi 30-40 milyon paranı geri ala bilsin, mənfəət də hasil etsin. Hökumətin zehni böylə dərin məsələlərlə məşğuldur. Türüq və Məabir Nəzarətinin politikası da bundadır. Bir tərəfdən neft lazımi qədər getmir, o biri tərəfdən sərbəst satış elan edilsə, çıxarılan neftin əvəzinə mal gəlmir. Ona görədir ki, bu işləri nizama salmaq üçün iki həftə bundan əvvəl bir komisyon təşkil edilmişdir ki, neft işlərinə baxıb ingilis və sairlərlə müzakirata girişsin, sonra hökumətə neft alış-verişi haqqında bir layihə təqdim etsin. Hökumətin ixtiyarı olsa, o vaxt layihəni özü qəbul edər, olmazsa, Parlamana təqdim olunar, bu bir. Digər tərəfdən işlər ona görə ləngə düşürdü ki, bizimlə Batum arasında başqa bir dövlət vardır. Neftin Batuma ucuz çıxmasına bu iş mane olur. Neft məsələsinə məhəlli deyil, cahan nöqteyi-nəzərindən baxmaq lazımdır. Çünki Azərbaycandan başqa, Amerika, İngiltərə və Rumıniyada 3 milyard tondan ziyadə neft hasil olur. Buna görə, neft bazarında bir rəqabət, bir mübarizə başlanacaqdır. Hər kəs çalışır ki, nefti ucuz çıxsın. Çalışmalıdır ki, mübarizə meydanında Amerika nefti Bakı neftinə qalib gələ bilməsin. Məsələn, Marselə Amerika nefti də gəlir, Bakı nefti də. Bunlardan hangi ucuz olsa, əlbəttə onu alacaqlar. Təbii, Bakı nefti Marselə gedincə neçə məmləkət keçdiyindən ayrı-ayrı gömrüklər verərək Amerika neftindən baha çıxar. Ona görə ilk əvvəl bu barədə Gürcüstanla müqavilənaməmiz olmalı idi. Uzun müzakirat nəticəsində nəhayət, şimdi bir tranzit müqavilənaməsi bağlamışıq ki, Gürcüstan bizim neftimizdən vergi almayacaqdır, biz də onlara nefti ucuz buraxacağız. Bu həm bizim üçün xeyirli, həm Gürcüstana faydalıdır. Bu barədə yaxın zamanda bir layihə təqdim ediləcəkdir.

Məlumdur ki, iş müəyyən bir adam, ya bir heyət əlində olmayanda müşkülləşir. Bilxassə əhvalımız öylədir ki, adi bir məsələni başa gətirmək üçün bir neçə qeyri idarələrə müraciət etmək lazım gəlir. Bu səbəblərdən bir günə qurtarmalı iş üç həftə çəkir. Hal-hazırda neft işlərində hökumət məzkur məsələyə baxmaq [üçün] komisyonun işini gözləyir. Bu günlərdə komisyon öz rəyini hökumətə bildirəcəkdir. Komisyonun layihəsinə mütəxəssislər iştirakı ilə baxılacaq, hökumət ya özü təsdiq edəcək yaxud təsdiq edilmək üçün Parlamana təqdim edəcəkdir. Bundan sonra böyük miqyasda neft ticarəti başlanacaqdır.

**Ağamalıoğlu** ("Hümmət") - Əvvəlki natiqlərə cavab verərək deyir ki:

Mən türk fəhlə və əkinçisinə zidd və bərəks [əksinə, əleyhinə] getmirəm, amma türklərin hökumətinə gərəkdir zidd olam. Harada istibdad varsa, biz ona ziddik. Mən dedim ki, o istibdaddan Gəncədə bir qədər də bizim hökumətimizə verildi... *(Sədr natiqi mətləbə dair danışmağa dəvət edir.)* Bəli, bu axır zamanlarda ehtikar [möhtəkirlik] başlanıb, Azərbaycanın nefti, bezi və buğdası cürbəcür yerlərə getdi, dün heç bir şeyi olmayanlar bu gün milyona malikdirlər. Bəziləri mənim dediyimi böylə başa düşdülər ki, guya biz hökuməti dəyişmək istəyiriz, əlbəttə indiki halda əgər mümkün olsaydı biz bir an dayanmazdıq. Amma şimdi iş buradadır ki, nə tövr edək bir az iş görülsün. Məlumdur ki, sorğu hökumət üçün bir dəyənək kimidir; hökuməti dəyişmək deyil, işi düzəltməkdir. İşlərimizin nə qədər müşkül olduğu məlumunuzdur. Kabinə təşkil edilərkən nazirlərin bəziləri yalvarırdılar ki, canım əl çəkin, rədd olun. Biz onları güclə vadar etdik, şimdi isə çalışmalıyız ki, yıxılmasın.

Yollar naziri dedi ki, milyonlar hesabı və əsnasında 3-4 qazan neft bir şey deyildir. Bir də sözündən bu çıxdı ki, Nəzarət orta yol ilə gedirmiş. Elə bu orta yoldur ki, xalqı dəli eyləmişdir! Sudya, müəllim, çəkməçi – hamı işini buraxıb həman orta yola düşdü, ehtikara başladı. *(Sağdan, soldan alqış.)* Bunun qabağını almaq üçün dünkü nitqimdə bir təklif etdim, həman təklifi təzədən deyirəm: gərək elə edək ki, hökumət tərpənsin. Bunun üçün şahmar lazımdır ki, bu da Ali Tribunaldan ibarətdir.

**Qarabəyov** (İttihad) - Əsas məsələyə keçmədən əvvəl türklükdən bir neçə söz söyləyəyim:

Əvvəla onu ixtar etməliyəm ki, türklük namı [adı] bizim üçün müqəddəs bir namdır, həməvəqt [heç vaxt] o nam tənqid yolu ilə çəkiləmməz. Türklər buraya hökuməti idarə etməyə deyil, əsgər sifəti ilə gəldilər, canlarını verdilər, qanlar tökdülər, bizə səadət və istiqlal yolu açdılar. Onların böyük xidməti qarşısında ruzi-məhşərədək mədyunuz [məhşər gününə qədər borcluyuq]. Yalnız malımız, canımız deyil, hətta hüququmuzu da onlara fəda etsək, çox deyildir. Nəinki uğrumuzda canını fəda etmiş əsgərlər, hətta paşaların da siyasəti hamı üçün pis olsa da, bizim üçün yaxşılıqdan başqa bir şey etməmişlərdir. *(Alqış)* Bir çox adamlar özləri iştirak etmiş olduqlarını qorxudan gizləyərək deyirlər ki, türkləri buraya "Müsavat" gətirmişdir. Yalnız "Müsavat" tərəfindən Rəsulzadə cəsuranə bir surətdə dedi ki, bəli biz gətirmişik və buna fəxr ediriz. Həqiqətən haqları da var, zira millət yolunda böyük xidmətdir və millət qarşısında ehtirama layiqdirlər. Fəqət, məncə türkləri buraya gətirən "Müsavat" və sair bir firqə deyil, türk ruhu, islam ruhu, türk qanıdır. Mən şahidəm ki, bu gəlmək 11 il əvvəl qət edilib. İstanbulda həman Xəlillər, Nurilər, Vəhiblər birinci imkan bulduqda Qafqaziya islamlarını xilasa yüyürməyə "Qurani-şərif" hüzurunda yəmin etmişdilər. Əhməd bəy də buna şahiddir. Şimdi onların adları məmləkətdə müşahidə olunan üsulsuzluq münasibətilə çəkilir, fəqət biz təsdiq edəriz ki, bu fənalıqlara onlar bais olmamışlardır. Keçəlim mətləbə.

"İttihad" fraksiyonu tərəfindən verilmiş sorğu haqqında fikrimizi söylədik, fəqət, müzakirə əsnasında müxtəlif söhbətlər çıxdı. Hökuməti müdafiəyə qalxışan Məhəmməd Əmin həzrətləri kinayə ilə buyurdular ki, biz hökuməti dağıtmaq istəyiriz. Bu, doğru deyil. Hökumətin lehinə və əleyhinə olanları aşkar etmək üçün uzun danışıq istər.

Sorğu məsələsinə gəlincə, iki cəhətə fikir verməlidir. Biri fəlsəfə cəhətidir ki, müharibə nəticəsində anarşi olub, aləm dağılıb, sərvət gedibdir. Bu doğru. Bunu təshih üçün bizim nazirlər deyil, daha təcrübəli adamlar, hətta bütün millət çalışsa yenə çətin düzələr. Bir də Məhəmməd Əmin həzrətləri buyurdular ki, köhnə hökumətin günah və nöqsanını təzə hökumətə istinad vermək olmaz. Mən deyə bilərdim ki, təzə də köhnənin mabə'didir [davamıdır]. Amma bunu da demiriz. Fəqət, sorğu verməkdə bizim qəsdimiz hökuməti yıxmaq deyil, başqa bir məsələdir: hökumətin uçuruma doğru getdiyini görərək sual etdik. Əgər hökumət desəydi ki, filan tədbiri görmüşük, biz dəxi qənaət hasil edərdik, fəqət biz bunu görmədik. Şimdi bu Parlamandan sonki [sonrakı] hökumət barəsində bir qədər danışmaq istəyiriz. Bu söylədiklərimiz bir həqiqətdir ki, arzu edilsə sübut gətirəriz. Türklər gedəndən sonra müşkülat çıxmışdır, bunu etiraf edəriz, lakin gedərkən əsgər naminə toplanan ərzağı tulladı, demək doğru deyildir. Hər yerdə azuqə və sairələrini məmurlarımıza təslim etmişlərdir. Əhali də ərzaq şeylərini dağıtmamışdır. Alan da, toplayan da, satan da, dağıdan da məmurlarımız olmuşdur. Əcəba bundan hasil olan məbləğin 15 %-i hökumətə vüsul olmuşmu, hökumət bir təşəbbüsdə bulunaraq malın nerədə olduğunu sordumu? Xayır! Xainlər axtarılıb, müqəssirlər tapıldımı? Əski hökumət zamanında qamçı ilə camaatı sıxanlar, ehtikarla məşğul olanlar, yeni hökumət dövründə də öz işlərinə davam edirlər. Xainlərə qarşı yeni hökumət bir tədbir gördümü, bir məmuru əzl etdimi? Eybi örtmək üçün deyirlər müsəlman arasında düz adam yoxdur. Bu yalandır, doğru isə məmləkətin dirilməsinə ümid qalmaz. Amma ümidimiz var, düz adam çoxdur, hətta birinin yerinə 5 adam da tapılar. Quba, Qazax və Gəncəni götürünüz, sabiq məmurlar yenə həman hərəkətlərində baqidirlər [davam etməkdədirlər]. Camaat arasında fitnə-fəsad davam edir. Bunu sübut edəcək dəlillərimiz var. Keçəlim siyasi məsələlərə:

Bu barədə dəxi bir çox tədbirlər görməli idi, görülməmişdir. Qonşularımızla hüsnəlaqə peyda edilməmişdir. Daxili siyasətə gəlincə, hökumət daxili işlərdə gərək əhaliyə istinad etsin. Millət gərək hökumətə etimad və etibar etsin. Böylə olmasa hökumət etmək olmaz. Vəz [vəziyyət] və əhvalı camaata anlatmaq lazımdır. Hökumət adamları məmləkət daxilinə camaat içinə gedib vəziyyətimizi xalqa anladarsa, əhali nə halda olduğumuzu başa düşər. Hal-hazırda əsgər cəm edilir. Hökumət camaata qandırmalıdır ki, qoşunu nə üçün yığır, onda əhali xoşhallıq ilə gələr. Bu həman camaat deyilmi ki, eşalonların qabağını kəsib 30 minlərlə saldatın silahını alırdı, Bakı üzərinə müntəzəm qoşun kimi hücum edirdi, Qubanın üstünə 8000 birdən yürüyürdü? Camaatımız əsgərlikdən qaçan deyil, ancaq onlara yaxşı idarə və nizam lazımdır. Bu nizamsızlıq nəticəsidir ki, əhali nifrət edir.

Daxildə əhval necədir?

Quba mahalında bir cərəyan var ki, Quba qəzası Dağıstana qoşulsun. Zaqatalada Gürcüstana qoşulmaq barəsində bəzi danışıqlar var. Qarabağda əski fənalıqlar davam edir. Sabiq hökumət buraya pul və adam göndərməyi qərarlaşdırmışdı, amma göndərilməmişdir. Neft, bez və sairə barəsində burada çox danışıldı. Hökumət də cavabında sui-istemallar [sui-istifadələr] olduğunu etiraf etdi. Ticarət və Sənaye Nəzarəti Sovet Syezdə təklif etmişdir ki, neftin bir əldən satılması üçün bir büro təşkil edilsin və satılan neftlərin həpsi büro vasitəsilə ixrac edilsin. İlk nəzərdə zahirən bu bir gözəl təşəbbüs kimi görünür, həqiqətdə isə məzkur büro adi bir sendika olub bir neçə böyük mədənçilərin nefti büro vasitəsilə satılır, xırda neftçilərinki qəbul edilməyir. Böyük mədənçilərin biri də bizim ticarət nazirimizdir. Büro təşkilindən bəri neftin putu 10 manat 80 qəpik olmuşdur. Ondan əvvəl 5 manat idi. Deməli, bu 5 manat camaatın belinə gəlir və bundan hasil olan 4 milyon (ayda) bir neçə firmanın cibinə gedir. Maşın yağının putu 15 manatdan qaldırılmışdır 33 manata. Bu da camaatdan çıxır. Hökumətin ticarət işlərindən xəbəri yoxsa, bu işə nə üçün müdaxilə edir? Ticarət işlərini bilirsə, bunun adını nə qoyur? Mən deyirəm bu işdə bacarıqsızlıqdan başqa sui-istemal dəxi görünür.

Sair məsələlərə keçdikdə, deməliyəm ki, dövlətlilər əsgər getmirlər, rüşvət verib xilas olurlar. Kasıblar, sahibsizlər əsgər alınırlar. Bunlar da üsrətdə [çətinlik içində] yaşadıqlarından naxoşlayıb, qırılırlar. Doğrudur, heç bir hökumət yoxdur ki, məmurlarının bəziləri rüşvət almasın, amma bizim sözümüz siyasətin əsasını qoyanlar və sui-istemallara yer verənlərlədir. Böylə bir müşkül halda bu fəaliyyətsizliyin önü alınmazsa, əhval daha da fənalaşar. Bu fənalıqların önü son dərəcə fəaliyyətlə alınmalıdır. Biz öz istiqbalımızı [gələcəyimizi] bu cür işləyənlərə verə bilmərik. Müqəddəratımız mətin və əzmkar əllərdə olmalıdır. Bu barədə bizə təminat versələr çox gözəl, verə bilməsələr desinlər özümüz tədbir görək. Bizim bu fikrimiz hökuməti yıxmağa bir sui-qəsd kimi təbir edilərsə [yozularsa], cavab verəriz ki, qənaət hasil edənədək fikrimizi yeridəcəyiz. Onun üçün açıq deyiriz: qərarımızda baqi qalır və bu hökumətə bel bağlamayırız, ona inanmayırız. Əgər hökumət təminat versə ki, siyasət dəyişəcək, cinayətdə, sui-istemalda tutulan xidmətdən qovulacaq, məhkəməyə veriləcək, malı əlindən alınacaq, mühüm xəyanətdə tutulanlar hətta edam ediləcəklərdir, o halda biz hökumətə bel bağlarıq. Əks surətdə biz istiqbalımızı onlara tapşıra bilmərik və etimadımızı ona verməriz.

*(Yenə var)*

## SÜLH ƏTRAFINDA

**Cəmiyyəti-Əqvam**

Amerika Cəmahiri-Müttəfiqəsi [Amerika Birləşmiş Ştatları] məsai [əmək] haqqında beynəlmiləl qanun komisyonu nümayəndəsi, bütün cahan azad millətləri cəmiyyətinin sülh əhdnaməsinə [sazişinə] daxil edilmək üçün zeyldəki [aşağıdakı] təklifi etmişdir:

Hər bir millət Cəmiyyəti-Əqvama [Millətlər Cəmiyyətinə] daxil ola bilər. İntiqam və xəsarət vermək hissi ilə heç bir təcavüz olmamalıdır. Xırda millətlərin hüququ, onların təyini-müqəddərat haqqı qəbul edilməli, heç ərazi dəyişməməli, ümumi sülh saxlanmalı, bir əsas qəbul edilməlidir ki, insanın zəhməti alış-veriş malı deyildir. Vəkillər məhkəməsi, ictima [toplaşma], ittifaq [təşkilatlanma], kəlam və mətbuat hürriyyəti yerli əhalilərə də şamil olmalı, iş günü 8 saatdan artıq olmamalı, muzd şəraiti-həyat və mədəniyyətə [həyat və məişət şərtlərinə] müvafiq, arvadların muzdu kişilərlə bərabər olmalıdır.

Komisyon məruzələrə baxmış, ümdə məsələlər haqqında cümə günü etilaf [saziş] hasil olmuşdur. Bəzi məsələlər baş komitəyə veriləcəklərdir.

## TELEQRAF XƏBƏRLƏRİ

Gürcüstan Hərbiyyə naziri fevralın 7-sində Yekaterinodarda Könüllü qoşun ərkani-hərbinə [qərargahına] və Müttəfiqlər komandanlığına zeyldəki [aşağıdakı] teleqrafları göndərmişdir:

Fevralın 8-ində Könüllü qoşun dəstələri qəflətən Soçidə bizim qoşunlara hücum etmişlərdir. General Bornoviç bizim qitəata [hərbi hissələrə] silahlarını təslim etmək xüsusunda ultimatum vermişdir. Könüllü qoşunların bu hərəkəti Gürcüstana qarşı xainanə bir hərəkətdir. Bu axır vaxtlarda Soçi okruqu [dairəsi] ingilis komandanlığının mərifəti ilə [sayəsində] tərəfimizdən işğal edilmişdi. Fevralın 3-ündə Gürcüstan Hökuməti İstanbuldan ingilis komandanlığından məlumat almışdı ki, general Denikin tərəfindən Gürcüstan Cümhuriyyəti əleyhinə ədavətkaranə bir hərəkət olmayacaqdır.

Tələb ediriz ki, bizim qoşunlar müsəlləh [silahlı] surətdə Soçi okruqundan buraxılsınlar. Əks surətdə bütün məsuliyyət Könüllü ordusu öhdəsinə düşəcəkdir.

Gürcüstan Hökuməti, Gürcüstan Cümhuriyyətində olan Könüllü nəfəratı [əsgərləri] və bu dəstəyə mülhəq olan [qoşulan] şəxslər əleyhinə qayət şiddətli və amansız tədbirlər ittixaz edəcəkdir [tədbirlər görəcəkdir] və Gürcüstan əldə silah olaraq öz hüququnu müdafiə edəcəkdir.

Gürcüstan Hərbiyyə naziri məlumat verir ki, ingilis generalı sərhəddə olan Gürcüstan generalı Mazniyevə təklif eyləmişdir ki, Axıskada üsyançılar əleyhinə olan hərəkati-hərbiyyə tərk edilsin və qoşunlarını geri çəksin. Bu şərtlə ki, ingilis qoşunları həman sərhəd məntəqəsini tutsunlar və orada olan əhali isə öz aralarında komissar intixab [seçsinlər] və öz milislərini təyin etsinlər. Düsturüləməl [nizamnamə, təlimatnamə] məsələsi isə Gürcüstan Cümhuriyyəti Qanuni-əsasisinə məbni [konstitusiyasına əsasən] Şurayi-Vükəlada [Nazirlər Kabinetində] müzakirə edilməlidir. Bunu əhaliyə və ingilislərə bildiriniz. Hərəkati-hərbiyyə qəza sakit olandan sonra qurtaracaqdır. Sərhəd xəttini gürcü və ingilis qoşunu tutmalıdır. Silah komissarlara təslim edilməlidir.

Gürcüstan Xariciyyə naziri İngiltərə heyəti naçalnikinə [rəisinə] bu məzmunda bir nota göndərmişdir:

Sizə məlumdur ki Gürcüstan Hökuməti dəfələrlə Soçi nahiyəsinin mübahisəli bir yer olduğuna görə İngiltərə dəstələri daxil edilməklə bitərəf bir məntəqə halına salınmaq şərti ilə təxliyə etmək arzusunda olmuşdur. Gürcüstan Hökumətinin rəyincə, ancaq məsələnin bu tövr həlli ilə Gürcüstanla Könüllü ordu dəstələrinin toqquşması imkanını bərtərəf etmək [aradan qaldırmaq] olardı. Könüllü ordunun əhdşikənanə [xaincə] bir surətdə hücumu və Gürcüstan Hökuməti əleyhinə açdığı hərəkati-hərbiyyə bu rəyin əsaslı olduğunu təsdiq edir. Gürcüstan Hökuməti özünü Könüllü ordu hücumundan mühafizə etməkdən ötrü Gürcüstan sərhədinin Könüllü ordu əsgərləri tərəfindən işğal edilməsinə razı ola bilməz. Buna görə Gürcüstan Hökuməti Soçi nahiyəsinin Könüllü ordudan təmizlənməsini və bu mübahisəli məntəqə məsələsinin Ümumi Sülh Konfransında həllinə qədər həman yerə İngiltərə əsgərləri daxil edilməsilə bitərəf bir məntəqə halına salınmasını təklif edir. Fəqət buna qədər Könüllü ordu əsgərlərinin irəli hərəkət etməsini dayandırmaqdan ötrü tezliklə tədbirlər ittixaz edilməsi [tədbirlər görülməsi] lazımdır. Bizim tərəfimizdən göstərilən bu üsul, asayiş bərpa edilməsi ilə gələcəkdə toqquşma təkrarını bərtərəf etmək məqsədi ilə olduğuna görə İngiltərə komandanlığı tərəfindən hüsn-təvəccöhlə qəbul olunmalıdır.

*Xariciyyə naziri Gegeçkori*

## QƏZETƏLƏRDƏN

**Rusiyada**

Kiyev təriqi [yolu] ilə Moskvadan xəbər verirlər ki "P. Q." qəzetəsində yazılan məqalədə deyilir ki, Kreml Hökuməti (Bolşevik Hökuməti) iki hissəyə ayrılmışdır. Bunların birinin başında Lenin, digərində isə Trotski dayanmışdır. Lenin Ukrayna Hökuməti ilə ittifaqa girmək və Müttəfiqlər əleyhinə ümumi qüvvə vücuda gətirmək tərəfdarıdır. Trotski isə bütün Mərkəzi Rusiyanı müharibə meydanına döndürmək və Müttəfiqlər gələnə qədər Ukraynanı fəth etmək fikrindədir.

**Qardaşlaşma**

Bolşevik qəzetələri yazırlar ki, Arxangelsk cəbhəsində bolşevik əsgərləri ilə əcnəbi məmləkət əsgərləri arasında qardaşlaşma (brataniye) başlanmışdır.

**Rusiya əsirləri**

Almaniyadan övdət etməkdə [qayıtmaqda] olan rus hərbi əsirləri bilatərğib və təşviq [təbliğat və təşviqat olmadan] bolşevik ruhu ilə ruhlanıb bolşevik olmaqdadırlar.

**Vladiqafqazda müharibə**

Vladiqafqazdan gəlmiş fərarilərin [qaçqınların] rəvayətinə görə, inquşlarla Könüllü qoşunlar arasında şiddətli müharibə gedir. Fərarilər şəhərdən kənar olduqda top səsi şəhərin kənarına gəlirmiş. Yenə həman fərarilərin rəvayətlərinə nəzərən, şəhərin bazar hissəsinə Könüllülər od vurub yandırmışlardır.

**Soçinin işğalı**

Tiflisdən alınan məlumata nəzərən, Soçi şəhəri qəti surətdə Könüllü qoşunlar tərəfindən işğal edilmişdir. Şəhərin cənubi dəstələr tərəfindən işğal edildiyi zənn olunur.

**Tersk oblastında**

Müttəfiqlər komandanlığından alınan son məlumata nəzərən, Tersk oblastında əhval böylədir: Vladiqafqazda Terek nəhrinin sol kənarı Könüllü qoşunlar tərəfindən işğal edilmişdir. Şəhərin mərkəzi isə inquşların əlindədir. Hələlik onlar kazaklarla könüllüləri oraya buraxmayırlar. Bolşeviklər məğlub və pərişan olaraq İnquşistana, Bazorkinə və Narzana qaçırlar. Könüllü ordu və kazaklarla inquşlar arasında ixtilaf əmələ gəlmişdir. Fəqət hər iki tərəf güzəştə maildir [meyillidir]. Kazaklarla inquşlardan mütəşəkkil [təşkil olunmuş] müştərək hökumət barəsində bunların arasında saziş əmələ gəlir. Bir-birlərinə ədavət bəsləyən tərəflər, Müttəfiqlərin vəsatətini [vasitəçiliyini] tələb edirlər.

**Almaniyanın imtinası**

Bremen və Hamburq şuraları Almaniya flotunu [donanmasını] Müttəfiqlərə təslimdən imtina etmiş və flotu partlatmaqla təhdiddə bulunmuşlardır.

**İngiltərədə tətil**

İngiltərədə vaqon inşa edən Qlazqo zavodunda 10 min əmələ [fəhlə] tətil etmişdir. Gündən-günə tətil edən əmələlərin miqdarı artır.

## MİLLİLƏŞMƏK ƏLAMƏTLƏRİNDƏN BİRİ

### II

Açıla biləcək müəllimlər kurslarına buraxılmış 30 min rublənin təqsimatı [bölünməsi] barəsində Məkatib [Məktəblər] [şöbəsi] müdiri Əlicabbar Orucəlizadə cənabından qəzetə vasitəsilə izahat istəmişdik. Cavab gəlmədi.

Əlicabbar əfəndi müəllimlik işlərində mahir, zamanə tələbatını qarşılayan yeni ziyalılarımızın birincilərindən olduğu cəhətə güman etməyirəm ki, o cənab milliyyətə və cəmiyyətə mənsub bir sualın cavabını laubali və etinasızca buraxıb dursun. Bəlkə müsəlman qəzetələrindən müdir əfəndinin xəbəri yoxdur. Böylə bir xəyal və zənndə bulunarsaq, bu bir əfv olunmayacaq səhv və xətadır ki, bir çox ziyalılarımızın bu bəlaya mübtəla olmasını məattəəssüf [təəssüflə] müşahidə ediriz. İstəyirəm bir az da cürətli olub bu barədə deyəm ki, rusca bilən ziyalılarımız türk qəzetələrinə biganə qalaraq ancaq rus qəzetələri ilə kifayətlənirlər. Halbuki "Azərbaycan" qəzetəsinin ruscası məmləkətimizin müxtəlif əqvamını [millətlərini] dövlətin ənvai binagüzarlığı [müxtəlif sərəncamları] ilə aşina qılmaq vəsiləsi olduğu halda, həman qəzetənin türkcəsi bir çox milli və siyasi məsələlərin həllinə çalışır. Heyfa ki, hər iki qəzetəyə bir ad qoyulmuşdur. Bu fəqərə bir çoxunu aldadır, iğfal edir [yanıldır]. Zənnimcə, qlasnılarımız da aldanıb "Azərbaycan"ın ruscasına kifayət etmişlərdir. Odur ki, 30 min rublənin təxsisatı barəsində müsəlman qlasnıları Duma iclasında bir sözlə də olsa yerlərindən qımıldamayıb müzakirəsiz və başdan salma bir səslə pulun iki yerə bölüşməsinə razı qalırlar.

Pulun iki millət arasında nə cəhətə təqsimatı barəsində Məkatib müdiri Orucəlizadə cənabından mətlub [tələb olunan] cavabı almadım, lakin onun bu barədə türk və erməni müəllim və müəllimələrinə yazdığı bir hökmü bu günlərdə "Azərbaycan"ın ruscasında oxudum. (Görəsən bu hökm türkcə yazılmışdır, yaxud rusca? Zənnimcə, rusca yazıldığı cəhətə rus qəzetində çap olunmuşdur.)

Müdir əfəndi müəllimlərə göndərdiyi xitabında böylə yazır:

*"Çünki milliləşmiş məktəblərin müəllimlərindən bəziləri ana dilinə kifayət edici qədər malik deyillər. Binaənileyh [ona görə], bununla türk və erməni müəllim və müəllimə əfəndilərdən rica edirəm Ana dili və ədəbiyyatın geniş və dərinləşməyinə artıq diqqət etsinlər. Çünki məktəblərin kamilən milliləşməsi cəhətinə lazımdır ki, müəllimlərin də məlumatı həman məktəblərin tələbatına müqabil ola bilsin. İlin axırında bu dairədə imtahan verə bilməyən müəllimlər işdən kənar olacaqlardır. Xüsusən, yeni dəvət olunmuş müəllimlərin bu məsələyə diqqətlərini cəlb edirəm. Bələdiyyə İdarəsi müəllimlərin bu ehtiyacını qarşılayaraq nöqsanlarını rəf etmək [aradan qaldırmaq] üçün xüsusi ehtiyat [hazırlıq] kursları açacaqdır. Bu kurslarda müəllim əfəndilərin davamını qəviyyən [şiddətlə] məsləhət görürəm."*

İştə müdir əfəndinin müəllimlərə göndərdiyi bu hökmündən böylə məlum olur ki, biri türk müəllimlərinə və biri də erməni müəllimlərinə olmaq şərtilə iki ehtiyat kursu açılacaqdır. Böylə olan surətdə otuz min rublənin də iki yerə təqsimi icab edir. Nə üçün böylə? Məgər kursun vəzifəsi ibtidai məktəblərə müəllim hazırlamaqdır? Böylə olarsa bu iki millətdən başqa Bakıdakı

# «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 14 fevral (Cümə günü) tarixli 114-cü nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

cuhud və rus məktəblərinin qismətı hanı? Məsələnin ibtidai məktəblərə təallüqü [əlaqəsi] olsaydı, yaqin ki, sair millətlər də təsəvvürdə bulunardılar. Bundan əlavə, ibtidai məktəblərdə öylə çətin bir elm, öylə düşvar [çətin, qarışıq] bir fənn yoxdur ki, bunun türkcə təlimini müəllimlərimiz bacarmasınlar. Zira ibtidai məktəblərin milliləşmək fəqərəsi [hadisəsi] çoxdan başlandığı cəhətə, zatən müəllimlərimiz də bu dairədə çoxdan işləyib hazırlanmışlardır. Daha bunlardan ötrü xüsusi kursun lüzumu heç yoxdur. Bəs bundan məlum olur ki, açılacaq ehtiyat kursu milliləşə biləcək vəsət [orta] məktəblərin ehtiyacı rəf'i [ehtiyacının aradan qaldırılması] üçün təsis ediləcəkdir. Böylə olarsa, yenə məsarifin yarılanmasına ehtiyac yoxdur. Zira məmləkətimizin, yəni Azərbaycanın məktəbləri milliləşsin deyə şüar və qəbul etdik. Yəni məmləkətdə yaşayan millətlərin əksəriyyətini təşkil edən Azəri türklərinin dili, məktəblərin rəsmi təlim lisanı gərək olsun.

Vətənin sair əqvamına gəldikdə, öz dillərinin ayrıca təlimi ilə bərabər proqramın tamam ülum və fününu[nu] rəsmi lisan vasitəsilə öyrənməyə məcburdurlar. Məktəblərimiz milliləşərsə, Azərbaycanın erməniləri, cuhudları və rusları həman məktəblərdə azərilərlə bərabər tamam ülumu türk lisanında təhsil etməlidirlər. Hökumət ixtiyarında bulunan məktəblərin qanunu budur. Lakin hər kəs öz dilində və öz milləti məsarifi ilə qeyri-rəsmi məktəb açmağa haqlıdır. Buna hökumət mane olammaz. Bu nöqteyi-nəzərlə Azərbaycanın ibtidailəri, gimnaziyaları və akademiyaları belə türk lisanı ilə əsaslanacaqlardır. Məmurlar məhafil və məcalisi [dairə və məclisləri] bu dilə möhtac qalacaqlardır. Bunu biz ixtira etmədik. Tamam Avropa bu üsula tabedir. İngilis milli məktəbinin təlimi yalnız ingiliscə olduğu cəhətə Misir ərəbləri və hinduları da həman hökumət məktəbinin hökumət lisanında ancaq təhsil etməyə məcburdurlar. (Özlərinə məxsus məktəbləri da vardır.)

İştə, Azərbaycan məktəbləri milliləşsin, bu ondan ibarət deyil ki, hökumət məktəblərini müxtəlif millətlər arasında paylayıb rusca, erməncə, cuhudca, gürcücə mütəəddid [bir çox] gimnaziya və akademiya yaratsınlar. Böylə olarsa, Babil qalasını tikmiş əqvami-müxtəlifənin [müxtəlif millətlərin] başına gəlmiş macəra sabahki gün Azərbaycanın başına gələcəkdir. Gürcülər məktəblərini milliləşdirdilər, yəni gürcüləşdirdilər. Ararat gürühu məktəbləri milliləşdirdilər, yəni erməniləşdirdilər. Növbət bizə gəldikdə bizim də təklifimiz Azərbaycan məktəblərini **türkləşdirməkdir.** Özümüzdən yeni bir şey icad etməyirik ki, sairlərin müqabilində xəcalət çəkək!

Böylə olan surətdə şəhər idarəsinin buraxa biləcək 30 min rublənin türk və erməni arasında paylanmasına heç bir ehtiyac yoxdur. Bu pulun hamısı milliləşə biləcək məktəblərimizin ehtiyacı rəfinə çalışacaq ehtiyat kursu üçün gərək sərf olunsun. Hələ bu da kifayət edəmməyəcəkdir. Müdir əfəndiyə öz tərəfimizdən bunu tövsiyə ediriz ki, rus əyyamındakı qlasnılarımız kimi milli məsələlərin həllində özgələrə: "xala xatirin qalmasın" məsləyi ilə məsləklənməsin [yolunu tutmasın], işlərində ciddi və cəsur olsun. Onun sandalyasında oturmuş məşhur Ohanesyanı unutmasın.

Hələ zamanə Ohanesyan zamanı deyil. Bugünkü milli məsələlərin həll və rəvacında ağyara [qeyrilərə] "qonşu payı" verilməməz. Gürcü və erməni məkatib rəislərindən ibrət almalıyız!

*Fərhad Ağazadə*

## AZƏRBAYCAN-GÜRCÜSTAN MÜQAVİLƏNAMƏSİ

Bakı, 26 dekabr sənə 1918.

Bir tərəfdən Azərbaycan Hökuməti-Cümhuriyyəsi namına [adına] Ticarət və Sənaye naziri Behbud xan Cavanşir və digər tərəfdən Gürcüstan Hökuməti-Cümhuriyyəsinin Azərbaycan Hökuməti nəzdindəki vəkili-siyasisi İotamoviç Kartsivadze zeyldəki [aşağıdakı] maddələri havi [ehtiva edən] işbu müqavilənaməni əqd və imza etdilər:

1) Azərbaycan dəmiryolları vasitəsilə Azərbaycanın xaricindən Gürcüstana və yaxud Gürcüstandan Azərbaycanın xaricinə və həkəza [habelə] Gürcüstan dəmiryolları vasitəsilə Gürcüstan xaricindən Azərbaycana və yaxud Azərbaycandan Gürcüstan xaricinə göndəriləcək yüklər (həmulə [yük; gəmi yükü]) sərbəst tranzitə, yəni hər dürlü rüsum və təkalifdən [şərtlərdən] azadə tranzitə tabe olacaqlar.

2) Azərbaycan Hökuməti əhali üçün neft və mazut və Gürcü dəmiryollarının ehtiyacatı üçünsə cövhər [kerosin], makina yağı göndərilməsinə rüxsət verir. Göndərilməsi lazım olan neft, mazut, cövhər və yağların miqdarı hər iki tərəfin müsavi [bərabər] miqdarda təyin ediləcək azadan mütəşəkkil müxtəlit [üzvlərdən təşkil olunmuş qarışıq] bir komisyon tərəfindən təyin edilməlidir. Bundan əlavə, Azərbaycan Hökuməti Gürcüstan əhalisinin ehtiyacatına sərf olunmaq üzrə miqdarı bir milyon putdan artıq olmamaq üzrə neft göndərilməsinə müsaidə edir. Həmin müqavilənamə mövcibincə [əsasında] göndəriləcək neftlə neft məhsulatının miqdarı, müqavilənamə müddəti tamam oluncaya qədər 20 milyon putdan artıq olmamalıdır.

3) 2-ci maddə mövcibincə komisyonun qərarı ilə gürcü dəmiryollarının ehtiyacatı üçün sərf olunmaq üzrə göndəriləcək neft və neft məhsulatı hər türlü rüsum və vergi və təkalifdən azad ediləcək və miqdarı dəxi 10 milyon putdan ziyadə olmayacaqdır. Əhalinin ehtiyacatı üçün göndəriləcək neft və mazut, gömrük rüsumundan azad olunarlarsa da, lakin hal-hazırda mövcud olan və ya gələcəkdə Azərbaycan daxilində sərf və istehlak olunan neft və neft məhsulatı üzərinə təyin olunacaq [qoyulacaq] vergi və təkalifə cümləsinə tabe tutulacaqlardır. Gürcüstan əhalisinin ehtiyacatı üçün göndəriləcək cövhərə gəlincə, xah [istər] həm hal-hazırda mövcud olan və həm də gələcəkdə vəz və tərhinə [qoyulmasına, tətbiq edilməsinə] lüzum görüləcək gömrük rüsumuna və hər dürlü vergi və təkalifə tabe bulunacaqdır.

4) Miqdarı 2-ci maddədə qeyd olunub da göndərilməsinə icazə verilmiş olan neft və neft məhsulatı müsavi [bərabər] partiyalarla sövq və ixrac olunmalıdır. Binaənileyh [ona görə], Gürcüstan Hökuməti Bakı şəhərindən alıb apardığı neft və neft məhsulatının 2-ci maddədə qeyd və zikr olunan miqdarına məhsub olaraq [hesab olunaraq, sayılaraq] dəmiryolları ilə və ya neftepravodla [neft kəmərləri ilə] sövq olunan miqdarın yarısından artığını olmamaq şərti ilə Azərbaycan Hökumətindən öz üçün taləb edə bilər. Həmin maddə üzərinə icra olunan müamilatın [əməliyyatların] hesabları[nı] bir komisyon müəyyən etmək üzrə tərəfeyn [iki tərəf] dəmiryol idarələri hər 15 gündə bir qapatmalıdırlar.

5) Gürcüstan Hökuməti isə heç bir günə [növ] vergi və rüsum olmadan Azərbaycan dəmiryollarının ehtiyacatı üçün lazım olan daşkömürün, taxta-şalman və sairənin Azərbaycan daxilinə keçirilməsini təəhhüd eylər [vəd edir]. Bunların miqdarına gəlincə, bu da həmin müqavilənamənin 2-ci maddəsində göstərildiyi kimi, müxtəlit komisyon tərəfindən təyin olunur.

6) Həmçinin Gürcüstan Hökuməti Azərbaycan Hökumətinin rüxsəti ilə gömrük və rüsumsuz olaraq Gürcüstandan Azərbaycana (taxıl, qənd və göndən savayı) müxtəlif cinsdən hər cür məta [əmtəə, ticarət malı] və məkulat [ərzaq] göndərilməsinə rüxsət verir və bunların qiyməti-məcmuəsi [ümumi qiyməti] isə həmin müqavilənamənin 2-ci maddəsi mövcibincə [əsasında] Gürcüstana göndəriləcək neft və neft məhsulatının qiyməti-məcmuəsinin onda birisindən artıq olmaz.

7) 6-cı maddə mövcibincə sövq və ixracı lazım gələn məta və məkulatın miqdarı 2-ci [maddədə] qeyd və zikr olunan müxtəlit komisyon tərəfindən təyin və təqərrür etməlidir [təyin edilməli və qərarlaşdırılmalıdır].

8) Gürcüstan Hökuməti işbu müqavilənamə ehkamına binaən [hökmlərinə əsasən] Azərbaycan Cümhuriyyətindən özü üçün aldığı neft və neft məhsulatının Gürcüstandan xaricə çıxarılmasına rüxsət verməməyə borclu olduğu kimi, Azərbaycan Cümhuriyyəti dəxi həmçinin həmin müqavilənamənin 6-ıncı və 7-nci maddələri mövcibincə Gürcüstandan Azərbaycana gətiriləcək mal və əmtəənin Azərbaycan Cümhuriyyətindən xaricə çıxarılmasına müsaidə etməyəcəyini təəhhüd eylər.

9) Qəzara [təsadüfən] rəf və izaləsi [ardan qaldırılması və önlənməsi] mümkün olmayan bir hadisə üz göstərəcək olarsa, hər iki tərəf bu kimi hadisənin müqavilə şərtlərinin icrasına mane olduğu dərəcədə onları, yəni həman şərtləri icra etməyə bilər.

10) Dəmiryolları, neftepravod vasitəsilə göndəriləcək mallar üzərinə vəz olunan tarifə ilə həmçinin Gürcüstandan Azərbaycana və Azərbaycandan Gürcüstana nəql və sövq olunan mallar üzərinə vəz olunacaq tarifələr hər iki tərəfin rəy və etilafı [uzlaşması, razılığı] ilə deyilsə, başqa bir surətlə təbdil və təğyir olunammazlar [dəyişdirilə bilməzlər].

11) 10-uncu maddədə zikr və tədad edilən [qeyd edilən və sayılan] yüklər və malların sövqü ilə hasil olan nəqliyyat parası məzkur [adı çəkilən] yük və malların hər iki məmləkət daxilində qət edəcəyi məsafənin (verst hesabı ilə) tuluna [uzunluğuna] mütənasib bir surətdə tərəfeyn arasında təqsim olunacaqdır [bölünəcəkdir].

12) Hərgah həmin müqavilənamədə zikr və qeyd olunan komissiyada bir ixtilaf zühur edəcək olarsa, onun həll və izaləsi üçün məsələ həkəm [arbitr] komissiyasına həvalə olunacaq və onun verəcəyi hökm və qərarı hər iki tərəf qəbula məcburdur.

13) Gürcüstan dəmiryollarına lazım olan neft və neft məhsulatı ilə Azərbaycan dəmiryollarına lazım olan taxta-şalman və sairənin sövq və nəqli, məzkur yolların ehtiyacatını təmin edəcək bir dərəcədə bulunmalı və bu da bilamane [maneəsiz] icra olunmalıdır.

14) Neftepravod vasitəsilə sövq olunan neft və cövhəri gürcü dəmiryolları Salehoğlu stansiyasında Azərbaycan dəmiryollarından xüsusi siyahı üzərinə təhvil alacaq və bədəhu [sonra] məzkur neft və cövhər Azərbaycan dəmiryollarının xahişinə binaən Batum və başqa digər bir cəhətə sövq və nəql olunacaqdır. Bu malların qəbulundan sonra, əgər onların miqdarında bir nöqsan görülər və ya axar zaye olarsa, bundan hasil olacaq məsuliyyəti Gürcüstan Hökuməti kəndi öhdəsinə götürmüş olacaqdır. Fəqət adi və ya mütəvəssit [ortabab] bir dərəcədə vaqe olan axıntı və sızıntının dərəcəsinə gəlincə, bu da surəti-xüsusiyyədə [xüsusi surətdə] təşkil ed[il]əcək bir komissiya tərəfindən təyin olunmalıdır.

15) Tərəfeyndən hər birisi neftepravod və ya dəmiryolları vasitəsilə nəql və sövq olunacaq neft və neft məhsulatını kəndi məmləkətləri daxilində ziya'dan [yox olmaqdan, itib-batmaqdan] mühafizə etməlidir. Adi axıntı bundan müstəsnadır.

16) İşbu müqavilənamənin 8-inci maddəsi ehkamının [hökmlərinin] layiqi vəchilə [layiqli surətdə] icra və tətbiqinə nəzarət eyləmək üzrə Azərbaycan Cümhuriyyəti ilə Gürcüstan Cümhuriyyətinin Tutanebi stansiyasında, Poti şəhərində, Bakı şəhərində və Yalama stansiyasında xüsusi məmurları bulunacaqdır.

17) İşbu müqavilənamə şəraitinin [şərtlərinin] xaricində olaraq xüsusi mütəşəbbislər tərəfindən Gürcüstana sövq və nəql olunacaq neft, benzin, yağ və bu misilli [bu kimi] neft məhsulatının yüzdə 25-dən ziyadəsini Gürcüstan Hökumətinin həcz [müsadirə] və zəbt etməyə ixtiyarı yoxdur.

18) Bu müqavilənamə tarixi-imzasından [imzalandığı tarixdən] bir sənəyə qədər mər'i [qüvvədə] və mötəbərdir.

19) İki nüsxə üzərinə yazılmış olan müqavilənamənin bir surəti Azərbaycan Hökuməti-Cümhuriyyəsində, digər nüsxəsi isə Gürcüstan Hökuməti-Cümhuriyyəsində bulunacaqdır.

*Azərbaycan Cümhuriyyəti*
*Ticarət və Sənaye naziri:*
*Behbud xan Cavanşir.*
*Gürcüstan Cümhuriyyətinin*
*məmuri-siyasisi:*
*N. İ. Kartsivadze.*
*Şəhri-Bakı, 26 dekabr 1918*
*Əslinə mütabiqdir.*

## BAKI XƏBƏRLƏRİ

**Azərbaycan sosial-demokratlarının ümumi iclası**

Cümə günü həmin şubatın 14-ündə gündüz saat 10 tamamda Parlaman dairəsində sosial-demokrat "Hümmət" firqəsinin fraksiyon odasında ümumi iclas vaqe olacaqdır. Məsələ mühüm olduğuna görə cəmi yoldaşlardan xahiş olunur vaxtında iclasa gəlsinlər.

**İttifaqi-Mütəalliminin [Tələbələr İttifaqı] idarəsi tərəfindən**

Bununla idarə cümə günü fevralın 14-ündə Realnı məktəbində saat 4-də idarənin iclası vüqu bulacağını üzv arxadaşlara xəbər verir.

Rica olunur üzvlər vəqti-müəyyəndə [təyin olunmuş vaxtda] gəlsinlər. Həmçinin nümayəndə göndərən məktəblərdən rica olunur nümayəndələrini seçib göndərsinlər.

* Qızıl və gümüş həmkarlarının "Qənaət" cəmiyyəti öz üzvlərinə məlum edir ki, bu gün saat 10-da Balaxanski küçə Şirvanovun mülkündə ilk ümumi iclas olacaqdır və həmin iclasa "Qənaət" müstəhlikin [istehlakçılar] cəmiyyətinin əzası da [üzvləri də] gələ bilər.

**Müəllimlərə məxsus mühazirə**

Məkatib [Məktəblər] şöbəsi Xariciyə naziri müavini Adil xan Ziyadxanov həzrətləri indində [nəzdində] "Azərbaycan tarixi"nə dair türk müəllimlərinə məxsus mühazirə oxumaq barəsində istidada [xahişdə] bulunmuşdu. Nazir həzrətləri bu gün saat 11-də Duma salonunda mühazirə oxuyacaqdır.

## GÜRCÜSTANDA

Gürcüstan Xariciyyə naziri İngiltərə heyəti naçalnikinə böylə bir nota göndərmişdir:

Batumda olan nümayəndəmiz polkovnik Gidevanov rəsmi surətdə xəbər verir ki, fevralın 7-sində iki təcili məsələ haqqında danışmaqdan ötrü Batum general-qubernatorunun yanına getdilər. Məsələlər budur:

1) Çoloq çayında körpünü mühafizə edən ingilis saldatlarının fevralın 6-ncı gecəsi gürcü sərhəd qaraqolxanasını [qarovulxanasını] atəşə tutub gürcü qaraqolunun yaralanması.

2) Fevralın 5-ində Mardadidi kəndində gürcü ordusu zabitlərindən Abaşidzenin qanunsuz həbs edilməsi.

Nümayəndəmiz Gidevanov bu işlər haqqında general-qubernatorla şəxsən görüşüb danışmaq istədiyini general-qubernatorun adyutantına söyləmişdirsə də, nümayəndəmiz həman gün və sabahısı dəxi qəbul edilməmişdir. Batumda olan İngiltərə məmurlarının Gürcüstanın rəsmi nümayəndəsi haqqında etdikləri bu tövr müamilatı [rəftarı] həqarətədd [hesab] edib hökumətimin sifarişinə görə bu həqarətə qarşı ciddi və qəti protesto edirəm. Burasını dəxi əlavə edirəm ki, Gürcüstan Hökuməti İngiltərə heyətindən bu barədə təminat alana qədər Batumda olan nümayəndəsi polkovnik Gidevanovu geri dəvət etmişdir.

*Xariciyyə naziri: Gegeçkori*

**Soçi hadisatı [hadisələri]**

Tiflisdən xəbər verirlər ki, general Konev Könüllü ordu və ermənilər tərəfindən mühasirə edildiyinə görə öz dəstəsi ilə mühasirədən çıxa bilməmişdir. Könüllü ordu dəstələri Dzibi çayına tərəf hərəkət etmişlərdir. Onlar Adlerə çatmışlar. Hələliyə başqa məlumat yoxdur.

Suxum sahilində qalan gürcü əsgərləri onlarla rubəru [qarşı-qarşıya] gələcəklərdir. Potidə olan İngiltərə zabiti paraxodlarla Suxuma qoşun aparmaqdan ötrü Tiflisdə olan İngiltərə heyətinin icazəsi lazım olduğunu söyləyib, gəmiləri verməkdən imtina etmişdir. Dənizdə təlatüm vardır. İngiltərə zabiti Soçiyə getmişdir.

Ozurgetdə olan qarnizon zabiti fevralın 9-unda Hərbiyyə nazirinə teleqraf edir ki, bu gün gecə saat 10-da Batum tərəfindən iki dəfə top atışması səsi eşidilmişdir. Yarım saatdan sonra üçüncü bir səs eşidilib bu qərar üzrə davam etməkdədir.

**Səfərbərlik**

Tiflis – (8 fevral). Gürcüstan Hərbiyyə naziri Kutais, Siqnax, Suxum hərbi naçalniklərinə və Kutais quberniyasındakı 1, 2, 3-cü alayların komandirinə, sərhəddə olan qoşunlar naçalniki general Mazniyevə, ordu dəstələri[nə] teleqraflar göndərərək bildirir ki, Gürcüstan Hökuməti qərar qoymuşdur: Gürcüstan sərhədini mühafizə etmək üçün lazım gələn tədbirlər ittixaz edilsin [tədbirlər görülsün]. Binaənileyh [buna əsasən], 1891-92-ci ildə anadan olan Kutais quberniyasındakı bütün əhalini silah altına dəvət edir.

## ERMƏNİSTANDA

**Ermənistan Cümhuriyyətində müsəlmanların halı**

İrəvan quberniyasında Novo-Bayəzid mahalında vaqe 29 ədəd müsəlman kəndlərinin vəkilləri Məşhədi Talıb Rüstəm oğlu, Məşhədi İsmayıl Hacı Əli oğlu, Məşhədi Əsədulla Məşhədi Ələkbər oğlu Azərbaycan Rəisi-vükəlası Xan Xoyski cənablarına bu məzmunda bir ərizə vermişlərdir:

*"Biz aşağıda imza edən İrəvan quberniyasında vaqe 29 müsəlman kəndlərinin vəkilləri, bu 29 kənd müsəlmanlarının namından [adından] kamali-ehtiramla zati-alilərinizə Ermənistan Hökumətindən zeyldəki [aşağıdakı] şikayəti ediriz:*

*Ermənistan Cümhuriyyəti təşkil edilib də erməni başçıları işə girişdikdən sonra birinci olaraq İrəvan quberniyasında olan müsəlman kəndlərinə təcavüzə başladılar və bizə zeyldəki tələbatı verdilər:*

*A) Azərbaycan Hökumətinin binagüzarlığı ilə bütün silahları təslim etməli; təslim eylədik.*

*B) Erməni qoşunları nəfinə [xeyrinə] buğda verilməli.*

*C) Bütün atların səfərbərliyə verilməsi; verdik.*

*Ç) Səfərbərliyə alınmış atlar üçün ot istədilər, verdik.*

*D) Erməni qoşunları üçün yemək verilməli; verdik.*

*E) Bütün naloqları [vergiləri] bizdən istədilər, birə üç dəfə artıq verdik.*

*Xülasə, bu tələblərin hamısına əməl eylədik. Görünür ki, bunların həpsi kifayət etməyirmiş və böyləliklə onlar bizi doğma vətəndən çıxarmaq istəmişlərdir. Sonra müxtəlif bəhanələrlə erməniləri bizim üzərimizə saldırıb bizi öz yurdumuzdan çıxmağa vadar edirlər və onlar ümid edirlər ki, biz bütün əmlakımızı, vətənimizi və isti ocağımızı buraxıb da çöllərə düşəcəyiz və bu məqsədlə də ermənilər silahsız olan müsəlmanlara hücum edib Zağalı, Subatan, Qızılvəng və Çuxurlu nam [adlı] dörd ədəd kəndin bütün əhalisini kişi, arvad, uşaqlarını kəsdilər, sonra bu kəndləri atəşə tutdular ki, indi də onlar yanmaqdadır. Biz kamali-məmnuniyyətlə öz doğma yurdumuzu buraxıb, bütün əmlakımızı onlara tərk edib gedirdik. Fəqət iş ondadır ki, qışın böylə soyuq zamanında, qarların içində 29 ədəd böyük kəndin əhalisi dağların təpəsi ilə necə gedə bilər? Bu da əlbəttə qayət müşkül bir məsələdir. Yuxarıda ərz edilən hallara görə zati-alilərinizdən acizanə rica ediriz. İnsaniyyət naminə Ermənistan Hökuməti qarşısında təşəbbüsdə bulunub bundan sonra bu qədər qan tökülməyin qabağını kəsdirəsiniz. Həkəza [habelə] bizim mülk və müxəlləfatımızın [ev-eşiyimizin] mühafizəsini öhdənizə alasınız və bunu da xahiş ediriz ki, bizim bu əsəfnak [acınacaqlı] halımızı Müttəfiqlər komandanı general Tomsona bildirəsiniz."*

– Mövsuq [etibarlı] mənbələrdən verilən məlumata nəzərən hökumət bu xüsusda lazım gələn iqdamatda [təşəbbüsdə] bulunmuşdur.

## İDARƏDƏN CAVABLAR

Bakıda Əbdüləhəd Mirzəzadə əfəndiyə: "Məntiqimizi islah etməli" məqaləniz gecdir. "Əsgərlərimiz tələb edirlər" məqaləniz tezdir.

Bir Adam əfəndiyə: "Nə olursa olsun, Azərbaycan Cümhuriyyəti başqa əziz tutduğu vilayətlər kimi onun böyük bir vilayətini təşkil edən Qarabağı heç kimsəyə güzəşt etməyəcəkdir." Əlbəttə, ona görə də orada general-qubernatorluq təşkil etdik. Diliniz və üslubi-ifadəniz yaxşıdır. Başqa şeylər yazınız. Lakin adınızı idarəyə bildiriniz.

**"İttihad" məktəbində**

Fevral ayının 15-indən etibarən kibarlara (böyüklərə) məxsus gecə kursları açılacaqdır. Müraciət üçün adres: Qubernski caddə, nömrə 37.

*2689*

**Gəmiçilər Şurasının İttifaqı**

Bütün gəmi sahiblərini yekşənbə [bazar] günü fevralın 16-sında gündüz saat 12-də Qafqaz-Merkuri Cəmiyyətinin kantorunda vaqe olacaq ümumi iclasa dəvət edir.

*2692*

**Elan**
**"Müstəhlikin İttifaqı"**
**(Kooperativni Soyuz)**

Müstəhlikin cəmiyyəti idarəsi bununla elan edir ki, bazar günü fevralın 16-sında səhər saat 11-də Stanislavski küçə Sənaət məktəbi binasında cəmiyyət əzalarının [üzvlərinin] iclasi-ümumisi [ümumi iclası] təyin edilmişdir. Müzakirə olunacaq məsələlər:

1) İdarənin məruzəsi və 1917-ci il məhsubatı [hesabatı];

2) Cəmiyyətin 1918-ci il fəaliyyəti haqqında müxtəsər məlumat;

3) İdarə intixabı [seçkisi];

4) Təftiş komissiyası seçkisi;

5) İclasda qalxa biləcək məsələlər.

Bu iclas ikinci dəfə çağırıldığına görə, nə qədər əza yığılsa da, iclas qanuni ədd [hesab] olunacaqdır.

*İdarə*
*2691*

**Контора Агентуры и Комиссии**
**"И. Фани и Ко."** Баку, Церковная 70.
Телеф. N 22-28. Почт. ящ. N 13.
**Agentura və komisyon kantoru**
**İ. Fani və kompaniyası.** Bakı, Serkovnı küçədə
70 nömrəli evdə.
Telefon nömrəsi 22-28.
Poçta yeşiki 13.

Kimdə nə mal varsa və kimə nə mal lazımsa bizim kantora müraciət etmələri təvəqqe olunur. Hər cür malların satışını qəbul və qəbul edilən mallar üçün qabaqca pul (ssdua) buraxırız. Sair şəhərlərdəki komisyon və agenturalardan öz mənfəətləri xatirlərinə ünvanlarını göndərmələri mətlubdur [tələb edilir]. Kantorumuz hər gün səhər saat 8-dən 2-yədək, axşam 4-dən 7-yədək açıqdır.

**Elan**
**Hökumət mətbəəsi**

Ümum kitab-füruşlara [kitab satanlara] və mağaza sahiblərinə elan edir ki, həmin mətbəə tərəfindən təzə və köhnə üsul ilə türkcə və rusca divar təqvimi satışa qoyulmuşdur. Qiyməti 8 manatdır. Külli alıcılara 6 manat. Külli miqdarda mütəallimlərə [şagirdlərə] məxsus əşya və dəftərlər dəxi satılır. Xahiş edənlər Birjavoy küçədə Skobelevin 17 nömrəli evində Hökumət mətbəəsinə yaxud Kolyubakinski küçədə 37 nömrəli evdə "Azərbaycan" qəzetəsi idarəsinə müraciət edə bilərlər.

*24-T*

**Ziraət və Əmlak naziri tərəfindən**

Bununla ümuma elan edilir ki, Bakı quberniyası, Cavad qəzası, Muğan düzündə, Orta Muğan kanalı və Aşağı Muğan kanalının cənub-şərqi dairəsindəki suvarılan yerlər müzayidə (torq) ilə icarəyə verilir. Hər kəs orada 1919-uncu il yazlıq, 1919 və 1920-nci il payızlıq, 1920-nci il yazlıq əkin əkmək istəsə, həman yerlərdən icarəyə götürə bilər. Bunu da bilməlidir ki, icarənin vaxtı son məhsul yığıldıqdan iki həftə sonra bitir.

Məzkur [adı keçən] yerlər Cavad qəzası, Qalaqayın (Petropavlovka) kəndində xəzinə yerləri mübəssiri [nəzarətçisi] Yuryevin təhti-sədarətində [sədrliyi altında] bulunan xüsusi komisyon tərəfindən yeni qayda mart ayının 1-indən 7-sinədək bir həftə zərfində [ərzində] icarəyə veriləcəkdir. İcarə şəraiti [şərtləri] konditsiyalarda [müqavilənamələrdə] müfəssələn [ətraflı] yazılmışlardır. Şəraiti bilmək olar: Ziraət Nəzarətinin Torpaq şöbəsində (Vodovoznı küçə, nömrə 8). Yenə həman Nəzarətin Su şöbəsi və Əkin və fəllahət [kənd təsərrüfatı] şöbəsində (Telefonnı küçə, nömrə 6), Gəncə Ziraət şöbəsində (Gəncə şəhəri) və məhəllərdə [yerlərdə] xəzinə yerləri mübəssirləri, qəza qaimməqamları, Cavad, Şamaxı, Göyçay, Quba, Gəncə, Ərəş, Cavanşir, Zəngəzur, Qazax, Qaryagin, Şəki və Şuşa qəzalarında məntəqə pristavları dəftərxanalarında.

*Ziraət naziri vəzifəsini ifa edən:*
*H. Sultanov*
*Nəzaətin Torpaq şöbəsi müdiri:*
*Şpitalski*
*36*

**Drama**
**Axşam Tamaşası**
**Azərbaycan Hökumətinin Teatrosunda**

Zülfüqar bəy və Üzeyir bəy Hacıbəyli Qardaşlarının Müdiriyyəti cümə günü cəmadiyə-ləvvəl ayının 13-ündə 1337 sənəsi (fevralın 14-ündə 1919-cu ildə) təntənəli bir surətdə bu mövsümdə əvvəlinci dəfə olaraq mövqeyi-tamaşaya qoyulacaqdır məşhur tarixi faciə

**Ağaməhəmməd şah Qacar**
8 pərdədə
Əsər: **Əbdürrəhim bəy Haqverdiyev**

**Ağaməhəmməd şah Qacar** rolunu ifa edəcəkdir məşhur artist **Hüseyn Ərəblinski.**

İştirak edən əşxaslar [şəxslər] müfəssələn [ətraflı olaraq] məramnamədən [proqramdan] məlum olunar.

Biletlər imdidən teatrın kassasında satılmaqdadır. Tamaşa başlanacaqdır axşam saat 8-in yarısında.

**Rejissor:** Abbas Mirzə Şərifov;
**Müavin:** Hacıbaba Şərifov;
**Məsul:** Xəlil Hüseynov;
**Mübaşir** [icraçı müdir]: Rövşən bəy Əfəndiyev;
**Müdir:** Zülfüqar bəy Hacıbəyli.

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir bəy***

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Azərbaycan Məclisi-Məbusanında***

"...hökumət ya özü təsdiq edəcək yaxud təsdiq edilmək üçün Parlamana təqdim edəcəkdir.": qəzetdə "Parlamana" yerinə səhvən "hökumətə" getmişdir.

"Xəlillər, Nurilər, Vəhiblər": Osmanlı dövlətinin hərbi xadimi, Qafqaz İslam Ordusu ilə birgə Bakıya daxil olan Xəlil paşa (soyadı: Qut), Qafqaz İslam Ordusunun komandanı Nuri paşa (soyadı: Killigil) və Qafqaz İslam Ordusunun da tabe olduğu Şərq Ordular Qrupunun komandanı Məhməd Vəhib paşa (soyadı: Kaçı) nəzərdə tutulur.

"Sovet Syezd": Bakı Neft Sənayeçiləri Qurultayı Şurası nəzərdə tutulur.

"…sui-istemal dəxi görünür": qəzetdə "sui-istemal" [sui-istifadə] yerinə "sui-əməl" [pis əməl] getmişdir.

***Teleqraf xəbərləri***

"…amansız tədbirlər ittixaz edəcəkdir…": qəzetdə "edəcəkdir" yerinə "ediləcəkdir" getmişdir.

***Qəzetələrdən***

"P. Q.": "Proletarskiy qolos" qəzeti nəzərdə tutulur.

***Milliləşmək əlmaətlərindən biri***

"…məsarifin yarılanmasına ehtiyac yoxdur": qəzetdə "yarılanmasına" yerinə "yaralanmasına" getmişdir.

"…Babil qalasını tikmiş əqvami-müxtəlifənin başına gəlmiş macəra...": əfsanəyə görə, Babil qalasını tikən insanlar müxtəlif dillərdə danışmağa başlamış və bir-birini başa düşmədikləri üçün məqsədlərinə çata bilməmişdilər.

"türkləşdirməkdir" sözü tünd hərflərlə yığılmışdır.

***Azərbaycan-Gürcüstan Müqavilənaməsi***

"…zaye olarsa…": qəzetdə "sənaye olarsa" getmişdir.

"…bir sənəyə qədər mər'i…": qəzetdə "bir" yerinə "bu" getmişdir.

***Gürcüstanda***

"Çoloq çayında": güman ki, Çorox çayı olmalıdır.

"…üçüncü bir səs…": qəzetdə "üçüncü bu səs" getmişdir.

***Ermənistanda***

"…bizə zeyldəki tələbatı verdilər…": buradakı maddələr qəzetdə a, b, v, q, d, y kimi (Kiril əlifbasının hərf sırasına uyğun olaraq) işarələnmişdir.

"…atlar üçün ot istədilər…": qəzetdə "ot" yerinə "yemək" getmişdir.

"…qoşunları üçün yemək verilməli…": qəzetdə "yemək" yerinə "ot" getmişdir.

***"İttihad" məktəbində***

"Qubernski caddə": Bakıda, indiki Nizami küçəsi.

***Elan: Müstəhlikin İttifaqı***

"Stanislavski küçə": Bakıda, indiki Azadlıq prospekti.

GCM GLOBAL ENERGY AZERBAIJAN

"Global Energy Azerbaijan" şirkəti və onun törəmə şirkətləri

"Absheron Operating Company"
"Binagadi Oil Company"
"Karasu Operating Company"
"Shirvan Operating Company"
"Neftechala Operating Company"

Azərbaycan xalqını Novruz bayramı münasibətilə təbrik edir, hər bir ailəyə səadət və sevinc dolu günlər arzulayır!



"Bakı Abadlıq Xidməti" MMC

Azərbaycan xalqını Novruz Bayramı münasibətilə təbrik edir, sülh, xoşbəxtlik, əmin-amanlıq, birlik, firavan həyat, ruzi-bərəkət, xoş gələcək arzulayır!




# Novruz ümumbəşəri bayramdır





**Novruz tarixin yaddaşından süzülüb gələn, xalqımızın mənəvi dünyasında əbədiyaşarlıq ömrü qazanmış, min illərin adət-ənənəsini ehtiva edən milli bayramdır. Bu bayrama tarixi inkişaf boyunca baxdığımız zaman onun türk xalqlarının həyatı, adət-ənənəsi ilə mədəni köklər və mənəvi qaynaqlara bağlı olduğunu görürük. Azərbaycandan başqa bir sıra ölkələrdə də Novruz bahar bayramı kimi qeyd olunur.**

Ümummilli Lider Heydər Əliyevin sərəncamı ilə Novruz 1993-cü ildən milli bayram statusu alaraq dövlət bayramı kimi qeyd olunur. Novruz həm də ümumbəşəri mahiyyət daşıyan bayramdır. 2009-cu ildə Novruz bayramı aşıq sənəti ilə bir yerdə UNESCO-nun qorunan qeyri-maddi mədəni irs siyahasına daxil edilib. Bu bayramın çox gözəl mənalarından biri ondan ibarətdir ki, Novruz bərabərlik, dostluq və qardaşlıq bayramıdır. İnsanlar evlərdə, meydanlarda, təbiət qoynunda şənlik mərasimləri keçirir, şadlanır, küsülülər barışırlar. Bərabərlik, ruzi-bərəkət, rifah, sülh bayramı olan Novruzda insanlar bir-birini təbrik edir. 2010-cu ildə BMT-nin Baş Məclisi martın 21-ni "Beynəlxalq Novruz Günü" elan edib.

Novruzda müxtəlif oyunların keçirilməsi bu bayramı daha maraqlı, yaddaqalan edir. Belə oyunlardan ən maraqlısı "Kosa- kosa"dır. Bu qədim oyun haqqında müxtəlif mülahizələr var. Bu mülahizələrdən biri də odur ki, Kosa da, Keçəl də bərəkətin rəmzidirlər. Onlar həm insanları güldürmək, həm də şər qüvvələri aldatmaq üçün maskalanırlar. Kosa və Keçəlin bərəkət rəmzi olmasını onlara aid xalq şeiri nümunələrində də görmək olur. Oyuna qatılanlar qurd, tülkü, çaqqal qılıqlarına girərlər. Kosabaşı üzərinə götürdüyü kürkü tərs geyər. Belinə və boynuna zınqırov asar... Əlində bəzəkli, qırmızı çömçə tutar, çiynindən boş xurcun sallanar. İnanclara görə, Kosa kimin evinə girsə, o ev bərəkətli olar, il boyunca həmin evdən bol ruzi əskik olmaz. Bəzi bölgələrdə bu oyun uşaqlar, bəzilərində isə qadınlar tərəfindən oynanır.

Tamaşanın digər qəhrəmanı isə Keçəldir. Xatırladaq ki, qədim meydan tamaşaları "Kəndirbaz" və "Gözbağlıca" oyunlarında da Keçəl obrazı var. Şübhəsiz ki, Keçəl mifoloji düşüncə ilə bağlı olan obrazdır. Maraqlı olan tərəfi budur ki, Keçəlin də bolluq, bərəkət rəmzi olması ilə bağlı nümunələr az deyil. "Keçəl, keçəl mərəndə, arpa buğda sərəndə, bir arpanı beş eylər, yeddi qazan aş eylər" ifadəsi bolluğa, məhsuldarlığa işarədir. Bu tamaşada əsas ideya yazla qışın mübarizəsini əks etdirməkdir. Qış öz yerini yaza təhvil vermək istəmir, yaz isə bu yeri əldə etməyə çalışır.

Məzəli hərəkətlərlə meydana daxil olan Kosa zurna və nağaranın müşayiəti ilə "Novruz, Novruz bahara, güllər-güllər nübara, kim yığa, kim apara. Bağçamızda gül olsun, Gül olsun, bülbül olsun. Mən gəlmişəm kef görüm, Zurna görüm, dəf görüm" mahnısını oxuyar.

Qeyd olunduğu kimi, oyunun personajları Kosa qışın, Keçəl isə yazın gəlişini simvolizə edir. Kosa uzun səfərə hazırlaşır, bununla da mərasim iştirakçıları bilirlər ki, qış gedir, yaz gəlir. Ancaq Kosa öz mövqeyini asanlıqla vermək istəmir. Mərasimdə Kosaya belə bir nəğmə oxunur: "Mənim Kosam canlıdır, Qolları mərcanlıdır: Kosama əl vurmayın, Kosam ikicanlıdır".

"Kosam ikicanlıdır" ifadəsi heç də təsadüfi işlənilmir. Kosa - yəni qış yazı doğacağı üçün ikicanlıdır. Yaz qışdan doğulur. Qış istəsə də, istəməsə də, yaz gəlməlidir. Qışın doğacağı "uşaq" - yaz əkinçiliklə, maldarlıqla məşğul olan insanlar üçün həyatdır.

Burada bir məsələni də qeyd edək ki, Keçəl bəzi tamaşalarda Keçi adı ilə çıxış edir. Novruz bayramında bu obrazlar təbiətin oyanış dövründə gülüş, səmimiyyət doğurur.

Bəzən məzhəkənin sonunda Kosa ölür. Kosa torpağın rəmzidir, qışla yazın arasında nə qədər mübarizə getsə də, nəticədə Kosa - torpaq ölmür, dirilir, təbiət oyanır. Əslində, tamaşanın məğzini də bu təşkil edir. Təbiətin gözəlliklərini göstərmək, torpağı əkib-becərmək üçün bu oyunlar quraşdırılır və bununla da tamaşa gözəl sonluqla yekunlaşır.

Yurdumuza bahar gəlir. Bolluq, bərəkət gəlir. Novruz ətirli bahar bayramınız mübarək!

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# Elmi araşdırmalarda Novruz geniş tədqiq edilib

**Novruz bayramı Azərbaycan xalqının ən qədim və ən müqəddəs bayramlarından biridir. Bu əziz bayram yazın ilk qədəmini atdığı eyni gündə - martın 21-də qeyd olunur.**



Yazın gəlişi və təbiətin oyanışı ilə bağlı həmin gün ta qədim zamanlardan ölkəmizdə bayram şənlikləri keçirilib. Hamımıza sevinc bəxş edən bu bayram təkcə Azərbaycanda deyil, bütün türk dövlətlərində böyük təntənə ilə qeyd edilir.

Təəssüflər olsun ki, uzun zamanlar bəzi din xadimləri və müxtəlif təriqət nümayəndələri Novruz bayramına dini libas geyindirməyə çalışmışlar. Amma nə qədər çalışsalar da, buna nail ola bilməmişlər.

Novruz bayramı ilə əlaqədar tarixi mənbələrdə dəyərli məlumatlar çoxdur. Bu müqəddəs bayramın pozulmayan izlərinə dövrünün görkəmli şəxsiyyətlərinin, yazıçı və şairlərinin, tədqiqatçılarının əsərlərində də rast gəlinir. Əbu Reyhan Biruni Novruz bayramı haqqında özünəməxsus müxtəlif rəvayətlər, Novruz bayramı ilə xalq arasında yaranmış adət-ənənələrdən və bunların yaranma tarixindən ətraflı bəhs etmişdir. Əsərlərində Novruz bayramının hər hansı bir dini bayram yox, təbiətin canlanması, yeni fəslin gəlişi ilə əlaqəli dünyəvi bir bayram olduğunu qeyd etmişdir.

Novruz bayramı bir çox mənbədə geniş təsvir olunmuşdur. Bunlardan Mahmud Kaşğarinin "Divani-lüğət-it-türk", Əbu Reyhanın "Asarul-Baqiye", Y.H.Hacibin "Kutadqu biliq", Ömər Xəyyamın "Novruznamə", N.Gəncəvinin "İskəndərnamə", Nizamülmülkün "Siyasətnamə" əsəri və başqalarını qeyd etmək olar.

Novruzun keçmişə uzanan tarixi Əhəmənilər dövründən də əvvəllərə gedib çıxır. Əhəmənilər haqqında yazılan tarixi mənbələrdə Novruz bayramının onlardan xeyli əvvəl xalq arasında çox təntənə ilə qeyd olunduğu yazılır. "Avesta" qaynaqlarında da bu bayramla bağlı rituallar, adətlər, xüsusilə də səməninin göyərdilməsi, tonqallar üzərindən tullanma kimi ənənələrin mövcudluğu barədə geniş məlumatlar var.

Novruz bayramını qeyd etmək təzə ili, baharın ilk gününü qarşılamaq deməkdir. Təqvimdə baharın ilk günü isə Günəşin birillik fırlanması ilə əsaslanır. Alimlərin fikrincə, bu bayramın tarixi çox qədimdir. Elmi araşdırmalar Novruz bayramının əsasını çox əski çağlarla - Zərdüştün yaşadığı dövrlə bağlayır. Bəzi hesablamalara görə, Novruz bayramı eramızdan əvvəl 505-ci ildə yaranmışdır.

Novruz bayramı haqqında istər mifoloji, istərsə də etnoqrafik baxımdan elmi ədəbiyyatda kifayət qədər tarixə söykənən dəyərli sözlər deyilib, məqalələr yazılıb. Novruzla bağlı bütün araşdırmalarda bayram haqqında ətraflı məlumat verildikdən sonra xalq tamaşaları, mövsümi nəğmələr, mərasimlərdən nümunələr göstərilib. Novruz bayramının mahiyyəti, tarixi kökləri dərindən araşdırılıb.

N.Dubrovin XIX əsrdə ölkəmizdə keçirilən Novruz bayramındakı müşahidələrində yazırdı: "Azərbaycanda baharın gəlməsini şəhər və kəndlərdə açılan yaylım atəşləri bildirirdi". Azərbaycanda Novruz bayramı təntənəsinin iştirakçısı olan Adam Oleari hələ 1637-ci ildə yazırdı: "Münəccim (astroloq) tez-tez arxasından qalxaraq, astronomik cihaz və günəş saatı vasitəsilə günəşin hündürlüyünü təyin edərək, gündüzlə gecənin bərabərləşdiyi anda elan etdi: "Təzə il gəldi" və elə bu anda yaylım atəşləri başlandı, şəhərin qüllələrindən və divarlardan musiqi sədaları ucaldı. Beləliklə, bahar bayramı başlandı".

Novruz xalqın ürəyindən, qəlbindən, tarixindən süzülüb gələn bir bayramdır. Araşdırmalar bir daha onu sübut edir ki, təbiətin, həyatın oyanması Novruzdan başlanır. Deməli, bu həm də təbiətin, həyatın bayramıdır. Azərbaycan xalqı bayramı çox təntənəli və həm də yeni ilin, yeni günün - Novruzun gəlişinə dörd həftə qalmışdan qeyd etməyə başlayır. Belə ki, hər həftənin ikinci günləri Su çərşənbəsi, Od çərşənbəsi, Yel çərşənbəsi və Torpaq çərşənbəsi qeyd olunur.

Xalqımızın müqəddəs Novruz bayramının tədqiqatçısı olmuş professor A.Nəbiyev Novruzun hərfi mənasını belə izah etmişdir: "Novruz" - yeni gün deməkdir. Bir çox mənbələlərdə Novruza Ergenekon, Sultan Nevruz, Xan Novruz, Rüsxət günü, Bozqurd, Çağan, Yılbaşı, Gündönümü, Bahar bayramı, Yaz bayramı və sairə demişlər. Qədim türk və fars mənşəli xalqlara məxsus olan, Şərqi Türküstandan Balkanlara qədər ərazidə yayılan Novruzun təxminən 25-ə yaxın adı mövcuddur. Novruz bayramı Uyqurustanda yaşayan uyğurlardan tutmuş Volqaboyunda, Orta Asiyada, Qafqazda, Krımda, Türkiyədə, İraqda, Güney Azərbaycanda və başqa yerlərdə qeyd edilir.

Sovet dövründə Novruz qeyri-rəsmi qeyd olunurdu. Çünki hökumət buna icazə vermirdi və hətta insanları təqib də edirdilər. Ancaq bütün bunlara baxmayaraq, əsrlərdən qalmış ənənələrə sadiq olaraq, hər bir azərbaycanlı ailəsi bu bayramı qeyd edirdi. Novruz bayramının 2009-cu ilin 30 sentyabrında UNESCO-nun dünya xalqlarının qorunan qeyri-maddi mədəni irsi siyahısına daxil edilməsi Azərbaycan dövlətinin bütün dünyada böyük uğuru oldu. Bu işdə ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın çox böyük rolu olmuşdur.

Şükürlər olsun ki, illərdən sonra işğaldan azad olunmuş ərazilərimizdə də Novruz tonqalları qalanır. Növbəti illərdə Qarabağda qalanan Novruz tonqallarının sayı daha da artacaq. İnanırıq ki, Novruz bayramı xalqımıza yeni-yeni uğurlar və zəfərlər gətirəcək.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

# "Gəldim bu dünyaya bir payız çağı"

## Novruz ərəfəsində dünyasını dəyişən keçmiş iş yoldaşımız Zeynal Vəfanın xatirəsinə

**Redaksiyamızın əməkdaşlarının çoxunun yazı masası üstündə bir kitab var. Bu, şair-publisist Zeynal Vəfanın "Dedimmi, demədimmi" kitabıdır. Bir neçə il əvvəl yaşı və səhhəti ilə bağlı öz xahişi ilə işdən çıxıb gedəndə bağışlamışdı hamımıza.**



Ancaq uzun illər iş yoldaşımız olan həmkarımızı yada salan təkcə bu deyil. O qədər xatirələr var ki...

Söz vaxtına çəkər. Elə bayram günlərində kollektiv bir yerə toplaşanda, təbriklər səslənəndə son söz Zeynal Vəfanın olardı. Xahiş edərdik ki, bir şeir desin. O da öz şeirlərindən birini söyləyərdi. Bəlkə buna görə də Zeynal müəllimin ana, dost haqqında şeirlərini əzbərdən bilməyənimiz yoxdur. Bəzən də iş otağının yanından keçən həmkarlarından kimisə çağırıb yeni şeirini ona oxuyardı, rəy soruşardı. Şeirin dinləyicisi də öz otağındakı iş yoldaşlarına danışardı ki, bəs, deməssinizmi, Zeynal müəllim təzə möhtəşəm bir şeir yazıb. Bu minvalla bütün redaksiya Zeynal Vəfa şeirlərinin ilk oxucusuna çevrilərdi. Bunlardan biri də "Bayraq" şeiridir:

*Qara bulud görsəm bayrağım üstə,*
*Sanma qəlbim susar, sönnəm bir anda.*
*O yad buludları parçalamaqçün*
*Dəli bir rüzgara dönnəm bir anda...*

*Bayrağım mayakdır, mənsə bir gəmi,*
*Onsuz dənizlərdə aza bilərəm.*
*Ona kəc baxanın gözlərini mən,*
*Nifrət xəncərimlə qaza bilərəm.*

Zeynal Vəfa qəlbi daim dolu olan qələm sahibi idi. Bunu şeirlərində, publisist məqalələrində daha aydın görmək olurdu. Həyatda isə az danışan idi. Amma danışanda duzlu-məzəli söhbətindən doymaq olmazdı. O qədər sadə, o qədər təvazökar idi ki... Qəribə zarafatları vardı. Özü isə bəzən zarafatı da həqiqət kimi qəbul edəcək qədər sadəlövh olurdu.

Şair ürəyinin kövrəkliyi hətta ictimai mövzularda yazdıqlarında da özünü aydın göstərirdi. Zeynal Vəfa yurdumuzun gözəlliklərini, xalqımızın qəhrəmanlıq tarixini sevə-sevə qələmə alırdı. O cümlədən Qarabağı böyük məhəbbətlə vəsf edirdi. Həssas şair qəlbi ilə, incə qələm sahibi intuisiyası ilə hələ neçə il qabaq qələbəmizə inam izhar edirdi. Ona görə odlu-odlu yazırdı ki, özü boyda qızılgüldür Qarabağım, onu gec-tez dərəsiyik:

*Qürbətdəki muzeylərə*
*Az göndərin*
*Qarabağlı xalıları,*
*Biz onları Zəfər günü*
*İgidlərin keçdikləri*
*Yollar üstə sərəcəyik.*
*Özümüzü Qarabağa*
*Ədədilik əkməyincə,*
*Hilaldağın zirvəsində*
*Qartal kimi səkməyincə,*
*Xankəndinin, Zəngəzurun,*
*Xocalının nəfəsini*
*Acgözlüklə içimizə çəkməyincə,*
*Bu vuruşdan dönən deyil*
*Ordum mənim.*

Yaxud ictimai mövzuda yazdığı şeirlərdən birində ailələrin parçalanmasından bəhs edirdi. Haray qoparırdı ki, amandır, ailələr bölünməsin, parçalanmasın. Çünki:

*Kiçik ailələrin bölümlərindən*
*Başlar böyük xalqın böyük bölümü.*

Ailə demişkən, çox ailəcanlı insan idi. 60, ya 65 illik yubileyində onu təbrik etmək üçün redaksiyanın bir geniş otağına toplaşmışdıq. Yubiley iclasından çox səmimi söhbət oldu bu. Onda Zeynal müəllim ömürnaməsini azacıq vərəqləyərək söylədi ki, aman-zaman bir oğlu var və övladının tək olması onu əvvəllər həmişə kədərləndirirmiş. Ancaq Azərin (Xalq artisti Azər Zeynalov) qeyri-adi istedad sahibi olduğu üzə çıxanda təskinlik tapıb. Öz-özünə deyib ki, Tanrı bilən məsləhət imiş.

Bir gün isə səhər tezdən işə gələndə Zeynal müəllimin redaksiyanın dəhlizində dilxor halda o baş-bu başa gəzdiyini gördük. Söylədi ki, dördüncü oğul nəvəsi dünyaya gəlib. Demə, o, istəyirmiş ki, ailəsində qız uşağı da olsun... Öz sözlərini xatırlatdıq Zeynal müəllimə: "Tanrının məsləhətidir".

Ömür-gün yoldaşının Zeynal Vəfadan xeyli əvvəl dünyadan köç etməsi də bir tale qisməti idi və şair bu əbədi ayrılığı çox ağır yaşadı:

*Hicranın neştəri ilə*
*Ürəyimi dəlirəm.*
*Ruhunu göndər, məni*
*Qarşılasın, gəlirəm.*

Yaxud:

*Sənsizliyə dözməyə*
*Məndə qalmayıb səbir,*
*Yanında yol gözləyir,*
*Qazılmamış bir qəbir.*

"Gəldim bu dünyaya bir payız çağı" - deyirdi Zeynal Vəfa. Payızda dünyaya gəlmişdi, baharda isə onu tərk etdi. Amma nə yaxşı ki, yurdumuzun əsl baharını gördü. Torpaqlarımızın işğaldan azad olunduğunu gördü. Böyük məhəbbətlə vəsf etdiyi üçrəngli bayrağımızın Şuşada, Xankəndidə dalğalandığını gördü.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Məktəblərdə silsilə təlimlər keçirilib

**Masallı rayonunun ümumtəhsil məktəblərində şagirdlər üçün "Sağlam, sosial və təhlükəsiz mühitin formalaşması" adlı silsilə təlimlər təşkil olunub.**

Rayon icra hakimiyyətinin, Heydər Əliyev Mərkəzinin, Gənclərin İnkişaf və Karyera Mərkəzi (GİKM) Masallı bölməsinin birgə təşkilatçılığı ilə keçirilən təlimlər ümumilikdə 4 məktəbi əhatə edib.

Şəhər 1 və 3 nömrəli, Gəyəçöl kənd tam orta məktəblərində və Dəfinə liseyində keçirilən təlimlərdə Masallı rayon Heydər Əliyev Mərkəzinin direktoru Dilbər İbayeva və rayon icra hakimiyyətinin əməkdaşı, Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın uşaqlarla iş üzrə məsləhətçi - psixoloqu Aybəniz Novruzova çıxış edərək şagirdlərə zorakılıq hallarından uzaq durmağı, belə hallarla qarşılaşdıqda müəllim heyətinə məlumat verməyi tövsiyə ediblər.

GİKM-in Masallı bölməsinin əməkdaşı, təlimçi Orxan Əliyevin təqdimatında keçirilən seminarda isə "Zorakılıq nədir", "Zorakılıq hallarının qarşısını necə ala bilərik", "Zarafat və sataşmanın fərqləri nələrdir", "Kiberbullinq hallarından necə qorunmaq olar", "Sağlam mühitin formalaşmasında şagirdin rolu" kimi mövzulardan danışılıb.

400-dən çox şagirdin iştirak etdiyi təlimlərdə şagirdlərlə söhbətlər aparılıb, onları maraqlandıran suallar cavablandırılıb.

# Novruz bayramının ilk günündə paytaxtda yağış, dağlıq və dağətəyi rayonlarda isə qar yağacaq

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, martın 20-də Bakıda və Abşeron yarımadasında havanın arabir yağıntılı olacağı gözlənilir. Gecə və səhər yarımadanın bəzi yerlərində leysan xarakterli, intensiv olacağı ehtimalı var. Axşam tədricən kəsiləcək. Arabir güclənən şimal-qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 3-6°, gündüz 6-9° isti olacağı ehtimal edilir. Atmosfer təzyiqi 756 millimetr civə sütunundan 762 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət 70-80 faiz təşkil edəcək.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarının bəzi yerlərində havanın arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 2° şaxtadan 3°-dək isti, gündüz 5-10° isti olacaq.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Ağdam, həmçinin Daşkəsən, Gədəbəy rayonlarının bəzi yerlərində havanın arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Axşam yağıntılar tədricən kəsiləcək. Gecə və səhər arabir duman olacaq. Qərb küləyi əsəcək, arabir güclənəcək. Havanın temperaturunun gecə 0-5° şaxta, gündüz 0-5° isti olacağı proqnozlaşdırılır.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarının bəzi yerlərində havanın arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Axşam yağıntılar tədricən kəsiləcək. Gecə və səhər arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 0-4° isti, bəzi yerlərdə 5°-dək şaxta, gündüz 4-8° isti olacağı bildirilir.

Gəncə şəhərində, Qazax, Samux, Goranboy, Tərtər, Füzuli rayonlarının bəzi yerlərində havanın arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Axşama doğru yağıntılar tədricən kəsiləcək. Gecə və səhər arabir duman olacaq. Qərb küləyi əsəcək, arabir sürətlənəcək. Havanın temperaturunun gecə 1-6°, gündüz 8-13° isti olacağı ehtimal edilir.

Mingəçevir şəhərində, Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Ağdaş, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarının bəzi yerlərində havanın arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli, intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər arabir duman olacaq. Qərb küləyi əsəcək, arabir güclənəcək. Havanın temperaturunun gecə 0-5°, gündüz 5-10° isti, dağlarda gecə 3-8° şaxta, gündüz 3° şaxtadan 2°-dək isti olacağı ehtimalı var.

Şirvan şəhərində, Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Saatlı, Göyçay, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarının bəzi yerlərində havanın arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər arabir duman olacaq. Qərb küləyi əsəcək, arabir sürətlənəcək. Havanın temperaturu gecə 3-8°, gündüz 9-14° isti olacaq.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabad rayonlarının bəzi yerlərində havanın arabir yağıntılı olacağı, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər arabir duman olacaq. Mülayim şimal-şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 3-7°, gündüz 7-11° isti, dağlarda gecə 1° şaxtadan 2°-dək isti, gündüz 2-5° isti olacağı gözlənilir.


# OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

*2024-cü il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


RƏSMİ DÖVLƏT QƏZETİ
AZƏRBAYCAN
Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbrik
"Bu, böyük xoşbəxtlikdir"
Prezident İlham Əliyev Xankəndi şəhərində Novruz tonqalını alovlandırıb və Azərbaycan xalqını bayram münasibətilə təbrik edib
İlham Əliyev Vladimir Putini təbrik edib
Rusiya Federasiyasının Prezidenti zati-aliləri cənab Vladimir Putinə
Parçalanmış dünyanın bərpasına töhfə
Azərbaycan NATO ilə əməkdaşlığa sadiqdir
Prezident İlham Əliyevin NATO-nun Baş katibi Yens Stoltenberq ilə təkbətək görüşü olub
"Global Terrorism Index" açıqlandı - Azərbaycan dünyanın ən yüksək antiterror reytinqində

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# 3300 ağcaqayın tingi əkilib

**Masallı rayonunun meşə fondu ərazisində ağacəkmə aksiyası keçirilib. Aksiya zamanı 1 hektar ərazidə 3300 ağcaqayın tingi əkilib.**



"Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rəsmilərinin və Meşələrin İnkişafı Xidmətinin əməkdaşlarının birgə iştirakı ilə keçirilən aksiyanın məqsədi ictimaiyyətin diqqətini ətraf mühitin sağlamlaşdırılmasına, yaşıllıqların bərpasına və artırılmasına yönəltmək, vətəndaşları ağac əkməyə təşviq etməklə təbiətə töhfə verməkdən ibarət olub.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

# Fransa həmkarlar ittifaqları işçiləri ümumi tətilə çağırır

## Makron isə müharibəyə hazırlaşır

**Fransada ictimai sektorun həmkarlar ittifaqları Olimpiya Oyunları ərəfəsində maaşların artırılması tələbi ilə ümummilli tətil keçirməyə çağırıb. Söhbət dövlət müəssisələrində çalışan 5,7 milyon insandan gedir: müəllimlər, həkimlər və tibb bacıları.**




Fransanın iki aparıcı həmkarlar ittifaqının, Ümumi Əmək Konfederasiyası (CGT) və Fransa Demokratik Əmək Konfederasiyasının (CFDT) rəhbərləri Sofi Binet və Mariliz Leon hakimiyyəti dərhal danışıqlara başlamağa çağırıblar.

"Bu gün dövlət üçün işləyənlərin çoxu çətinliklə dolana bilir, 10 faizi, yəni 500 min işçi ayda 1500 avrodan az maaş alır, birbaşa inflyasiyaya məruz qalır. Biz maaşların ümumi artımını və xüsusilə real danışıqları tələb edirik", - deyə Leon RTL radiosunda bildirib. Onun fikrincə, danışıqlarda karyera perspektivlərinə və iş şəraitinə də toxunulmalıdır.

Binet isə RMC radiosunda bildirib: "Bizim dövlət xidmətlərimiz çox pis vəziyyətdədir. Çoxsaylı dövlət sektoru işçiləri tətilə gedəcəklər ki, nəhayət, onları dinləsinlər və hökumət büdcə siyasətinə yenidən baxsın". Onun dediyinə görə, dövlətdə işləyənlərin alıcılıq qabiliyyətinin bu qədər aşağı düşməsi normal hal deyil. Fransız dövlət qulluqçuları - tibb bacıları, həkimlər, müəllimlər dünyada ən aşağı maaş alanlar sırasındadırlar.

Həmkarlar ittifaqları Olimpiada ərəfəsində hakimiyyətə təzyiq etmək ümidi ilə Parisdə və bütün Fransada işçiləri tətilə çağırıblar.

Bu arada Fransa Quru Qoşunlarının Baş Qərargah rəisi general Pyer Şill bildirib ki, Fransa ordusu "ən ağır münaqişələrdə" iştirak etməyə hazırlaşır. Şill "Le Monde" qəzetinə deyib: "Hücumlardan müdafiə olunmaq və maraqlarını qorumaq üçün Fransa ordusu bunu elan edərək ən çətin döyüşlərə hazırlaşır.

Parisin planına görə, beynəlxalq arenada vəziyyətin inkişafından asılı olmayaraq, Fransa ordusu həmişə döyüşə "hazırlıqla" cavab verəcək. Fransız əsgərlərinə tapşırılan vəzifələr arasında "dəyişən meyillər", "güc nümayiş etdirmək" və "hücumdan çəkindirmək" var".

General çıxışının sonunda vurğulayıb ki, müdafiə məsələlərində Fransa öz nüvə arsenalına və ordusuna güvənmək niyyətindədir.

Son bir ay ərzində Fransa Prezidenti Emmanuel Makron bir neçə aqressiv bəyanatlar verib və belə qənaətə gəlmək olar ki, Paris NATO qoşunlarının Ukraynaya yerləşdirilməsinə müsbət baxır və lazım gələrsə, Rusiya qoşunları ilə qarşıdurma əməliyyatları keçirməyə hazırdır.

Kreml də öz növbəsində vurğulayıb ki, Qərb ölkələri öz qoşunlarını Ukraynaya göndərsələr, o zaman Rusiya ilə NATO arasında birbaşa toqquşma qaçılmaz olacaq.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti
539-49-20

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

# ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin rəhbərliyi və kollektivi əmək və əhalinin sosial müdafiəsi nazirinin müşaviri Əli Abdullayevə əzizi

**ŞAHVƏZ VƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müşaviri Əli Abdullayevə əzizi

**ŞAHVƏZ VƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Abdin Fərzəliyev Əli Abdullayevə əzizi

**ŞAHVƏZ VƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə
contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti
Tiraj 4300
Sifariş 644
Qiyməti 60 qəpik